Xalqın qəzeti!

# Xalq qəzeti

№ 41 (30735) 23 fevral 2025-ci il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Vicdansızlığın “Şiff barometri”



Səhifə ⇨ 6

# Azərbaycan müasir, güclü aqrar iqtisadiyyat yaradır



**Azərbaycanda 2004-cü ildən indiyədək regionların sosial–iqtisadi inkişafı ilə bağlı layihələrin uğurla reallaşdırılması rayonların iqtisadi potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin daha da yüksəlməsinə, biznes və investisiya mühitinin, əhalinin rifahının yaxşılaşmasına müsbət təsir göstərib, bununla da ölkəmizin strateji inkişaf hədəflərinin gerçəkləşməsinə əhəmiyyətli töhfə verib.**

Bütün bunlarla bərabər, aqrar sektorun subsidiyalaşdırılması və vergi azadolmaları, texnika və gübrələrin güzəştli şərtlərlə verilməsi, investisiyaların və ixracın təşviqi, digər dövlət dəstəyi mexanizmləri regional inkişafın sürətlənməsində, kənd təsərrüfatında, eləcə də emal sənayesində yüksək göstəricilərin əldə edilməsində mühüm rol oynayıb. Regionlarda yaradılan aqrar-sənaye komplekslərində sahibkarlığın müasir dünya təcrübəsi əsasında inkişafı üçün əlverişli investisiya mühiti formalaşdırılıb. Sənaye parkları və məhəllələrinin rezidentləri qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, gəlir və ya mənfəət vergisindən, istehsal məqsədilə idxal etdikləri texnika, texnoloji avadanlıq və qurğular isə ƏDV-dən və gömrük rüsumlarından azad olunub.

Prezident İlham Əliyevin rəhbərliyi ilə sosial-iqtisadi inkişaf strategiyasına uyğun olaraq, ölkəmizdə sahibkarlığın genişləndirilməsi və iqtisadiyyatda rolunun artırılması, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması layihələri davamlı şəkildə həyata keçirilib. Real sektora özəl investisiyaların cəlbini gücləndirmək məqsədilə dövlətimizin başçısının 2016-cı il 18 yanvar tarixli fərmanı ilə təsdiqlənən “İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası”na əsasən, həmin sənədinin verilməsi davam etdirilib. Eyni zamanda, sahibkarlıq sahəsində yoxlamaların, lisenziyaların sayının minimuma endirilməsi, lisenziya verilməsi qaydalarının sadələşdirilməsi və şəffaflığın təmin edilməsi, bütün bunlarla bağlı dövlət dəstəyinin daha da artırılması sahibkarların xərclərinin azalmasına səbəb olub.

*(ardı 7-ci səhifədə)*

# ABŞ, Avropa İttifaqı və biz...

*Ukrayna böhranı kontekstində*

**Azərbaycan dövləti heç zaman imkan verməyib ki, ölkəmizdə rəngli inqilablar gerçəkləşsin, Vətənimiz hansısa qlobal siyasi eksperimentlər üçün poliqona çevrilsin. İndi Ukrayna müharibəsi fonunda yaşanan ABŞ-Avropa ixtilafı ölkəmizin tutduğu qətiyyətli və prinsipial mövqeyin nə qədər müstəsna əhəmiyyət daşıdığının növbəti bariz sübutudur. Bu mövqe hansı amilə söykənir? Bu barədə bir qədər sonra. Hələlik isə...**



Bu gün, faktiki olaraq, Ukraynanın taleyi onun özünün iştirakı olmadan müəyyənləşir. Doğrudan da faciəvi durumdur. Əlbəttə, Ukrayna xalqı sınaqdan üzüağ çıxmaq üçün özündə güc və cəsarət tapacaq. Amma istər-istəməz sual yaranır: Bunlar yaşanmaya bilməzdi? Ölkənin şəhər, kənd və qəsəbələrinin xarabazara çevrilməsi kimə və ya kimlərə lazım idi? Sualımız ritorikdir, çünki cavab məlumdur və bu barədə də söz açacağıq.

Bəli, ölkəmizdə rəngli inqilab ssenarilərinə qarşı son dərəcə güclü immunitet formalaşıb. Hətta bu baxımdan Azərbaycan nümunə də sayıla bilər. Nəzərə alaq ki, belə bir immunitetin nəticəsidir ki, ölkəmiz özünün dayanıqlı və davamlı inkişaf yolundan dönmədi, Cənubi Qafqazda liderliyə yiyələndi. Bu immunitetin və müqavimətin nəticəsidir ki, müstəqil və qəti siyasətimiz var və mövcud siyasət milli maraqlarımızı həm qeyri-dost, həm tərəfdaş ölkələrlə münasibətdə təmin etmək potensialındadır.

Ölkəmizdə rəngli inqilablara qarşı illər ərzində formalaşmış immunitet yeni müqavimət çaları ilə də zənginləşib. Buna görədir ki, Azərbaycan milli dövlətlərə qəsd texnologiyalarına əsaslanmış qlobal oyunların pozulma meydanıdır. Onu da bildirək ki, dövlətimizin təqdim etdiyi müqavimət modeli sistemlidir. Nəticədə rəngli inqilab ssenarilərinin yeni ultra liberal və liberalo-faşist ideologiyasına əsaslanmış seqmentləri də iflas aqibətini yaşayır.

*(ardı 3-cü səhifədə)*

## Taym-aut: Qərbdə reabilitasiya, Rusiya “nəfəs ala” bilər

*ABŞ və yeni Avropa quruculuğundakı müəmmalar*



**“Avropa İttifaqı bu gün “ölüm nöqtəsi”ndədir”. Bu fikri hələ 2020-ci ildə Polşanın səhiyyə naziri olmuş Pşemıslav Çarnek dilə gətirmişdi. Nazir qənaətini gücləndirmək üçün 2005-ci ildə dünyasını dəyişmiş Roma papası II İohan Pavelin xəbərdarlığını diqqətə çatdırmışdı.**

Əlbəttə, Çarnek fikirlərini daha çox səhiyyə sistemi kontekstində bildirmiş və vurğulamışdı ki, Avropanı konstrasepsiyaya əlçatımlılıq və abort, daha dəqiq desək, öldürmək hüququ narahat edirsə, amma doğuş məsələləri önəmli deyilsə, deməli, qitə sivilizasiyasının “ölüm nöqtəsi” yetişib.

**(ardı 4-cü səhifədə)**

## Kiçik sahibkarlıq Böyük qayıdışda fəal iştirak edir



Səhifə ⇨ 7

## Ermənistanın ikibaşlı oyunu



Səhifə ⇨ 3

## Almaniya ciddi sınaq qarşısında



Səhifə ⇨ 11

## Yaxın qonşu, yoxsa uzaq “bacı”?

*İrəvan bilmir ki, əlini kimə uzatsın*



**“Kollektiv Qərb”in bütün mümkün vasitələrdən yararlanmaqla Cənubi Qafqazı yenidən münaqişə ocağına çevirməyə çalışması təzə məsələ deyil. Bu məqsədlə Ermənistana göndərdiyi Aİ, ABŞ və Fransa emissarlarının, hərbi müşavirlərinin İrəvanın boynuna müəyyən öhdəliklər qoyduqları da hər kəsə məlumdur. Haypərəst avropalılar həmin öhdəlikləri reallaşdırmaqla həm Azərbaycanı sülh danışıqlarında güzəştə getməyə məcbur etməyə, həm şərti sərhəddə gərginliyin yaradılmasına nail olmağa, həm də bölgədə maraqlarını yeritməyə çalışırlar.**

Keçən ilin aprelində Brüsseldə ABŞ–Aİ– Ermənistan sazişinə imza atanlar, əslində, Bakıdan gizli saxlamağa çalışdıqları bu missiyanın konkret konturlarını açıq şəkildə ortaya qoymuş oldular. Ondan sonra Avropa İttifaqının Avropa Sülh Fondu (ASF) adlı qurumu vasitəsilə İrəvana 10 milyon avro vəsaitin ayrılması “Brüssel planı”nın tərkib hissəsi idi. Bunun ardınca iyulun 21-də Aİ-nin mülki müşahidə missiyasının nəzarəti altında olan şərti sərhəddə atəşkəs pozulur və iyulun 22-də Aİ Ermənistana 10 milyon dollar ayırır. Aydın məsələdir ki, bu məsələlər arasında bağlılıq vardı. Yəni, Ermənistan Azərbaycanla sərhəddə gərginlik yaradır, Aİ Ermənistana hərbi yardım göstərir. Həm də bu yardım Sülh Fondu tərəfindən edilir.

**(ardı 4-cü səhifədə)**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 26** — **Bakı şəhəri, 19 fevral 2025-ci il**

***“Aviasiya haqqında” Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Aviasiya haqqında” Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Azərbaycan Respublikası dövlət sərhədinin mühafizəsini gücləndirmək tədbirləri haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 16 oktyabr tarixli 560 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 1, maddə 78) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2-ci hissənin “a” bəndində “təyyarə meydanları” sözləri “aerodromlar və ya helikopter meydançaları” sözləri ilə əvəz edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - “Azərbaycan Respublikası ərazi və daxili sularında özü hərəkət edən və özü hərəkət etməyən üzmə vasitələrin saxlanılması Qaydaları”nın 14-cü hissəsinin birinci abzasında “vertolyotların” sözü “helikopterlərin” sözü ilə əvəz edilsin;

1.3. həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - “Azərbaycan Respublikasının dövlət sərhədində profilaktik zolaq və baytar-sanitar rejiminə dair Qaydalar” üzrə:

1.3.1. 4.4-cü bəndin birinci cümləsində “aeroportlarda” sözü “hava limanlarında” sözləri ilə əvəz edilsin;

1.3.2. 5.1-ci bənddə “aeroportlarda” sözü “hava limanlarında” sözləri ilə və “beynəlxalq xətt” sözləri “beynəlxalq uçuşlar” sözləri ilə əvəz edilsin;

1.3.3. 5.3-cü bəndin ikinci abzasında “aeroport” sözü “hava limanı” sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 28 dekabr tarixli 700 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 1, maddə 79) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında sülh və müharibə dövrlərində fövqəladə hallarda əhalini mühafizənin Əsas Prinsipləri”nin 4.8-ci bəndinin beşinci abzasında “vertolyotlarını” sözü “helikopterlərini” sözü ilə əvəz edilsin.

3. “Azərbaycan Respublikası dövlət sərhədinin mühafizəsini gücləndirmək məqsədi ilə əlavə qayda və əsasnamələrin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 9 mart tarixli 140 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 1, maddə 78, № 11, maddə 1260) aşağıdakı dəyişikliklər edilsin:

3.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - “Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrində sərhəd nəzarəti məntəqələri haqqında Əsasnamə” üzrə:

3.1.1. 3-cü bölmənin birinci hissəsinin altıncı abzasında “aeroportların” sözü “hava limanlarının” sözləri ilə əvəz edilsin;

3.1.2. 5-ci bölmənin yeddinci abzasının birinci cümləsində “milli və xarici hava gəmilərinin xüsusi uçuşları” sözləri “Azərbaycan Respublikasına və xarici dövlətə mənsub hava gəmilərinin liter reysləri” sözləri ilə əvəz edilsin;

3.2. həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - “Azərbaycan Respublikası ərazisinin sanitar mühafizəsi Qaydaları”nın 2.21-ci bəndinin birinci cümləsində “aeroportda” sözü “hava limanında” sözləri ilə əvəz edilsin;

3.3. həmin Qərarla təsdiq edilmiş 5 nömrəli əlavə - “Dövlət sərhədini pozan hava gəmilərinə və uçuş aparatlarına qarşı hava hücumundan müdafiə qoşunlarının növbətçi qüvvə və döyüş texnikasının tətbiq edilməsi Qaydaları” üzrə:

3.3.1. 2-ci hissənin birinci və ikinci abzaslarına “xarici” sözündən sonra, həmin hissənin ikinci abzasına “Xarici” sözündən sonra və 4-cü hissənin birinci abzasının birinci cümləsinə “xarici” sözündən sonra “dövlətə mənsub” sözləri əlavə edilsin;

3.3.2. 2-ci hissənin birinci abzasında “gəmilərin” sözü “hava gəmilərinin” sözləri ilə, həmin hissənin ikinci abzasında “və yaxınlıqdakı” sözləri “və ya ölkə daxilində yaxınlıqdakı” sözləri ilə əvəz edilsin;

3.3.3. 3-cü hissənin birinci abzasında “aviasiya hissələrinin, hava hücumundan müdafiə qoşun birləşmələrinin və ya yuxarı komanda məntəqələrinin əməliyyat növbətçilərinin qərarı” sözləri “Azərbaycan Respublikası Müdafiə Nazirliyinin tələbi” sözləri ilə əvəz edilsin;

3.3.4. 3-cü hissənin birinci abzasında (birinci və ikinci hallarda), 4-cü hissədə (hər üç halda), 7-ci hissədə və qeyd hissəsinin ikinci cümləsində ismin müvafiq hallarında “təyyarə” sözü ismin müvafiq hallarında “hava gəmisi” sözləri ilə əvəz edilsin;

3.3.5. 4-cü hissənin birinci abzasının birinci cümləsində, 5-ci hissənin birinci abzasının ikinci cümləsində (hər iki halda), 7-ci hissədə və 8-ci hissənin birinci abzasının birinci cümləsində ismin müvafiq hallarında “vertolyotlar” sözü ismin müvafiq hallarında “helikopterlər” sözü ilə əvəz edilsin;

3.3.6. 4-cü hissənin birinci abzasının ikinci cümləsində, 9-cu hissənin birinci cümləsində ismin müvafiq hallarında “təyyarələr” sözü ismin müvafiq hallarında “hava gəmiləri” sözləri ilə əvəz edilsin;

3.3.7. 8-ci hissənin ikinci abzasının birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

“Məcburi qaydada yerə enmək barədə xüsusi tələblərə riayət etməyən, bortunda pozuntu törədilməsində təqsiri olmayan sərnişinlərin olması barədə düzgün məlumat olmayan və ya özünümüdafiə tələb edilən halda hava gəmisinin məhvinə icazə verilir.”.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 10 may tarixli 185 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 1, maddə 79, № 9, maddə 1067) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında əlilliyi olan şəxslərin problemləri üzrə kompleks Proqram”ın 5.3-cü bəndinin onuncu abzasının “Tədbirlər” sütununda “aeroport” sözü “hava limanı” sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 12 iyul tarixli 269 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası diplomatik poçtunun daşınması qaydası haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

5.1. 3-cü hissənin birinci abzasında “aviasiya marşrutları” sözləri “hava marşrutları” sözləri ilə və üçüncü abzasında “aviasiya marşrutları sərnişin təyyarələrinin birinci” sözləri “hava marşrutları sərnişin daşımasını həyata keçirən hava gəmilərinin birinci dərəcəli” sözləri ilə əvəz edilsin;

5.2. 5-ci hissənin birinci cümləsində “Təyyarənin” sözü “Hava gəmisinin” sözləri ilə əvəz edilsin;

5.3. 5-ci hissənin ikinci cümləsində, 20-ci hissənin birinci abzasının ikinci cümləsində və 21-ci hissədə ismin müvafiq hallarında “təyyarə” sözü ismin müvafiq hallarında “hava gəmisi” sözləri ilə əvəz edilsin;

5.4. 5-ci hissənin üçüncü cümləsində “Xarici aviasiya xətlərində” sözləri “Beynəlxalq hava daşımalarında” sözləri ilə əvəz edilsin;

5.5. 20-ci hissənin birinci cümləsində “aeroportlara” sözü “hava limanlarına” sözləri ilə və “aeroportlardan” sözü “hava limanlarından” sözləri ilə əvəz edilsin;

5.6. 20-ci hissənin birinci abzasının ikinci cümləsində “aeroporta” sözü “hava limanına” sözləri ilə əvəz edilsin;

5.7. 21-ci, 30-cu və 31-ci hissələrdə “aeroporta” sözü “hava limanına” sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 22 sentyabr tarixli 216 nömrəli Qərarı (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 20 may tarixli 53 nömrəli Qərarı (Cild I); 2024, № 2, maddə 242, № 5 (II kitab), maddə 612, № 7, maddə 910) ilə təsdiq edilmiş “Müharibə veteranı, silahlı qüvvələr veteranı və əmək veteranı adlarının verilməsi qaydası və şərtləri haqqında Əsasnamə”nin “1. Müharibə veteranları” hissəsinin on birinci abzasında “uçan aparatlar” sözləri “uçuş aparatları” sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 14 dekabr tarixli 237 nömrəli Qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 12, maddə 804 (Cild I); 2024, № 9, maddə 1090) 2 nömrəli əlavə - “Hidrometeorologiya və təbii mühitin monitorinqi üzrə ödənişsiz və ödənişli məlumatların növləri”nin “Ödənişli məlumatlar” bölməsinin 5-ci hissəsinin onuncu abzasında “respublika aeroportu” sözləri “hava limanı” sözləri ilə, on birinci abzasında “aviasiya marşrutları” sözləri “hava marşrutları” sözləri ilə və “yerli aeroportlar” sözləri “hava limanları” sözləri ilə əvəz edilsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 27 mart tarixli 51 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 206 (Cild I) ilə təsdiq edilmiş “Faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan məqsədlər üçün verilən torpaq sahələrinin hüdudlarında yerin təkindən istifadə Qaydaları”nın 2.3-cü bəndində “təyyarə” sözü “hava” sözü ilə əvəz edilsin.

9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 21 iyun tarixli 103 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 6, maddə 381 (Cild I) ilə təsdiq edilmiş “Qaz təchizatında mühafizə zonaları və təhlükəsizlik tədbirləri Qaydaları”nın 2.2-ci bəndinin səkkizinci abzasında “vertolyot” sözü “helikopter” sözü ilə əvəz edilsin.

10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 9 iyul tarixli 115 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 462 (Cild I) ilə təsdiq edilmiş “Hidrometeorologiya və təbii mühitin monitorinqi üzrə məlumatlardan istifadəyə görə ödəmə dərəcələri və qaydaları”nın V bölməsinin onuncu abzasının “Aparılan müşahidələrin, xidmət işlərinin adı” sütununda “aeroportu” sözü “hava limanı” sözləri ilə, on birinci abzasının “Aparılan müşahidələrin, xidmət işlərinin adı” sütununda “aviasiya marşrutları” sözləri “hava marşrutları” sözləri ilə və “aeroportlar” sözü “hava limanları” sözləri ilə əvəz edilsin.

11. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 28 fevral tarixli 27 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 2, maddə 123 (Cild I); 2024, № 2, maddə 209) ilə təsdiq edilmiş “İstehsalatda baş verən bədbəxt hadisələrin təhqiqi və uçota alınması Qaydaları”nın 1.2-ci bəndinin səkkizinci abzasında “və hava nəqliyyatlarının ekipaj” sözləri “nəqliyyatlarının ekipaj və hava gəmilərinin heyət” sözləri ilə əvəz edilsin.

12. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 24 mart tarixli 58 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (II kitab), maddə 246 (Cild I); 2024, № 9, maddələr 1067, 1106) ilə təsdiq edilmiş “Yaşı 18-dən az olan işçilərin əməyinin tətbiqi qadağan olunan əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə yeraltı işlərin siyahısı”nın “XXVII. Nəqliyyat” bölməsinin “Mülki aviasiya” hissəsinin birinci abzasında “uçma aparatlara” sözləri “uçuş aparatlarına” sözləri ilə, ikinci abzasında “uçma təlim” sözləri “uçuş təlimi” sözləri ilə əvəz edilsin və on ikinci abzasına “təyyarələrin” sözündən sonra “və helikopterlərin” sözləri əlavə edilsin.

13. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 1 may tarixli 79 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 5, maddə 360 (Cild I); 2024, № 2, maddələr 208, 229; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 28 dekabr tarixli 546 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Torpaqların zonalaşdırılmasının ümumi əsasları və prinsipləri”nin 2.7-ci bəndinin dördüncü abzasında “Təyyarə” sözü “Aerodromlar və helikopter” sözləri ilə əvəz edilsin.

14. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 30 iyun tarixli 110 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 6, maddə 475 (Cild I) ilə təsdiq edilmiş “Nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətinin təmin edilməsinə nəzarət Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

14.1. IV bölmənin adında “uçuş” sözü “uçuşlarının” sözü ilə əvəz edilsin;

14.2. 4.2-ci bənddə “Azərbaycan Respublikasında qüvvədə olan, mülki aviasiyanın fəaliyyətini nizama salan qanunvericilik və normativ hüquqi aktların” sözləri “uçuşların təhlükəsizliyi sahəsində beynəlxalq standartlara, habelə aviasiya sahəsində yaranan münasibətləri tənzimləyən Azərbaycan Respublikasının normativ hüquqi aktlarının” sözləri ilə əvəz edilsin;

14.3. 4.3-cü bəndin birinci abzasında “İKAO-nun Standartlarını və Tövsiyə praktikasını” sözləri “Beynəlxalq Mülki Aviasiya Təşkilatının beynəlxalq standartlarını və tövsiyə olunan təcrübəsini” sözləri ilə əvəz edilsin;

14.4. 4.4-cü bəndin ikinci abzasında “şəhadətnamələri (sertifikatları)” sözləri “sertifikatı” sözü ilə əvəz edilsin;

14.5. 4.6-cı bəndin üçüncü abzasına “hava gəmilərinin” sözlərindən sonra “, hava limanlarının” sözləri əlavə edilsin, həmin bəndin dördüncü abzasında “münaqişələrinin” sözü “insidentlərinin” sözü ilə, beşinci və doqquzuncu abzaslarında ismin müvafiq hallarında “komanda-rəhbər, uçuş, dispetçer, mühəndis-texniki heyətlər” sözləri ismin müvafiq hallarında “aviasiya personalı” sözləri ilə və altıncı abzasında “şəhadətnamənin (sertifikatın)” sözləri “şəhadətnamə, vəsiqə və sertifikatların” sözləri ilə əvəz edilsin;

14.6. 4.7-ci bəndin altıncı abzasında “aerodromların” sözü “hava limanlarının (aerodromlarının)” sözləri ilə, “şəhadətnamələr” sözü “sertifikatlar” sözü ilə əvəz edilsin, həmin bəndin yeddinci abzasında “yararlı olması haqqında vəsiqələr” sözləri “yararlılıq sertifikatlarını” sözləri ilə, səkkizinci abzasında “münaqişələrinin tədqiqatının gedişinə nəzarət edir” sözləri “insidentlərinin araşdırılmasının gedişində iştirak edir” sözləri ilə, doqquzuncu abzasında “qəzaya” sözü “aviasiya hadisəsinə” sözləri ilə və “edilməsini təşkil” sözləri “edilməsində iştirak” sözləri ilə əvəz edilsin;

14.7. 4.7-ci bəndin “b” yarımbəndində “xarici hava gəmilərinin” sözləri “xarici dövlətə mənsub hava gəmilərinin” sözləri ilə, “Standartları və Tövsiyə praktikasının (SARPS)” sözləri “beynəlxalq standartları və tövsiyə olunan təcrübəsinin” sözləri ilə əvəz edilsin.

15. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 4 sentyabr tarixli 158 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 684 (Cild I); 2024, № 9, maddə 1090; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 28 dekabr tarixli 546 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Şəhərsalma sənədlərinin tərkibi, tərtibatı, razılaşdırılması, dövlət ekspertizası aparılması və təsdiq olunması Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

15.1. 6.13-cü bəndin beşinci abzasında “aeroport” sözü “hava limanı” sözləri ilə əvəz edilsin;

15.2. 6.14-cü bəndin ikinci abzasında “aeroportlar” sözü “hava limanları” sözləri ilə əvəz edilsin.

16. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 5 aprel tarixli 76 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 4, maddə 285 (Cild I); 2024, № 9, maddə 1055) ilə təsdiq edilmiş “Cəza çəkmədən azad edilmiş şəxslərin qida, geyim, ayaqqabı ilə təmin olunması, onlara gediş haqqının ödənilməsi, həmçinin birdəfəlik pul müavinətinin verilməsi Qaydası”nın 4-cü hissəsinin birinci cümləsində “təyyarə” sözü “sərnişin” sözü ilə əvəz edilsin.

17. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 31 oktyabr tarixli 145 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 627 (Cild I); 2024, № 1, maddələr 110, 124, № 9, maddələr 1061, 1067; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 24 dekabr tarixli 534 nömrəli, 29 dekabr tarixli 558 nömrəli və 2025-ci il 22 yanvar tarixli 12 nömrəli qərarları) ilə təsdiq edilmiş “Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası”nın 8.9-cu bəndində “təyyarədə” sözü “hava gəmisində” sözləri ilə əvəz edilsin.

18. “Viza blankının təsviri, spesifikasiyası və nümunəsi”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 1 dekabr tarixli 153 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 12, maddə 741 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

18.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - “Viza blankının təsviri”nın birinci hissəsində “İCAO-nun (Beynəlxalq Mülki Aviasiya Təşkilatının)” sözləri “Beynəlxalq Mülki Aviasiya Təşkilatının” sözləri ilə əvəz edilsin;

18.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - “Viza blankının spesifikasiyası”nın birinci hissəsində “İCAO-nun (Beynəlxalq Mülki Aviasiya Təşkilatının)” sözləri “Beynəlxalq Mülki Aviasiya Təşkilatının” sözləri ilə əvəz edilsin.

19. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 5 iyul tarixli 92 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 583 (Cild I); 2024, № 2, maddə 209, № 5 (II kitab), maddə 579, № 9, maddələr 1067, 1106) ilə təsdiq edilmiş “Əmək şəraitinə və əmək funksiyasının xarakterinə görə əlavə məzuniyyət hüququ verən, zərərli və ağır istehsalatların, peşə və vəzifələrin Siyahısı”nın “XXX. Nəqliyyat” bölməsinin “Ç. Mülki aviasiya” hissəsinin 128-ci, 130-cu, 148-ci və 151-ci (hər iki halda) bəndlərinin “İstehsalat, peşə və vəzifələrin adı” sütununda ismin müvafiq hallarında “vertolyotlar” sözü ismin müvafiq hallarında “helikopterlər” sözü ilə əvəz edilsin.

20. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 30 sentyabr tarixli 147 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 9, maddə 759 (Cild I); 2024, № 2, maddə 208, № 4, maddə 472, № 5 (II kitab), maddə 612, № 9, maddə 1090; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 28 dekabr tarixli 548 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazisində ovçuluq fəaliyyətini həyata keçirmək üçün istifadə edilən ov alətlərinin növü və istifadəsi qaydası”nın 3.12-ci bəndinin dördüncü abzasında “vertolyotla” sözü “helikopterlə” sözü ilə əvəz edilsin.

21. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 2 noyabr tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 957 (Cild I); 2024, № 2, maddə 229) ilə təsdiq edilmiş “İstismar olunan ixrac neft boru kəmərlərinin “Mühafizə Zonası”nın müəyyənləşdirilməsi Qaydaları”nın 2.1-ci bəndinin altıncı abzasında “vertolyot” sözü “helikopter” sözü ilə əvəz edilsin.

22. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 27 yanvar tarixli 10 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 1, maddə 54 (Cild I); 2024, № 4, maddə 472) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazisində ovçuluğun aparılması Qaydaları”nın V hissəsinin on beşinci abzasında “vertolyotla” sözü “helikopterlə” sözü ilə əvəz edilsin.

23. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 21 aprel tarixli 74 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 388 (Cild I) ilə təsdiq edilmiş “Şəhərlər və digər yaşayış məntəqələri ərazisinin sanitariya qaydalarına, gigiyena və ekoloji normativlərə uyğun olaraq təmizlənməsi, məişət tullantılarının müvəqqəti saxlanılması, müntəzəm daşınması və zərərsizləşdirilməsi Qaydaları”nın 8.1-ci bəndinin birinci cümləsində “aeroportlarda” sözü “hava limanlarında” sözləri ilə əvəz edilsin.

24. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 28 sentyabr tarixli 178 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 9, maddə 869 (Cild I); 2024, № 1, maddə 80, № 3, maddə 307, № 4, maddə 450, № 5 (II kitab), maddə 585, № 7, maddə 902, № 9, maddələr 1048, 1063) ilə təsdiq edilmiş “Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı”nın 12-ci hissəsində “aeroport” sözü “hava limanı” sözləri ilə və “aeroportların” sözü “hava limanlarının” sözləri ilə əvəz edilsin.

25. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 9 fevral tarixli 42 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 2, maddə 190 (Cild I); 2024, № 1, maddə 81) ilə təsdiq edilmiş “İxrac nəzarətinə düşən malların nomenklaturuna uyğun kodlar üzrə, habelə işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin Siyahısı”nda aşağıdakı dəyişikliklər edilsin:

25.1. “1B001,b”, kateqoriyasının “Adları” sütununun “Qeyd” hissəsində “pilotsuz hava uçuş” sözləri “pilotsuz uçuş aparatı” sözləri ilə, “9A105,b”, “9A107” və “9A119” kateqoriyalarının “Adları” sütununda “pilotsuz hava nəqliyyat” sözləri “pilotsuz uçuş aparatı sistemlərinin” sözləri ilə, “ML10” kateqoriyasının “Adları” sütununun “g” bəndində “ekipaj” sözü “hava gəmisinin heyəti” sözləri ilə əvəz edilsin;

25.2. Siyahının mətni üzrə ismin müvafiq hallarında “vertolyot” sözü “helikopter” sözü ilə əvəz edilsin.

26. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 26 oktyabr tarixli 231 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 10, maddə 907 (Cild I); 2024, № 2, maddə 233) ilə təsdiq edilmiş “Mülki aviasiya uçuş və uçuş-sınaq heyətində işləyənlərin sığorta stajlarının hesablanması Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

26.1. 2.3-cü bənddə “ekipajlarının” sözü “heyətlərinin” sözü ilə əvəz edilsin;

26.2. 2.4-cü bənddə “vertolyotdan” sözü “helikopterdən” sözü ilə əvəz edilsin;

26.3. 3.1-ci bənddə (hər iki halda) və 3.2-ci bəndin birinci abzasında (hər iki halda) “ekipaj” sözü “heyət” sözü ilə əvəz edilsin;

26.4. 3.2-ci bəndin birinci abzasında “vertolyotların” sözü “helikopterlərin” sözü ilə əvəz edilsin;

26.5. 3.5-ci bənddə (hər üç halda) “vertolyotlardan” sözü “helikopterlərdən” sözü ilə əvəz edilsin;

26.6. 3.3-cü bənddə “qəza-xilasetmə (axtarış-xilasetmə)” sözləri “axtarış və xilasetmə” sözləri ilə əvəz edilsin.

27. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 yanvar tarixli 14 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 1, maddə 58 (Cild I); 2024, № 5 (II kitab), maddə 612) ilə təsdiq edilmiş “Fitosanitar nəzarəti məntəqələrinin yerləşdirilməsi və fəaliyyəti Qaydası”nın 5.2-ci bəndində “təyyarələrə” sözü “hava gəmilərinə” sözləri ilə əvəz edilsin.

28. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 1 fevral tarixli 22 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 2, maddə 182 (Cild I); 2024, № 2, maddələr 209, 211, 233) ilə təsdiq edilmiş “Radiotezliklərin ayrılması, qeydiyyatı, istifadəsi və ödənişlərin təyin olunması Qaydaları”nın 2.5-ci bəndində “təyyarələrdə” sözü “hava gəmilərində” sözləri ilə və “təyyarənin” sözü “hava gəmisinin” sözləri ilə əvəz edilsin.

29. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 11, maddə 1072 (Cild I) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - “Elektron xidmət növlərinin Siyahısı”nın 15.21-ci bəndində “Məsafədən idarə edilən pilotsuz uçan aparatların” sözləri “Mülki pilotsuz uçuş aparatlarının” sözləri ilə əvəz edilsin.

30. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 27 avqust tarixli 186 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 8, maddə 834 (Cild I) ilə təsdiq edilmiş “Gömrük nəzarətindən keçməli olan malların yoxlanılmasının sürətləndirilməsi, gömrük nəzarətinin səmərəliliyinin artırılması və həyata keçirilmə müddətinin azaldılması məqsədi ilə gömrük orqanları tərəfindən istifadə olunan texniki vasitələrin siyahısı və onlardan istifadə Qaydaları”nın 3.3-cü bəndində “aeroportlarda” sözü “hava limanlarında” sözləri ilə əvəz edilsin.

31. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 24 dekabr tarixli 315 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 12, maddə 1379 (Cild I) ilə təsdiq edilmiş “Aviasiya təhlükəsizliyi personalının xüsusi texniki vasitələrdən istifadə etməsi Qaydaları”nın 5.1-1-ci bəndində “aeroportun” sözü “hava limanının” sözləri ilə əvəz edilsin.

*(ardı 6-cı səhifədə)*

# ABŞ, Avropa İttifaqı və biz...

## *Ukrayna böhranı kontekstində*

*(əvvəli 1-ci səhifədə)*



İllərdir Azərbaycan dövləti və ictimaiyyəti beynəlxalq aləmin riyakarlığından və ikiüzlülüyündən söz açır. Hazırda ABŞ-Avropa İttifaqı, bütövlükdə Birləşmiş Ştatlar – Avropa qarşıdurması fonunda artıq həmin riyakarlıqlar onu ideya xətti kimi həyata keçirənlərin sifətlərinə çırpılır, başlarına vurulur. Daha doğrusu, sifətə çırpan da, başa vuran da ABŞ-dır. Halbuki, olanlara görə ölkənin əvvəlki rəhbərliyi – Bayden – Blinken administrasiyası məsuliyyət daşıyır.

Bilavasitə Bayden administrasiyasının formalaşdırdığı gündəmin nəticəsi idi ki, sivilizasiyalar arasında, sanki, qırmızı xətlər çəkildi, bölücülük toxumları səpildi, uçurumlar yaradıldı. Bu administrasiyanın peşkası – Fransa Prezidenti Emmanuel Makronun liberalizmi özünü ən əcaib formada göstərdi. Rəsmi Parisin yeritdiyi neokolonializm liberalist düşüncəsini – neokolonializmi leqallaşdırmaq xətti tutdu.

Digər tərəfdən, Fransa liberalizmi o qədər güclü xarakter aldı ki, Makron ölkə vətəndaşlarına qarşı da müstəmləkə üsul-idarəsinə xas tərzdə davrandı. Əslində, buna liberalizm demək də doğru deyil. Çünki zülm və iztirab heç bir meyara sığışmır. Makron öz xalqına zülm etmiş, ona məhrumiyyətlər yaşatmış avantüristdir. Ona görə də ABŞ-ın vitse-prezidenti Cey Di Vens haqlı olaraq deyir ki, Avropa mərkəzləri öz vətəndaşlarından qorxurlar.



Qorxmalıdırlar, həm də o səbəbdən ki, insanlara heç nə verməyiblər. Verməli olduqlarını xaricdəki məkrli, çirkin məqsədlər naminə xərcləyiblər. İstəyiblər ki, rəngli inqilab dalğasını genişləndirsinlər. Guya ki, iş görürlər. Budur, indi Prezident Tramp bildirir ki, gördüyünüz iş təpənizə dəysin, hər şeyi məhv etmisiniz. Bu aqibətdən böyük rüsvayçılıq ola bilməz. Tam əminliklə demək olar ki, hazırda Avropa özünün ən miskin dövrünü yaşayır.

Azərbaycan zamanında bildirirdi ki, Qərbin yeritdiyi siyasət mütərəqqi dəyərləri, demokratizmi ayaqlar altına atır. Dəyərləri ayaqlar altına alan Nuland və Rays kimilər indi rahat yaşayışlarını davam etdirirlər, Ukrayna xalqı isə ortalıqda qalıb, hər gün müharibənin əzablarını görməyə, ağırlığını çiyinlərində daşımağa məhkumdur.

Bir məqamı da vurğulayaq ki, Azərbaycanda da nulandların ultra-liberal baxışlarını, psevdodemokrat ideyalarını yaymaq istəyənlər oldu. Bu məqsədlə ayrı-ayrı siyasətçilər NED, NDİ və digər fondlar vasitəsilə Azərbaycanda rəngli inqilablar təşkil etmək eşqinə düşdülər. 44 günlük müharibə dönəmində isə nulandların gədə-güdələri yağışdan sonra çıxmış göbələklər kimi ortaya atıldılar. Onlar xalqımızın öz haqqına qovuşmasına, torpaqlarımızı azad etmək əzminə qarşı duruş gətirmək istədilər. Sülh "qaranquşları" imişlər. Bayquş xislətinə köklənmiş bu kəsim, eyni zamanda, çalışdı ki, Azərbaycan gəncləri Qarabağa bağlılıq hissini unutsun. Bunun üçün LQBT meyillərini dövriyyəyə gətirərək, ailə modelimizi sarsıtmağa cəhd göstərdilər. Lakin heç bir istəklərinə nail ola bilmədilər və indən belə də nail ola bilməzlər.

Sonda əvvəldə səsləndirdiyimiz suala cavab verərək deyək ki, müxtəlif rəngli inqilab ssenarilərinin Azərbaycanda reallaşmamasının, iflasa uğramasının ən böyük səbəbi ölkəmizə güclü liderin rəhbərlik etməsidir. Bəli, ulu öndər Heydər Əliyevin uzaqgörənliyi və Prezident İlham Əliyevin liderliyində özünü göstərən rasionallıq və praqmatizm təmayülü bölücülük niyyətlərinin qarşısına sədd çəkdi. Nəinki sədd çəkdi, habelə, ölkəmizi inkişafa apardı. İnkişaf gücümüzə güc qatdı. Nəticə göz önündədir. Bu gün özünün ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş qüdrətli Azərbaycan var. O Azərbaycan ki, həm Cənubi Qafqazda söz sahibidir, oturuşmuş dövlət idarəçiliyi modelidir, həm də dünyanın hesablaşdığı mərkəzdir. Gücünü, qüvvəsini xalq-iqtidar vəhdətindən alan sarsılmaz, malik olduğu dövlətçilik üçün əbədilik aqibəti müəyyənləşdirmiş mərkəz.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Ermənistanın ikibaşlı oyunu

**Son dövrlərdə Ermənistanla Rusiya arasında siyasi gərginlik müşahidə olunur. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) və Avrasiya İqtisadi İttifaqının (Aİİ) dövlət və hökumət başçıları səviyyəsində tədbirlərində Ermənistanın baş naziri iştirak etmir. Bu qurumların nazirlik səviyyəsində olan tədbirlərində isə ciddi narazılıq yaranmır.**

Belə tədbirlərdən biri də bugünlərdə Moskvada keçirilib. Avrasiya İqtisadi Komissiyası Şurasının (Avrasiya İqtisadi İttifaqının icraçı orqanı) iclasında "Aİİ-2025" inkişaf strategiyasının həyata keçirilməsi, eləcə də onu əvəz



edəcək yeni inkişaf proqramının hazırlanması müzakirə olunub. Moskvada keçirilən görüşdə Ermənistandan baş nazirin müavini Mher Qriqoryan da iştirak edib.

Qeyd edək ki, Ermənistan Belarus, Qazaxıstan və Rusiya ilə birlikdə Avrasiya İqtisadi İttifaqının tamhüquqlu üzvüdür. Sonradan bu quruma Qırğızıstan da qoşulub. Ermənistan Aİİ-yə qoşulmaqla bir sıra üstünlüklər qazanıb. Bura malların, xidmətlərin, kapitalın və işçi qüvvəsinin sərbəst hərəkəti daxildir. İrəvan maneələrin aradan qaldırılması və inzibati xərclərin minimuma endirilməsi hesabına Aİİ ilə ticarət dövriyyəsini artırıb. Ermənistan Milli Statistika Komitəsinin məlumatına görə, 2024-cü ildə Ermənistanın Aİİ-yə üzv ölkələrlə xarici ticarət dövriyyəsi 54 faiz artaraq 12 milyard 706 min dollar təşkil edib. Onun ən böyük xarici ticarət tərəfdaşları isə Rusiyadır (12 milyard 401 milyon dollar). Belarusla ticarət dövriyyəsi isə 205 milyon 599 min dollar olub.

Hesabat dövründə Ermənistanın Avropa İttifaqı ölkələri ilə xarici ticarət dövriyyəsinin həcmi cəmi 2 milyard 335 milyon dollar təşkil edib. Bu rəqəmlərdən görünür ki, Hayastanın xarici ticarət dövriyyəsində Rusiya daha çox paya sahibdir. Rusiya ticarətin həcminə görə Aİ ölkələrini 5 dəfə üstələyir. Ümumi statistik rəqəmlər həm də onu göstərir ki, Qərb ölkələrinin Ermənistanın xarici ticarətində Rusiyanı əvəz etməsi qeyri-mümkündür.

Cənubu Qafqaz Tədqiqatlar Mərkəzinin məlumatına görə, Ermənistanın Rusiyadan ən çox asılı olduğu sahə enerji sektorudur. Ermənistanda elektrik enerjisi istehsalının 70 faizdən çoxu Rusiyanın təmin etdiyi enerji məhsulları ilə həyata keçirilir. Bu ölkənin elektroenerji tələbatının 34 faizini Metsamor AES təmin edir. Onun da yanacağını Rusiya verir. İdxal edilən təbii qazın 85 faizi də Rusiyadan ucuz qiymətə alınan "mavi yanacaq" hesabına təmin edilir. O da məlumdur ki, ölkənin daxili bazarında təbii qazın inhisarçı satıcısı 1997-ci ilin dekabrında yaradılmış "Qazprom Armenia" QSC-dır. Şirkətin səhmlərinin 100 faizi Rusiya "Qazprom" şirkətinə məxsusdur.

Qeyd edək i, "Qazprom Armenia" Ermənistan daxili bazarı üçün qaz tədarükünü, həmçinin yanacağın daşınması, saxlanması, bölüşdürülməsi və satışını təşkil edir, respublika ərazisində qaz nəqli sisteminin və yeraltı qaz anbarlarının yenidən qurulması və genişləndirilməsi ilə məşğul olur.

Eyni zamanda, Rusiya Ermənistanı benzin və dizel yanacağı ilə də təmin edir. Bu ölkənin qida məhsullarının idxalında da Rusiyadan asılılıq var.

Ermənistan iqtisadiyyatında Rusiya həm də xaricdən daxil olan pul köçürmələrində əsas rola malikdir. 2024-cü ildə xarici ölkələrdən fiziki şəxslərə köçürmələrin ümumi həcmi 5 milyard 830 milyon dollara çatıb. Köçürmələrin həcminə görə liderlər arasında 3,82 milyard dollarla Rusiya (ümumi həcmin 65,5 faizii) birinci, 690,6 milyon



dollarla ABŞ ikinci yer tutub. Onu da qeyd edək ki, Rusiyadan Ermənistana köçürülən pul vəsaitlərinin həcmi Ermənistanın ÜDM-nin 13 faizindən çoxdur. Bu da Rusiya üçün Ermənistana təsir edə biləcək güclü siyasi və iqtisadi vasitə deməkdir.

Əsas strateji məhsulların idxalında İrəvanın Moskvadan böyük asılılığı var və bu məhsullar üçün alternativ mənbələrin tapılması asan deyil. Rusiyaya isə yenidən ixrac üçün Ermənistana alternativ ölkə tapmaq çətin deyildir.

Qeyd edilən istiqamətlər ilə yanaşı, Rusiya həm də Ermənistan iqtisadiyyatının əsas investorlarından biridir. Ermənistanda sənaye layihələrinə investisiyalar 4 milyard dollara çatıb. Bu ölkədə 40-dan çox iri rus şirkəti fəaliyyət göstərir. Onların bəziləri dövlət büdcəsinin ən böyük vergi ödəyiciləridir. Göründüyü kimi, Ermənistan iqtisadiyyatı əhəmiyyətli dərəcədə Rusiyadan asılıdır. İstər ticarət əlaqələrində, istər enerji sektorunda, istərsə də qida təhlükəsizliyinin təmin edilməsində Rusiya əsas paya sahib olan ölkədir. O da məlumdur ki, Hayastanın əksər sənaye sahələri, infrastrukturu Rusiyaya məxsusdur.

Bundan başqa, Rusiya ilə Ermənistan arasında hərbi və hərbi-texniki əməkdaşlıq da var. Bu əməkdaşlıq "Dostluq, əməkdaşlıq və qarşılıqlı yardım" müqaviləsi əsasında inkişaf edir. Həmin sənədə əsasən, Moskva və İrəvan, tərəflərdən birinə hərbi təhlükə yaranarsa, bir-birinə yardım göstərməyi və hərbi-texniki əməkdaşlığı inkişaf etdirməyi öhdələrinə götürüblər. Bundan başqa, hərbi əməkdaşlıq Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) çərçivəsində də həyata keçirilir. Ermənistanla Rusiya arasında 1995-ci ildə bağlanmış dövlətlərarası müqaviləyə əsasən, 102-ci Rusiya hərbi bazası Ermənistanın Gümrü şəhərində yerləşdirilib. Bazanın təxminən 5 min nəfərdən ibarət şəxsi heyəti MDB-nin Birgə Hava Hücumundan Müdafiə Sistemi çərçivəsində döyüş növbəsindədir.

Bu faktların fonunda Ermənistanın Aİ üzv olmaq arzusu inandırıcı görünmür. Çünki bu, Rusiya ilə ticarət əlaqələrini itirilməsi deməkdir. İrəvan da, yəqin ki, iqtisadiyyatı üçün "məzar" olacaq yolla getmək istəməz.

Sadəcə, Hayastanın Aİ-yə üzvlük arzusu hər iki tərəfdən daha çox güzəşt almağa xidmət edir. Bunu Hayastan rəsmilərinin açıqlamalarından da hiss etmək olar. Məsələn, bu yaxınlarda Ermənistanın iqtisadiyyat naziri Qevork Papoyan mətbuat konfransında deyib: "Ermənistan hazırda Avrasiya İqtisadi İttifaqının üzvüdür və qurumu tərk etmək məsələsi İrəvanın gündəmində deyil".

Onun sözlərinə görə, Ermənistanın Aİ-yə üzvlük məsələsi gündəmdədir. "Bizim vəzifəmiz bu gündəliyi müzakirə etmək yox, iqtisadiyyatımızın rəqabət qabiliyyətini artırmaqdır", – deyə nazir əlavə edib.

Beləliklə, əgər Ermənistan doğrudan da tam olaraq Qərbə inteqrasiya etmək istəyirsə, o zaman həm də Ermənistan–Rusiya münasibətlərində institusional dəyişikliklər baş verməlidir. Ancaq bu proses müşahidə edilmir. Ermənistan hələ də Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT), Müstəqil Dövlətlər Birliyinin, Aİİ-nin üzvüdür.

Onu da nəzərə almaq lazımdır ki, Ermənistanın hərbi olaraq Rusiyadan uzaqlaşıb, iqtisadi baxımdan ona bağlı qalması da mümkün deyildir. Məsələn, əgər Ermənistan KTMT-dən ayrılarsa, o zaman ona iqtisadi baxımdan böyük fayda verən Aİİ-nin üzvü olaraq qalması qeyri-mümkündür. Ona görə də Ermənistan Rusiyanın təsir dairəsindən çıxmaq istəyirsə, bunu həm siyasi, həm hərbi, həm də iqtisadi baxımdan etməyə məcburdur.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

Köşə

# Pol Qobl planı, Ermənistan parlamentinin gülləbaran edilməsi və...

## *yaxud Azərbaycana qarşı məkrin bizə "səmərəsi"*



**İttifaq MİRZƏBƏYLİ**
**i-mirzebeyli@mail.ru**

**Ermənistan tərəfinin bu məsələnin yenidən gündəmə gətirməsinin hansı məqsədə xidmət etməsi məlum deyil. Çünki Qobl planı keçmiş Qarabağ münaqişəsinin həll edilməsi məqsədilə ortaya atılmışdı. İndi o münaqişə yoxdur. Biz BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinə əsaslanaraq, münaqişəni özümüz həll etmişik, problemi də aradan qaldırmışıq. İndi xeyir ola, Ermənistanın keçmiş prezidenti Robert Koçaryanın oğlu, hazırda ölkə parlamentinin üzvü olan Levon Koçaryan ağzını açıb gözünü yumur ki, Ermənistan rəhbərliyi doxsanıncı illərdə Pol Qoblın tənzimləmə planına razılaşsaydı, indi Qarabağ Ermənistanda idi. Həm özünün, həm də atası Robertin gözlərinin içinədək yalan danışır.**

Əvvəla, onu xatırladaq ki, Azərbaycan rəhbərliyi ABŞ Dövlət Departamentinin sabiq əməkdaşı, məşhur politoloq (həm də keçmiş kəşfiyyatçı) Pol Qoblın məlum planına öz maraqlarımıza uyğun olan dəyişikliklər etmək şərti ilə razılaşa bilərdi. Amma regiona sülh gətirilməsini qətiyyən istəməyən, Azərbaycanın əsas ərazisi ilə Naxçıvanın birləşdirilməsindən açıq-açığına qorxan, Türk dünyasının nəqliyyat vasitələrinin birləşdirilməsinə qətiyyən razı olmayan qüvvələr Qobl planının icrasına imkan vermədilər.

Onu da əlavə edək ki, Qobl planı Robertin gədəsinin zəvzədiyi kimi, Qarabağın Ermənistana verilməsini nəzərdə tutmurdu. Azərbaycanın əsas ərazisinin Naxçıvanla birləşdirilməsi üçün Meqridən bizə veriləcək dəhliz boyda ərazi Laçın rayonundan Qarabağın Ermənistanla əlaqəsini təmin etmək üçün qarşı tərəfə verilməsini nəzərdə tuturdu. Bunu ABŞ istəyirdi. Rusiya və İran isə buna qətiyyən razı olmadılar və sonrakı proseslər məlumdur.

Bu zaman Pol Qoblın Cənubi Qafqazdakı vəziyyətə aydın düşüncə ilə yanaşmasını göstərən başqa bir faktı da yada salmaq istərdik. Belə ki, 2023-cü ildə azərbaycanlı ekofəal və könüllülərin Şuşa-Laçın yolundakı aksiyasını qınayan və hətta, təhdidlər söyləyən region siyasətçiləri cənab Qoblın belə bir arqumentini eşitmişdilər: "Laçın yolundakı aksiyaya qarşı çıxanlar Ermənistanın öhdəliklərini yerinə yetirməsini təmin etməlidirlər".

O ki qaldı Kremlin Pol Qobl planının icrasına mane olmasına, xatırladaq ki, 1999-cu ilin oktyabrından sonra ABŞ və Türkiyənin xüsusi xidmət orqanları Ermənistanın Zəngəzur bölgəsi ilə Qarabağın dağlıq hissəsindəki müəyyən ərazinin Pol Qobl planı üzrə dəyişmək qərarına gəlmişdilər. Ermənistan rəhbərliyi də bu dəyişikliyə "hələlik" razı olmuşdu. Guya, sonra Qarabağın statusunu müzakirə edəcəkdilər. Bu xəbər ortaya çıxan kimi – konkret desək, oktyabrın 27-də silahlı adamlar Ermənistan parlamentini qan gölünə çevirdilər. Tanınmış siyasətçilər Karen Dəmirçyanla Vazgen Sarqsyan və digərləri terror aktı ilə öldürüldülər. Yəni sülhə mane olanlar Qobl planının bükülüb bir kənara qoyulmasına nail oldular.

Bu isə o demək idi ki, regionda özlərinkindən başqa heç kəsin maraqlarının qorunmasına imkan vermək istəməyənlər "dəhlizə dəhliz" variantını arxivə göndərdilər. Yəni Robertin gədəsinin zəvzədiklərinin tam əksinə olaraq, Azərbaycan Laçın yolunu ermənilərə, Ermənistan isə Zəngəzur dəhlizini Bakıya verməli idi.

Ekspertlər yazırlar ki, bu dəyişiklik cəhdinin baş tutmasına mane olanlar nəticədə özləri də bilmədən, hətta istəmədən Azərbaycanın maraqlarına xidmət etmiş oldular. Çünki indi Laçın yolu bütövlükdə öz sahiblərindədir, Zəngəzur dəhlizi də açılmaq üzrədir. İndi artıq Qobl planı deyilən nə isə yoxdur. Həm də indi ABŞ-da belə bir istək mövcud deyil. Çünki bu gün bütün dünya Qarabağı Azərbaycanın suveren ərazisi kimi tanıyır.

Pol Qoblın həmin planı reallaşmasa da, Prezident İlham Əliyevin planı, məlum qətiyyəti artıq tam reallaşıb: "Biz heç vaxt imkan verə bilmərik ki, torpağımızda ikinci erməni dövləti yaradılsın!"

Yəni qatar artıq keçib gedib. Artıq koçaryanların, sarkisyanların hansı küçədəsə səs-küy salmasının heç bir mənası yoxdur.

(əvvəli 1-ci səhifədə)

# Taym-aut: Qərbdə reabilitasiya, Rusiya "nəfəs ala" bilər

ABŞ yeni administrasiyasının Avropaya qarşı cəbhə açdığını görürük. Rəsmi Vaşinqtonun təmsilçiləri əllərinə keçən hər fürsətdə "Köhnə qitə" dövlətlərinə qarşı demarş xətti götürürlər. Bu, heç də təsadüfi deyil. Məsələ ondadır ki, Avropa və ABŞ birlikdə kollektiv Qərbi təmsil edib. O Qərbi ki, Avropa onun daha çox nəzəri və ideoloji strukturunu müəyyənləşdirib, Birləşmiş Ştatlar isə gücünü. İndi güc sahibləri ideyaya xəyanət yolunun tutulduğunu bildirirlər. Baxın, ABŞ-ın vitse-prezidenti Cey Di Vens deyir ki, Avropanın liderləri öz xalqlarından qorxurlar. Bu deyimdə çox böyük məna çalarları var.

Bəli, Birləşmiş Ştatlar güc mərkəzi olaraq, həmin gücdən istifadəyə əsas verən parametrlərin sıradan çıxdığına dair həyəcan təbili çalır. Bu, Avropanın, mahiyyətcə, öz funksiyasını yerinə yetirmədiyinin, dəyərlərindən uzaqlaşdığının təsdiqidir. Söhbət hansı dəyərlərdən gedir? İlk növbədə humanist düşüncəni vurğulaya bilərik. Bu düşüncəyə görə, insan bütün varlığın mərkəzində dayanır. Gəlin, görək "köhnə qitə"də məsələyə nə dərəcədə önəm verilir, ümumən önəm verilirmi? Əlbəttə ki, yox! Ona görə də Vens çox haqlıdır.

Avropa dəyərlərinin nüvəsini təşkil edən ikinci amil rasionallıqdır. Rasionallığa görə, bütün qərarlar zəkaya əsaslanmalıdır. Amma qitədə bunu da görmək mümkünsüzdür. Avropada qərarlar ikili standartlar prizmasından çıxarılır. Zəka, az qala, ən sonda gəlir. Nəticədə ədalətsiz yanaşmaların sanki standarta çevrildiyinin şahidi oluruq.

*

Avropa ideyasının təməl prinsiplərindən biri də dünyəviliкdir. Yəni, din və siyasətin bir-birindən ayrı olması. Amma bugünkü Avropada mənəvi sistemin deqredasiyası və insan azadlığının amoral interpretasiyası nəticəsində din, bir növ, küncə sıxılıb. Künc isə Vatikandır. Üstəlik, dünyəvi dəyərlərdən imtina tendensiyası bütövlükdə din amilinə qarşı cəbhə müəyyənləşdirir. Bu baxımdan Avropanı başına almış islamofobiyanı göstərə bilərik. İslamofobiya din və siyasətin ayrılığı tezisinə siyasətin dinə qarşı mübarizə seqmentini qazandırıb. Axı bütün dinlərin bir-birinə bağlılıq strukturu var. Ola bilməz ki, İslama hörmətsizlik edən biri xristianlığa ehtiramla yanaşsın. Deməli, Avropanın deqredasiyası həm də bununla bağlıdır.

Gələk, daha bir prinsipin üzərinə. Söhbət qanuni idarəetmədən gedir. Nəzərə alaq ki, qanuni idarəetmə dünyəvi qanunlar və konstitusiya vastitəsilə ədalət təminatı deməkdir. O zaman düşünək, bugünkü Avropanın ədalət pəncərəsinin vəziyyəti nə yerdədir. Tam əminliklə bildirmək mümkündür ki, o pəncərə, obrazlı desək, sınıq-salxaq durumdadır və içəridə yel əsib, yengələr oynayır. Bu uğultunun qarşısını kəsmək üçün göstərilən xırda-para cəhdlər küləyin içəri daxil olduğu deşiklərə pambıq tixamaq kimi acizlikdən başqa bir şey deyil. Hesab edirik ki, ortada təkcə acizlik yox, eyni zamanda, rəzillik və miskinlik də var.

*

Avropanın ən yüksək səslə təqdim edilən təməl prinsipləri sırasında demokratiya da var. Demokratiya xalqın iradəsinin məhsulu kimi çıxış edən mühüm seqmentdir. Yəni, xalq hakimiyyətin bütün səviyyələri üçün nümayəndələri dövri şəkildə seçir. Amma ötən illər ərzində biz Avropanın elə demokratizmə xəyanət yolu tutduğunu gördük. Bu xəyanətdə seçki saxtakarlığı kimi məsələlər qabarıq görünməsə də, xalq elə bir durumdadır ki, onun hakimiyyətlərin formalaşmasında iştirakı amoraldır. Xalq, sanki, instiktiv davranır, siyasi oyunlar üçün alətə çevrilir. Nəticədə Fransada Emmanuel Makron kimi avantürist iqtidar kreslosunda əyləşə bilir. Nəzərə alaq ki, Adolf Hitler də hakimiyyətə demokratik seçki yolu ilə gəlmişdi. Sonra nələr yaşandı, hər kəsə yaxşı bəllidir. Hitler diktatora çevrildi. Bu gün Makron özünü diktator kimi aparmırmı?

Baxın, ABŞ Prezidenti Donald Tramp Makronun hər zaman dəstək verdiyi Ukrayna Prezidenti Volodimir Zelenskini "diktator" adlandırır, faktiki olaraq, onunla danışıq aparmağın mümkünsüzlüyünü bildirir. Görəsən, necə oldu ki, demokrat Zelenski birdən-birə diktator Zelenskiyə çevrildi? Nə baş verdi ki, güc qismindəki ABŞ ideologiya prizmasındakı Avropanın müəyyənləşdirdiyi xəttin çürüklüyünü bəyan etdi? Axı Trampın üzərində dayandığı çox sadə bir həqiqət var – Ukraynada üç ildir seçki keçirilmir. Keçirilməli deyildimi? Tamam müharibə şəraiti və sair ilaxır, anladıq. Amma, hər bir halda, "Putin diktaturası ilə mübarizə" egidasına köklənmiş Ukraynanın demokratik seçki nümunəsi olmalı idi. Olmadı, deməli, demokratiya heç kəsin nəinki yadına düşmədi, heç ağlının ucundan belə keçmədi.



Nəhayət, Avropa dəyərlərinin çeynəndiyinin daha bir göstəricisi "Köhnə qitə"nin ideoloji sistemində mühüm prinsip olan insan hüquqları məsələsinə ciddi etinasızlıqdır. Nəzərə baxımdan yanaşsaq, insan hüquqları xalq tərəfindən universal qanunların qəbul edilməsidir. Öz dəyərlərinin ixracında maraqlı olan Qərbin ən böyük səhvi isə insan hüquqlarını qorunmasına yönələn, bu dəyəri dərinləşdirən qanun yaradıcılığına üstünlük verməmək oldu. Yəni, mövcud sahədə nümunəvilik əsas götürülmədi, insan hüquq və azadlıqları ilə manipulyasiyanın üzərində dayanıldı. Hazırda Avropada insan azadlığının ölçüləri deyiləndə geylər və transvestitlər yada düşürsə, bu ideya Avropa İttifaqının müxtəlif layihələri şəklində ixrac olunursa və Avropa evi ideyasındakı müqəddəslik məhz bu cür eybəcər şəkildə təqdim edilirsə, deməli, vəziyyət acınacaqlıdır. İnsan hüquq və azadlıqları məsələsi ayrı-ayrı dövlətlərə təzyiq vasitəsi kimi nəzərdən keçirilirsə, durum faciəvidir. Təəssüf ki, Avropanın, ümumən kollektiv Qərbin beyin mərkəzləri illər ərzində hara getdiklərini düşünməyəcəq qədər iflic vəziyyətə düşdülər.

*

Bəli, bu gün Tramp Administrasiyası belə hallara qarşı mübarizəyə köklənib. Əlbəttə, birmənalı şəkildə demək olmaz ki, ABŞ-ın yeni rəhbərliyi dünya düzənini tənzimləyəcək. Onu da demək olmaz ki, təkqütblü dünya öz yerini çoxqütblü dünyaya verəcək və beynəlxalq müstəvidə ədalətsizliklərə və özbaşınalıqlara son qoyulacaq. Nə də Birləşmiş Ştatlar dünya hegemonluğundan əl çəkəndir.

Ukrayna məsələsində ABŞ-ın Rusiyanın tələblərini yerinə yetirməyə hazır kimi göründüyü diqqətdən yayınmır. Avropanın müxtəlif mərkəzlərinin məsələ ilə bağlı ciddi etirazları da həmçinin. Sanki avropalılar Birləşmiş Ştatlara qarşıdırlar. Nəticədə Qərb dünyasının parçalandığına dair təəssürat yaranır. Daha bir təəssürat odur ki, Rusiya müharibədə qələbə qazandı və ABŞ ondan çəkinir. Halbuki, məsələ böyük ölçüdə belə deyil. Əvvəla, Ukrayna müharibəsi Rusiyanı, kifayət qədər, ciddi şəkildə tükətdi. İkincisi, Vaşinqton, daha dəqiq desək, Tramp Administrasiyası hazırkı resurslarla Moskvaya qarşı çıxmağın səmərəsizliyini dərk etdi.

Bəli, məlum oldu ki, Qərbin SSRİ-ni dağıtmaq üçün formalaşdırdığı sistem nə qədər güclü idisə, Sovetlər Birliyinin süqutundan sonra həmin Qərbin Rusiyanı yox etmək naminə ortaya qoyduğu ideoloji xətt bir o qədər çürükdür. Deməli, Qərb dünyası reabilitasiyaya getməlidir. ABŞ-ın hazırkı rəhbərliyinin tutduğu xətt məhz reabilitasiya xəttidir. Ona görə də Tramp tərəfdarları Avropanı aşağılamaq yolu tuturlar. Vitse-prezident Vensin Münxen Təhlükəsizlik Konfransındakı məzəmmət dolu çıxışı hər şeyi deyir.

Heç şübhəsiz, Zelenskini diktator kimi qələmə verən Birləşmiş Ştatlar bir qədər sonra "köhnə qitə"nin hazırkı liderlik sistemino də əl gəzdirməyə girişəcək. Makron, Şolts kimi dişsiz və siyasi klounların yerini ciddi, xarizmatik lidelər tutacaq. Axı SSRİ-nin süqutunu həm də Avropanın liderlik institutunun səriştəsi doğurmuşdu. Deməli, əvvəldə fikirlərini diqqətə çatdırdığımız polşalı nazir Pşemıslav Çarnekin narahatlığı əbəs deyilmiş. Avropada yeni avropalılarla yanaşı, "Köhnə qitə"nin dəyərlərinə sadiq yeni liderlər də doğulmalıdır. Elə bir liderlər ki, bütövlükdə Qərb ideoloji xəttinə sadiq olsunlar. Həmin vaxtadək isə Rusiya rahat "nəfəs ala" bilər. Hərçənd, Ukrayna müharibəsi onun üçün də dərs olmalıdır. Ölkə baxış və strategiyasını dəyişməlidir ki, gələcək həmlələrə qarşı duruş gətirə bilsin. Həmlələr isə mütləq olacaq. Olacaq və daha Rusiyanın qarşısına nə makronlar, nə də ona oxşar parabeyinlər çıxacaqlar.

***Ə.CAHANGİROĞLU***
***XQ***

---

(əvvəli 1-ci səhifədə)

# Yaxın qonşu, yoxsa uzaq "bacı"?



Bu günlərdə məlum olub ki, Aİ yaxın zamanda Ermənistana müdafiə qabiliyyətini gücləndirməsi üçün Avropa Sülh Fondundan yeni tranş ayırmağa hazırlaşır. Azərbaycan mediasına sızan məlumatlardan öyrənirik ki, artıq vəsaitin ayrılması ilə bağlı ilkin razılıq əldə edilib. Özəl mənbə bu vəsaitin də Ermənistanın silahlanması üçün istifadə olunacağının şübhə doğurmadığını açıqlayıb. Yəni, "Brüssel sazişi" tam gücü ilə hayların xeyrinə, Azərbaycanın əleyhinə işləməkdədir.

Bu məqamda yaxın keçmişə boylanıb, baş verənləri yada salmağımız yerinə düşər. Aİ dəfələrlə Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması, sülhə nail olunması barədə çağırışlar edib, bəyanatlar verib. Hətta bir müddət sülh danışıqlarına ev sahibliyi edib. Deməli, bunlar ikili standarta söykənən ikiüzlü, maskalı siyasətin təzahürləri imiş. "Kollektiv Qərb"in "sülhpərvər" bəyanatlarının arxasında Ermənistanı silahlandırmaq və onu revanşizmə təhrik etmək planları gizlənirmiş.

Oxuculara xatırladaq ki, ötən il aprelin 5-də Brüsseldə Ermənistan baş naziri Nikol Paşinyan, Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayen və ABŞ-ın sabiq Dövlət katibi Antoni Blinken arasında keçirilən görüşdə Hayastana çox şeylər vəd edilmişdi. İrəvan "üçlər"in görüşünün nəticələrinə böyük ümidlər bəsləyirdi. Əsas məsələ ondan ibarət idi ki, həmin görüşdə Brüssel və Vaşinqtonun İrəvana, müvafiq olaraq, 270 milyon avro və 65 milyon dollar yardım edəcəklərinə dair konkret sənəd imzalanmışdı. Sadəcə olaraq, Paşinyan komandasını pəjmürdə edən o idi ki, Aİ-nin "Ermənistan–Avropa İttifaqı tərəfdaşlığını gücləndirmək üçün" ayıracağı 270 milyon avro birdəfəlik ödənilməyəcəkdi. Bu vəsaitin Ermənistana 2024-2027-ci illər ərzində hissə-hissə (hər il 67,6 milyon avro – red.) ayrılması nəzərdə tutulub.

Onu da yada salaq ki, 2024-cü ildə ASF-nin Ermənistana 10 milyon avro məbləğində yardımını Macarıstan bloklamışdı. O zaman Budapeşt blokun aradan qaldırılması üçün müzakirə olunan layihəyə Azərbaycanın da daxil edilməsini şərt kimi irəli sürmüşdü. Baş nazir Viktor Orbanın təkidlərindən sonra Aİ vəziyyətdən çıxış yolu axtarmağa məcbur olmuşdu. Həmin maliyyə vəsaiti ermənilərin bir taboru üçün modul tipli səhra düşərgəsi yaratmağı, oraya tibbi klinikanın, habelə müvafiq xidmətlərin və imkanların daxil edilməsini nəzərdə tuturdu. ASF dəstəyinin məqsədini "Ermənistan silahlı qüvvələrinə onun dayanıqlığını və sabitlik yaratmaq imkanlarını artırmaq və bununla da böhran və fövqəladə hallar zamanı mülki əhalinin daha yaxşı qorunmasına kömək etməkdir" kimi formulə etmişdi.

* * *

**Mövzu ilə bağlı XQ-nin oxucuları ilə fikirlərini bölüşən Milli Məclisin deputatı, politoloq Rasim Musabəyov** 10



milyon avronun Ermənistanın təhlükəsizliyinin möhkəmlənməsinə təsir etməyəcəyi qənaətindədir: "Nəzərə alsaq ki, hazırda Ermənistanın hərbi büdcəsi 1 milyard 700 milyon dollardır, onda Avropa Sülh Fondunun yardımı ilə bu rəqəmi müqayisə etmək mümkün deyil. Əslində, fondun İrəvana ayırdığı məbləğ daha çox simvolik xarakter daşıyır. Avropa İttifaqı, guya, bununla Ermənistanın təhlükəsizliyinin gücləndirilməsinə yardım edir. Burada söhbət heç də Ermənistanın hansısa müqavimət imkanlarının artırılmasından getmir. Sadəcə olaraq, Avropa İttifaqı bununla Ermənistanın təhlükəsizliyinə biganə olmadığını nümayiş etdirir. Həmin yardım layihəsində silahdan deyil, hansısa kazarmaların inşasından, səyyar lazaretlərin yaradılmasından, onlar üçün avadanlığın alınmasından, eləcə də təlimlərdən danışılır. Yəni, o məbləğin bilavasitə silah-sursata xərclənməsi nəzərdə tutulmur.

O ki qaldı Macarıstanın Baş naziri Viktor Orbanın Ermənistana bu yardımın ayrılmasına etirazına, bəli, məhz onun çıxışından sonra Avropa İttifaqı ayrı bir fonddan Azərbaycana torpaqlarını minalardan təmizlənməsi ilə bağlı 10 milyon avro vəsait ayırmışdı. İndi Aİ-də yeni qərar qəbul olunan zaman bu balansın saxlanılıb-saxlanmadığını deyə bilmərəm, amma keçən il Orbanın təkidi nəticəsində dediyimiz addımı atmağa məcbur oldu".

Politoloq rəsmi Bakının Aİ-nin bu ikili yanaşmasına göz yumduğunu, 30 illik işğal dövründə bu qurumun Azərbaycana bir avro belə yardım etmədiyinə diqqəti yönəltdi: "Bu gün Ermənistan ərazisinə heç kimin göz dikmədiyi təqdirdə ona müxtəlif bəhanələrlə maliyyə yardımları edilir. Məlumdur ki, bu işlərin təşkilində Ermənistana Aİ-də "dayı"lıq və "bacı"lıq edən ölkələrin əli var. Bunların sırasında Fransa ilə yanaşı, Hollandiya, Belçika, Polşa və başqa ölkələrin adlarını çəkmək olar. Şükürlər olsun ki, Azərbaycanın Avropa Sülh Fondunun yardımına ehtiyacı yoxdur. Biz öz məsələlərimizi özümüz istədiyimiz kimi həll edirik".

* * *

Oxuculara xatırladaq ki, Avropa İttifaqının Ermənistana Sülh Fondu xətti ilə yardımların ayrılmasına Azərbaycan Xarici İşlər Nazirliyi kəskin münasibət bildirmişdi. Baş diplomatiya idarəmiz Aİ Şurasının qərarını "yanlış və təhlükəli, regionda gərginliyin artmasına xidmət edən addım" kimi qiymətləndirmişdi.

Aİ Azərbaycana qarşı siyasi və ideoloji təzyiq cəhdlərini mütəmadi olaraq davam etdirir. Rəsmi Bakı İrəvanı sıralarına qəbul edəcəyi ilə şirnikləndirən bu qurumun fəaliyyətinin açıq şəkildə birtərəfli və qərəzli xarakter daşıdığını, bölgədə "bölücü xətlər" yaratmaq siyasəti yeritdiyini dəfələrlə Brüsselin, eləcə də hayparəst "xristian klubu"nun üzvlərinin nəzərinə çatdırıb.

Azərbaycan hakimiyyəti, eyni zamanda, Aİ-nin Ermənistana göstərdiyi hərbi yardımın, bunun gələcəkdə artırılması üçün edilən çağırışların ölkəmizin ərazisinin bir hissəsini 30 il müddətində işğal altında saxlayan, bu gün də ölkəmizə qarşı ərazi iddialarından əl çəkməyən Ermənistanın hərbi potensialını gücləndirməyə və bölgədə pozuculuq fəaliyyətinə xidmət etdiyi barədə Brüsselə ismarıcını göndərib. Eyni zamanda, Azərbaycan Aİ Şurasının qərarı ilə İrəvana göstəriləcək yardımlar barədə şəffaf şəkildə məlumatın açıqlanacağını gözlədiyini də bildirmişdi.

İndi sual olunur: Ermənistanın hərbi ləvazimatın alınması üçün maliyyə dəstəyi göstərən bu fond hansı sülhdən danışa bilər? Belə məlum olur ki, Sülh Fondu bu təşkilatın əsas fəaliyyətini gizlədən maskadır. "Kollektiv Qərb" bu maska altında Cənubi Qafqazda yeni münaqişə zonaları yaratmağa çalışır. Bundan ötrü Ermənistanı şirnikləndirmək üçün onun qarşısına "çör-çöp" atılır.

Bu gün üzləşdiyi çətinliklərin çarəsini, düşdüyü labirintdən çıxış yolunu yaxın qonşularının uzatdığı əli sıxmaqda, onlarla dürüst və şəffaf münasibət qurmaqda deyil, onu dəfələrlə aldatmış uzaq "bacı" və "dayı"larından ianə ummaqda görən İrəvanın nə qədər yanıldığı özünə də məlumdur. Bunu anlasa da, sanki üzə düşübmüş kimi, "kollektiv Qərbin" yalan vədlərinə inanmaqda davam edir. Bəlkə haylar avropalı "tərəfdaşlarının" Cənubi Qafqazda məhz onun vasitəsilə ikinci Ukrayna yaratmağa çalışdıqlarının fərqində deyillər. Paşinyan komandasının bunu başa düşməyinə inanmaq çətindir. Bütün bunları görməzdən gələrək, İrəvan silahlanmaya davam edərək, yenidən özünün daşnak-revanşist niyyətlərini reallaşdırmağa çalışarsa, doğrudan da, Ukraynanın aqibətini yaşaya bilər. Axı, Ermənistan rəhbərliyi başa düşməlidir ki, Azərbaycan da yerində saymır, hərbi gücünü daim artırmaqla məşğuldur. Və əgər yenidən müharibə baş verərsə, o zaman Ermənistan dövlətçiliyinin taleyi sual altına düşə bilər.

***İmran BƏDİRXANLI***
***XQ***

# Azərbaycan elmində akademik tədqiqat ənənəsi və təcrübəsi

**II MƏQALƏ**

## "Vivat Academia!"

Bu mövzuda I məqalədə vurğulanan "akademik tədqiqat ənənəsi", "akademik tədqiqat təcrübəsi" və "akademik araşdırma kültürü" anlayışlarının Azərbaycan kontekstinə aydınlıq gətirilməsi üçün AMEA-nın fəaliyyətinin tarixi dövrləşdirilməsinə də nəzər salmaq gərəkdir. Çünki akademik fəaliyyətin institutlaşması çərçivəsində tarixi rakursda tədqiqatın ənənəsi, təcrübəsi və araşdırma kültürünün şüur hadisəsi olaraq özəllikləri daha aydın görünəcəkdir.

Adətən, Elmlər Akdemiyasının tarixində birinci mərhələ kimi 1945-1970-ci illəri göstərirlər. Bu mərhələdə Azərbaycan Elmlər Akademiyası əsasən təşkil edilmişdir və formalaşmışdır. 1945-ci ildə Elmlər Akademiyasının tərkibində 4 bölmə, 16 elmi-tədqiqat institutu, 2 elmi-tədqiqat şöbəsi və 3 muzey, Mərkəzi Elmi Kitabxana, Naxçıvanda, Gəncədə, Xankəndidə elmi bazalar mövcud idisə, 1970-ci ildə artıq elmi idarələrin sayı 142-yə çatdırılmışdı.

## İslahatlar mərhələsi

Nəhayət, altıncı mərhələ 2022-ci ildən başlamışdır. Bu mərhələ davam edir. Onu islahatlar mərhələsi adlandırmaq olar. "Bu mərhələyə Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 28 iyul 2022-ci il tarixli fərmanı ilə start verilmişdir".

Fevralın 20-də keçirilən Ümumi yığıncaqda AMEA prezidenti, akademik İsa Həbibbəyli "Akademiyada təməl islahatlardan – İnkişaf Konsepsiyasına və Yol Xəritəsinə" mövzusunda məruzə etmişdir. Məruzədə AMEA-nın keçdiyi yol xarakterizə olunmuşdur.

Ulu öndərin 1969-1982-ci illərdə AE quruculuğundan geniş bəhs edilmişdir. Bu kontekstdə AMEA prezidentinin Elmlər Akademiyasının fəaliyyət tarixini özünün müəyyən etdiyi kriteriyalarla dövrləşdirməsi maraqla qarşılanmışdır.

Məruzədə 1969-1982-ci illər akademiya quruculuğunun intibah dövrü adlandırılmışdır. 1983-1993-cü illəri Elmlər Akademiyasında tədrici enmə və tənəzzülə

iki sosial-mədəni və elmi faktorun əsas rol oynadığını göstərir. Elmi dərketmə faktoru kimi yunan fəlsəfi-elmi rasionalizmi qədimdən Azərbaycan akademiyalarında tədqiqatların metodologiyasını müəyyən etmişdir. Yuxarıda vurğuladığımız kimi, Azərbaycanın coğrafi-mədəni məkanında yaranan akademiyalarda (məsələn, Şamaxı Akademiyasında) elm-tədqiqat müşahidə, təcrübə və sübut əsasında məntiqi nəticə formasında aparılmışdır. N.Tusinin rəsədxanasında da eyni metodologiyadan istifadə edilmişdir. Deməli, Azərbaycan akademiyaları elmi tədqiqatı yunan akademiyalarında istifadə edilən üsullarla aparmışlar.

Ancaq Azərbaycan akademiyalarında tədqiqat ənənəsi başqa bir faktorla – Azərbaycanın mədəni məkan kimi İslam dünyasına aid olması ilə də şərtlənir. Azərbaycanda elmi araşdırmalar müsəlman mədəniyyətinin (İslamın) özəllikləri fonunda da aparılırdı. Hətta bir sıra fəlsəfi və elmi mətnlərdə obrazlı formada ilk cümlə "Allahdan sonra" ifadəsi ilə başlayırdı. Məsələn, M.Füzulinin "Mətləül-etiqadı" belə başlayır: "Sonra".

Müsəlman mədəniyyətinin Azərbaycanda akademik tədqiqata təsiri yalnız



İkinci mərhələni 1970-1980-ci illər təşkil edir. Bu mərhələ ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Həmin mərhələdə böyük uğurlar olmuşdur. Elmlər Akademiyasının strukturu yeniləşmiş və respublikanın inkişafına xidmətə yönəldilmişdir.

Üçüncü mərhələ 1980-1993-cü illəri əhatə edir. Bu mərhələ üçün xarakterik olan cəhət əvvəlki illərdə formalaşmış struktur-funksoinal göstəricilərin, tanınmış elmi məktəblərin, elmi ənənələrin inersial saxlanmasından ibarət idi.

1990-cı illərin əvvəllərindən isə müstəqillik dövründə Elmlər Akademiyasının fəaliyyəti başlayır.

1993-cü ilə qədər olan mərhələdə Elmlər Akademiyasının fəaliyyətində aktivlik hiss olunmurdu və bütövlükdə təşkilatın taleyi məlum deyildi. Ulu öndərin xalqın dəvəti ilə hakimiyyətə gəlişi, bütövlükdə ölkədə olduğu kimi, Elmlər Akademiyasında da vəziyyət müsbətə doğru dəyişdi. Heydər Əliyev Azərbaycan EA-ya müstəqillik mərhələsində yeni "fəaliyyət nəfəsi" verdi.

1997-ci ildə isə Heydər Əliyev Elmlər Akademiyasının bir qrup aparıcı alimini qəbul etdi. Ümummilli lider elm sahəsində islahatların aparılmasının vacibliyini əsaslandırdı. Azərbaycanda elmin inkişaf strategiyasının əsas müddəalarını müəyyənləşdirdi.

Nəhayət, "Azərbaycan Prezidentinin 15 may 2001-ci il tarixli fərmanı ilə Elmlər Akademiyasına "Azərbaycan Milli Elmlər Akademiyası" statusu verildi.

Bununla AMEA XXI əsrə zəngin elmi tədqiqat və təşkilatlanma təcrübəsi ilə qədəm qoydu. Eyni zamanda, XXI əsrin gəlişi ilə AMEA-nın tarixində Prezident İlham Əliyev mərhələsinin başladığını deyə bilərik. Bu, artıq yekunlaşmış beşinci və indi də davam edən altıncı mərhələləri əhatə edir.

Beşinci mərhələ 2003-2022-ci illəri əhatə edir. "Bu mərhələ Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin modernləşmə, biliklər cəmiyyətinin qurulması strategiyası kontekstində elmin növbəti inkişaf mərhələsidir. Həmin dönəmdə "İlham Əliyevin elmin inkişafı ilə bağlı qəbul etdiyi çoxsaylı qərarlar sırasında "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya" mühüm yer tutur. Bu mərhələdə AMEA-nın tərkibində bir neçə yeni elmi müəssisənin fəaliyyətə başlamasını, kadr hazırlığı sahəsində əldə edilən nailiyyətləri, elmin populyarlaşdırılmasındakı uğurları, maddi-texniki bazanın gücləndirilməsi istiqamətində tədbirləri xüsusi qeyd etmək olar".

meyl dönəmi kimi xarakterizə olunmuşdur. 1991-1993-cü illəri böhran həddinə çatma olaraq qiymətləndirilmişdir.

"Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1993-cü ildən siyasi hakimiyyətə qayıtdıqdan sonrakı 2003-cü ilə qədərki mərhələ yenidən təşkilatlanma və Milli Elmlər Akademiyasının quruculuğu dövrü kimi tarixdə iz salıb".

Akademik İsa Həbibbəyli fikirlərinə davam edərək vurğulamışdır ki, "Prezident İlham Əliyevin Azərbaycan Respublikasına böyük uğurla rəhbərlik etməkdə davam etdiyi illər üzrə akademiyanın inkişafını 2 mərhələyə – birinci, akademiyanın modernləşdirilməsi dövrü – 2003-2022-ci illər və ikinci, 2022-ci ilin oktyabr ayından başlanan yeniləşmə və islahatlar mərhələsi kimi ayırmaq olar".

Bu mərhələdə AMEA-da bir sıra əsas istiqamətlərdə yeniləşmə və islahatlar həyata keçirililir. Həmin bağlılıqda elmdə məzmunca müstəqil dövlətimizin ön mövqeyə çıxardığı reallıqlara dair tədqiqatları daha da genişləndirilir".

Bu prosesdə "sivilizasiyaların inkişafı və ölkəmizin siyasi-tarixi reallıqlarına əsaslanan azərbaycançılıq üstündə köklənmiş dövrləşdirmə konsepsiyasının işlənməsi" xüsusi yer tutur. Həmin konsepsiyanın da müəllifi akademik İsa Həbibbəylidir. Konsepsiyada deyilir: "Azərbaycan ədəbiyyatının, tarixin, milli-mədəniyyətimizin, Azərbaycan dilinin çoxəsrlik ortaq inkişaf mərhələləri müəyyənləşdirilib. Sovet cəmiyyətindən qalma siyasi-tarixi şəxsiyyətlərin unutdurulması metodologiyasının tam əksinə olaraq, elmimizə tarixi şəxsiyyətlərin, hökmdarların, sərkərdələrin, bu vaxta qədər qaçaq-quldur adlandırılan xalq qəhrəmanlarının həyatı, dövrü, mühiti, mübarizələri və ideyalarının əsaslı şəkildə öyrənilməsi əsas vəzifələrdən biri kimi bəyan olunub".

## Akademik tədqiqat ənənəsi, araşdırma kültürü

Bu anlayışların hər biri Azərbaycan mədəniyyətinin, ölkənin coğrafi yerləşiminin, tarixin müxtəlif dönəmlərində daxil olduğu kültür və geosiyasi mühitin qarışlıqlı təsiri altında məzmunca təkamül etmişdir. Nəticədə Azərbaycanın özünəxas akademik tədqiqat ənənəsi formalaşmışdır. Bu ənənə kəsilməz və dayanıqlı olduğu üçün Azərbaycan akademik araşdırma kültürü formalaşmışdır. Akademik ənənə ilə akademik tədqiqat kültürünün sintezi isə Azərbaycan akademik təcrübəsini şüuri fenomen kimi formalaşdırmışdır.

Bu cür yanaşma Azərbaycanda akademik tədqiqat ənənəsinin formalaşmasında

müəyyən dini atributlarla məhdudlaşmırdı. Bütövlükdə, Azərbaycan alimlərinin idraki fəaliyyətində İslamın təsiri dünyaduyumu, dünyagörüşü və dünyaya elmi baxış kontekstində hiss olunurdu. Bu təsir faktiki olaraq XIX əsrdə Azərbaycanın parçalanmasına qədər dominantlıq təşkil etmişdir. Öncə Rusiya imperiyası, sonra isə sovetlər tədricən elmi tədqiqatlarda dünyəviliyi üstün səviyyəyə yüksəltmişlər.

Bu cür gedişat Azərbaycanda akademik tədqiqatların özünəməxsus ənənəsini formalaşdırmışdır. Bu ənənə elmi fəaliyyətin institutlaşması ilə tədqiqat təcrübəsini əmələ gətirmişdir. Və hər iki faktorun sintezi bütövlükdə Azərbaycan aliminin təfəkkür səviyyəsində akademik tədqiqatçı kültürünü formalaşdırmışdır.

Akademik araşdırma kültürü tarixən transformasiya olmuş və müasir mərhələdə məntiq, texnologiya, nəzəri araşdırma ilə praktiki tətbiqin qarşılıqlı əlaqəsi aspektlərində yeni məzmun kəsb etmişdir. Lakin bütün hallarda müasir Azərbaycan aliminin akademik tədqiqatçı kültürü əsrlərlə özünü göstərmiş əlamətlərin zamanca transformasiya prosesinin birbaşa nəticəsidir.

Bununla Azərbaycanda akademik tədqiqatlar ənənə, təcrübə və təfəkkür kültürünün qarşılıqlı əlaqəsində formalaşmış, bütöv, tam və dinamik proses halına gəlmişdir. Onu, ümumiyyətlə, Azərbaycan elmi tədqiqatının yaradıcılıq və institutlaşma aspektlərində məhv etmək deyil, zəiflətmək belə faciə ola bilər. Həm də ona görə ki, müasir mərhələdə Azərbaycan akademik tədqiqat təcrübəsinin institutlaşması birbaşa dövlətçiliklə sıx bağlıdır.

Tarixdə heç zaman akademiya yaradıcılıqla institutlaşmanın münasibətlərində bu dərəcədə dövlətçiliyə xidmətlə bağlı olmamışdır. Onun əsasını ulu öndər Heydər Əliyev keçən əsrin 70-80-ci illərində qoymuşdur, indi isə inkişaf etməkdədir. Bu o deməkdir ki, AMEA-nın müasir Azərbaycan elmində yeri və rolu fundamentaldır və onu zəiflətmək olmaz.

İndi isə akademik tədqiqat ənənəsi, akademik tədqiqat təcrübəsi və akademik araşdırma kültürü fonunda AMEA-nın son ümumi yığıncağının bir sıra məqamlarını təhlil edə bilərik.

***P.S. Məqalədə müəllifin "AMEA inkişaf və yeniləşmə yollarında" (çapdadır) adlı monoqrafiyasında yer almış materiallardan istifadə edilmişdir.***

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# "Böyük manipulyator"

***Mark ENDEVELD***

***(əvvəli ötən saylarımızda)***

"Gənclər Makron ilə" (JAM) qrupu milyonçu Henri Hermand tərəfindən də dəstəklənir. O, 2016-cı ilin yayında, sevimli namizədi Makrona xəbər göndərir ki, "Mən "Gənclər Makron ilə" qrupunun üzvləri ilə işləyirəm. Onlar, doğrudan da, çox böyük işlər görürlər. Mən də öz tərəfimdən mümkün qədər onlara kömək edirəm və ümidvaram ki, sənin yaxın çevrəndəki adamlar bu cavanlara ilişməyəcəklər...". na o şəhərdə Filip dö Viliye ilə görüşüb şəkil çəkdirmək lazım deyildi. Bu adamın hamı ilə görüşmək, hamının əlini sıxmaq arzusu təəssüf doğurur. O, havayı yerə vaxt itirir... onun bu hərəkətləri gülüncdür...".

Prezident kampaniyası Makronun ətrafındakı müxtəlif dairələrdə də öz təsirini göstərir. Bu adam dövlət başçısı seçiləndən bir neçə ay sonra Yelisey sarayının texnokratları ilə müşavirləri arasındakı ittifaq, makronçular tərəfindən tənqid hədəfinə çevrilir. Nazirlər, deputatlar, eləcə də prezidentin köhnə dostları İsmael Emelien ilə Aleksi Kohlerin özlərini aparmaqlarından,




Bu sözlərlə Hermand, əlbəttə ki, Emelieni və Planş bandasının uşaqlarını nəzərdə tutur. 2016-cı ilin baharından başlayaraq Pier Person bu multi-milyonçu ilə bir neçə dəfə görüşür. Bu görüşlərin birinə hazırlıq qeydində hiss olunur ki, "Gənclər Makron ilə" (JAM) bandası ilə İsmaël Emelienin şəbəkəsi arasında problem var: "İsmael Emelien bizə yaxşı gözlə baxmır... xüsusən də bizim Emmanuel Makrona olan müsbət təsirimizi, eləcə də onun bizim gördüyümüz işlərə dəyər verməsini qısqanır...". Onlar (Gənclər Makron ilə) təəssüflə şikayətlənirlər ki: "Hərəkətdə! hərəkatının ofisində həddindən artıq kommunukant var, özü də onların çoxu özlərindənrazı və təcrübəsiz adamlardır. Belə olmaz. Peşəkarlığın və təcrübənin olmaması o dəqiqə hiss olunur. Emmanuelin gücü siyasi reallığa təsir etməkdir, amma onun komandasında bunun tam əksini görürük...".

Planş "klanının" üzvləri bunu yaddan çıxarmayacaqlar və 2018- ci ilin payızında "Hərəkətdə!" hərəkatının rəhbərlik kampaniyası zamanı onlar qisas alacaqlar. "Hərəkətdə!" hərəkatı LREM partiyasına çevriləndən sonra bu partiyanın baş katibliyinə namizədliyini irəli sürən Parisli gənc deputat Pier Personun həyatını cəhənnəmə döndərəcəklər. Ona olmazın təzyiq göstərəcəklər ki, namizədliyini geri götürsün... onu dəstəkləyənlərə belə zəng vurub hədə-qorxu gələcəklər. Sedrik O, eləcə də Yelisey sarayının mətbuat xidmətinin katibi Benjamin Qrivo belə fikirləşirlər ki, LREM partiyasına lider olmağa ən yaxşı namizəd onların dostu və tələbə yoldaşları Stanislas Qerinidir. Prezident aparatının xüsusi məsləhətçi İsmael Emelien də onların fikrini dəstəkləyir. LREM partiyasına onun bandasının keçmiş bir üzvünün liderlik etməsi, əlbəttə ki, onun ürəyincədir.

## Hermandın vəsiyyəti

2016-cı ilin may ayında Henri Hermand axırıncı dəfə köhnə dostu, keçmiş Baş nazir Mişel Rokardla şam yeməyi yeyir. (Mişel Rokard bir neçə həftədən sonra vəfat edəcək). 92 yaşlı bu qoca kişi, təcrübəli siyasətçi, dostu Makronun onu kənara atıb otuz yaşlı cavan oğlanların məsləhətləri ilə oturub-durmağından bərk narahatdır. Bu məqsədlə o, dostunu sual atəşinə tutur. Qoca siyasətçi sadəcə olaraq başa düşmək istəyir ki, bu otuz yaşlı cavanlardan ibarət bandanın profili necədir: onlar "müşavirlərdir", yoxsa "muzdlu" əsgərlər. Təbii ki, bu sualları verəndə, o, başlıca olaraq Lüdovik Şakeri nəzərdə tutur, çünki bu adam "Hərəkətdə!" hərəkatının baş katibi İsmael Emelienə çox yaxındır.

Henri Hermand ona cavab versə də, fikri tamamilə başqa yerdədir. Onun əsas məqsədi odur ki, Emmanuel Makron nə qədər gec deyil iqtisadiyyat naziri vəzifəsindən istefa verib prezidentliyə namizədliyini irəli sürsün. Henri Hermand 2016-cı il noyabr ayının əvvəlində, Makronun prezident seçkilərindəki qələbəsini görmədən dünyasını dəyişir. Ölümündən bir neçə gün əvvəl, aylardan bəri onunla qətiyyən maraqlanmayan Makron, nəhayət, xəstəxanaya ona baş çəkməyə gəlir. Ancaq Makronun ətrafındakı müşavirlərlərin, xüsusilə də İsmael Emelienin Hermandı görməyə gözü yoxdur. Qoca milyonçunun mətbuatda özünü Makronun məsləhətçisi kimi qələmə verməyi onların xoşuna gəlmir. 2016-cı ilin yanvarında "Les Échos" qəzeti onun haqqında bir məqalə çap edir. Başlığı "Henri Hermand – Makronu prezident etmək istəyən adam" olan bu məqalə gələcək prezidentin ətrafında dolanan adamların xoşlarına gəlmir. Onlar hər vasitə ilə Makronu milyonçudan uzaqlaşdırmağa çalışırlar. Makron da onların sözü ilə qoca dostundan aralanır. Gənc dostunun ona qarşı birdən-birə belə soyuqlaşması təbii ki, milyonçunun xətrinə dəyir. İş o yerə çatır ki, dostunun bu hərəkətindən qəlbi qırılan Hermand, həmin ilin sentyabr ayında "Le Figaro" qəzetinə verdiyi müsahibəsində onu kəskin tənqid edir: "Makrona bir az diqqətli və bir az da ciddi olmaq lazımdır. "Paris Match" jurnalına verdiyi müsahibə, eləcə də jurnalın üz qabığındakı şəkli artıq şeydir. Bu çox səhv bir addım idi. Mən bunu onun özünə də dedim. O jurnal ciddi bir jurnal deyil, səviyyəsiz adamların oxuduğu sarı mətbuatdır. Püy dü Fu şəhərinə səfəri də tamamilə artıq bir şey idi. Makro-

onlarla rəftarından çox şikayətlənirlər, ancaq hələ ki daldada. Aylar keçir və onların hərəkətlərindən cana gələn makronçular pessimizmə qapılırlar. Gələcək onlara qaranlıq görünür və hər biri özünə bu sualı verir: Amerikada "Havas" şirkəti tərəfi ndən təşkil olunan Biznes Frans görüşləri zamanı xərclənən pullarla bağlı qaldırılan məhkəmə işinə görə prezidentin bu iki favoriti Yelisey sarayını tərk edəcəkmi? Onlar cinayət məsuliyyətinə cəlb olunacaqmı?

2018-ci ilin əvvəlində hələ heç kim Emmanuel Makronun bu iki ən sadiq və ən yaxın xidmətçilərinə açıq şəkildə irad tutmağa cəsarət etmir. Bu iki adam – özlərini "mormonlar" adlandıran İsmael Emelien ilə Aleksi Kohler – dövlət başçısına müqəddəs adam kimi səcdə edir və onun üçün hər şeyi etməyə hazır olduqlarını bildirirlər. 2017-ci ilin iyul ayında prezidentin mətbuat müşaviri Sibet Ndiay L'Express jurnalına 189 verdiyi müsahibədə açıq şəkildə deyir ki: "Mən tamamilə səmimi etiraf edirəm ki, prezidenti qorumaq üçün yalan da danışıram". Liderləri kimi bu gənc məsləhətçilər də səhərdən axşama kimi yorulmadan işləyirlər... və çox nadir hallarda Yelisey sarayının idman zalında bir balaca istirahət edirlər. Onların hamısına sanki adrenalin iynəsi vurulub. Birjadakı trayderlər kimi yorulmaq bilmədən bütün günü ora-bura qaçırlar.

## "Müşketyorlar" və "Kardinalın mühafizəçiləri"

2018-ci ilin yazında Yelisey sarayının sistemində bir çox zəiflik əlamətləri gözə çarpır. Prezident aparatında atmosfer o qədər korlanır ki, nəfəs almaq belə çətinləşir. Paranoya ən yüksək nöqtəsinə çatır. Taxt-tacın ətrafında biri-birinə düşmən kəsilən iki qrup formalaşır. Bir tərəfdən Brijit Makronun ətrafındakı məsləhətçilər, o cümlədən birinci xanımın kabinet direktoru Pier-Oliviye Kosta, onun kabinet şefi Tristan Bromet və mətbuat müşaviri Brüno Roje-Peti; digər tərəfdən prezidentin mətbuat müşaviri Sibet Ndiay, prezidentin çıxışlarının məsləhətçisi və cavabdehi Silvan Fort, eləcə də İsmael Emelien və onun Planş bandasındakı yoldaşları: prezidentin müşavirləri Sedric O. və Emmanuel Miqel, bir də Yelisey sarayının baş katibi Aleksi Kohler. Bir tərəfdən birinci xanım Brijit Makron, digər tərəfdən onun zəhləsi getdiyi "klan", "sekta". Birincilər, məktəb uşaqları kimi özlərini "müşketyorlar" adlandırırlar, rəqiblərinə isə istehza ilə "kardinalın mühafizəçiləri" deyirlər. Yelisey sarayının ürəyində yerləşən bu iki klanın düşmənçiliyi bir gün özünü daha qabarıq göstərir: dövlət başçısı tərəfindən təşkil olunmuş Versal Konqresində Kohler ilə Emelien prezidentin çıxışının surətini, protokola görə kabinetin ikinci adamı sayılan Patrik Strzodaya göndərmirlər. (!)

Makron bu iki qrupun bir-biri ilə düşmənçiliyindən qəti narahat olmur, onların bir-birini tənqid etmələrini qulaqardına vurur. Müdrik bir padşah kimi, o, hər iki düşmən qrupun üzvlərinə səbirlə izah edir ki, onların arasındakı rəqabət "o qədər də vacib bir şey deyil". Brijit ona İsmael Emelien haqqında danışanda, Emmanuel emosiyalara qapılmır: "Sən onu sevmirsən", – deyə arvadının sözünü kəsir. Çünki Makron yaxşı bilir ki, onun komandasında "təzə qana" ehtiyac çoxdur. 2018-ci ilin əvvəlindən prezident çalışır ki, onun kölgədə olan sadiq məsləhətçisi Filip Qranjon Yelisey sarayına gəlib onun komandasına qoşulsun. Sosialist Partiyasının keçmiş aktivisti hazırda CFDT (Fransa Demokratik Əmək Konfederasiyası) təşkilatında fəaliyyət göstərən bu adamın siyasi təcrübəsi, həqiqətən, əvəzolunmazdır. Əvvəllər Sosialist Partiyasından olan müxtəlif Nazirlərin Kabinetində çalışan, sonradan Parisin meri Bertran Delanyönün məsləhətçisi olan bu adamı Makron çox yüksək qiymətləndirir. Əslində, Filip Qranjonu öz yanına – Yelisey sarayına gətirməyi Makron yanvar ayından arzulayır. İlin birinci ayında prezident ona sadiq bu adama təklif edir ki, bütün funksiyalarını atıb Yelisey sarayına gəlsin və onun "xüsusi məsləhətçisi" olsun. Lakin Qranjon özünü bu işə hazır saymadığından, prezidentin təklifi ni qəbil etmir. O, saraydan və saray münaqişələrindən kənarda qalmağa üstünlük verir.

***(ardı var)***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

*(əvvəli 2-ci səhifədə)*

32. "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrin və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin şəxsi heyəti üçün ərzaq payı normalarının və xidməti heyvanlarının yemləmə normalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 8 yanvar tarixli 2 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 1, maddə 82) aşağıdakı dəyişikliklər edilsin:

32.1. həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin uçuş heyəti üçün ərzaq payı Normaları"nın "Qeydlər" hissəsinin 1.8-ci bəndində "vertolyotların" sözü "helikopterlərin" sözü ilə əvəz edilsin;

32.2. həmin Qərarla təsdiq edilmiş 9 nömrəli əlavə - "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin ümumqoşunları və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin sıravi və rəis heyəti üçün quru ərzaq payı Normaları"nın "Qeydlər" hissəsinin 2-ci bəndində "uçuş aparatlarının və vertolyotların ekipajları" sözləri "hava gəmisinin heyəti" sözləri ilə əvəz edilsin.

33. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 18 fevral tarixli 48 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 203 (Cild I); 2024, № 1, maddə 74, № 2, maddə 209, № 9, maddə 1106) ilə təsdiq edilmiş "Tikinti layihəsinin texnologiya bölməsinin hazırlanması tələb olunan hallar"ın 1.40.1-ci yarımbəndində "aeroportlar" sözü "hava limanları" sözləri ilə əvəz edilsin.

34. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 21 fevral tarixli 51 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 206 (Cild I); 2024, № 1, maddə 74) ilə təsdiq edilmiş "Ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl Qaydalar"ın 4.5-ci bəndinin üçüncü cümləsində "aeroportlar" sözü "hava limanları" sözləri ilə əvəz edilsin.

35. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 16 sentyabr tarixli 309 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 9, maddə 1133 (Cild I); 2024, № 4, maddə 440, № 7, maddə 907) ilə təsdiq edilmiş "Tikintisinə icazə tələb edilən tikinti obyektlərinin istismarına icazə üçün müraciətə sifarişçi tərəfindən əlavə edilən tikinti sənədlərinin siyahısı"nın 2.4-cü bəndində "aeroportlar (hava limanları)" sözləri "hava limanları" sözləri ilə əvəz edilsin.

36. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 3 mart tarixli 54 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 3, maddə 323 (Cild I) ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə görə məsuliyyətə cəlb olunmuş şəxslərə qarşı preventiv tədbirlərin həyata keçirilməsi Qaydası"nın 4.12.1-ci yarımbəndində "təyyarələrdə" sözü "hava gəmilərində" sözləri ilə əvəz edilsin.

37. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164 (Cild I); 2024, № 1, maddə 127, № 2, maddə 244, № 4, maddə 465, № 7, maddələr 891, 903, № 9, maddələr 1045, 1106, № 10, maddələr 1165, 1178, № 11, maddə 1257, № 12 (I kitab), maddələr 1319, 1324) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə aşağıdakı dəyişikliklər edilsin:

37.1. "8479 71 000 0" alt yarımmövqeyinə aid sətrin "Mal mövqelərinin adları" sütununda və "8709" alt yarımmövqeyinə aid sətrin "Mal mövqelərinin adları" sütununda "aeroportlarda" sözü "hava limanlarında" sözləri ilə əvəz edilsin;

37.2. "QRUP 88"də cədvəl üzrə ismin müvafiq hallarında "vertolyotlar" sözü ismin müvafiq hallarında "helikopterlər" sözü ilə əvəz edilsin.

38. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 19 fevral tarixli 54 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 358 (Cild I) ilə təsdiq edilmiş "İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin vətəndaşları üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrində təhsil qrantının verilməsi Qaydaları, o cümlədən təhsil qrantının məbləği"nin 2.3-cü bəndində "təyyarə" sözü "hava nəqliyyatına sərnişin" sözləri ilə əvəz edilsin.

39. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 19 mart tarixli 107 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 3, maddə 617 (Cild I) ilə təsdiq edilmiş "Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşları üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrində təhsil qrantının verilməsi Qaydaları, o cümlədən təhsil qrantının məbləği"nin 2.3-cü bəndində "təyyarə" sözü "hava nəqliyyatına sərnişin" sözləri ilə əvəz edilsin.

40. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 17 dekabr tarixli 523 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin funksional təsnifatına əlavə"nin "11.1.4. Hava nəqliyyatı" paraqrafının ikinci abzasında "pilotların, ekipajların" sözləri "hava gəmisinin heyətinin" sözləri ilə əvəz edilsin.

41. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 11 fevral tarixli 40 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 2, maddə 191 (Cild I) ilə təsdiq edilmiş "Elektrik qurğularının quraşdırılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

41.1. 2.5.2.3-cü yarımbəndin ikinci cümləsində "vertolyot" sözü "helikopter" sözü ilə və "heyət və vertolyot ekipajı" sözləri "hava gəmisinin heyəti" sözləri ilə əvəz edilsin;

41.2. 2.5.2.10-cu yarımbəndin birinci cümləsində "Vertolyotlardan" sözü "Helikopterdən" sözü ilə və "vertolyotdan" sözü "helikopterdən" sözü ilə əvəz edilsin;

41.3. 2.5.25-ci yarımbəndin adında "vertodromlarla" sözü "helikopter meydançaları" sözləri ilə və 2.5.25.1-ci yarımbənddə "vertodromların" sözü "helikopter meydançalarının" sözləri ilə əvəz edilsin;

41.4. 5.5.1.1-ci yarımbəndin ikinci abzasında ", təyyarələrdə və digər uçan aparatlarda" sözləri ", hava gəmilərində" sözləri ilə əvəz edilsin.

42. "Azərbaycan Respublikasının aeroportlarında (hava limanlarında) xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarının xidmətlərindən istifadə hüququ olan Azərbaycan Respublikasının vəzifəli şəxslərinin Siyahısı"nın, "Azərbaycan Respublikasının aeroportlarında (hava limanlarında) xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarının xidmətlərindən istifadə hüququ olan xarici dövlətlərin və beynəlxalq təşkilatların nümayəndələrinin Siyahısı"nın və "Azərbaycan Respublikasının aeroportlarında (hava limanlarında) xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarından istifadə Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 29 oktyabr tarixli 322 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1189 (Cild I); 2024, № 1, maddə 112, № 3, maddə 319, № 4, maddə 443) aşağıdakı dəyişikliklər edilsin:

42.1. adında (hər üç halda), 1-ci, 2-ci və 3-cü hissələrdə "aeroportlarında (hava limanlarında)" sözləri "hava limanlarında" sözləri ilə əvəz edilsin;

42.2. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikasının aeroportlarında (hava limanlarında) xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarının xidmətlərindən istifadə hüququ olan Azərbaycan Respublikasının vəzifəli şəxslərinin Siyahısı"nın və həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərbaycan Respublikasının aeroportlarında (hava limanlarında) xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarının xidmətlərindən istifadə hüququ olan xarici dövlətlərin və beynəlxalq təşkilatların nümayəndələrinin Siyahısı"nın adlarında "aeroportlarında (hava limanlarında)" sözləri "hava limanlarında" sözləri ilə əvəz edilsin;

42.3. həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - "Azərbaycan Respublikasının aeroportlarında (hava limanlarında) xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarından istifadə Qaydaları" üzrə:

42.3.1. adında, 1.1-ci, 1.2-ci bəndlərdə, 2.1-ci bəndin birinci cümləsində, 3.1-ci bəndin birinci cümləsində (hər iki halda), 3.3-cü, 3.5-ci bəndlərdə və 4.7-ci bəndin birinci cümləsində ismin müvafiq hallarında "aeroportlar (hava limanları)" sözləri ismin müvafiq hallarında "hava limanları" sözləri ilə əvəz edilsin;

42.3.2. 1.2-ci bənddə "aeroport" sözü "hava limanı" sözləri ilə və "aeroportlarda" sözü "hava limanlarında" sözləri ilə əvəz edilsin;

42.3.3. 2.1-ci bəndin birinci cümləsində və 2.3-cü bənddə "aeroportun (hava limanının)" sözləri "hava limanının" sözləri ilə əvəz edilsin.

43. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 16 iyun tarixli 231 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 6, maddə 672 (Cild I); 2024, № 5 (II kitab), maddə 611, № 9, maddə 1090) ilə təsdiq edilmiş "Qeydiyyatdan keçmiş yük agentlərinə və məlum yükgöndərənlərə sertifikat və fərdi kod nömrəsinin verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

43.1. 2.1.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.1.3. aviasiya təhlükəsizliyi sahəsində yoxlamalar – mülki aviasiyanın təhlükəsizlik sisteminin vəziyyətinin qiymətləndirilməsi, "Aviasiya təhlükəsizliyi üzrə Dövlət Proqramı"nın və "Aviasiya təhlükəsizliyinin təmin edilməsi Qaydaları"nın tələblərinə uyğunluğunun müəyyən edilməsi və aşkar edilmiş uyğunsuzluqların aradan qaldırılması üzrə keçirilən tədbirlərin məcmusu;";

43.2. 3.15-ci bənddə "uyğunluğu yerində yoxlanılır və yoxlamanın nəticələrinə dair bu Qaydanın 3 nömrəli əlavəsi ilə müəyyən edilmiş formada akt" sözləri "uyğunluğunun yerində yoxlanılması üçün aviasiya təhlükəsizliyi sahəsində yoxlamalar aparılır və yoxlamanın nəticələrinə dair hesabat" sözləri ilə əvəz edilsin;

43.3. 3.16-cı bənddə "Müfəttiş yoxlamasına dair akt" sözləri "Aviasiya təhlükəsizliyi sahəsində yoxlamalara dair hesabat" sözləri ilə əvəz edilsin;

43.4. 6.1.2-ci yarımbənddə "müfəttiş yoxlamaları" sözləri "aviasiya təhlükəsizliyi sahəsində yoxlamalar" sözləri ilə əvəz edilsin;

43.5. həmin Qaydaya 1 nömrəli əlavə - "Qeydiyyatdan keçmiş yük agentlərinin (məlum yükgöndərənlərin) sertifikatlaşdırılması üçün ərizə"nin "b" bəndində "müfəttiş yoxlaması" sözləri "aviasiya təhlükəsizliyi sahəsində yoxlama" sözləri ilə əvəz edilsin;

43.6. həmin Qaydaya 3 nömrəli əlavə - "Müfəttiş yoxlamasına dair Akt" ləğv edilsin.

44. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 18 iyul tarixli 231 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 7, maddə 1070 (Cild I) ilə təsdiq edilmiş "İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıq və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi nəzərdə tutulan mal mövqelərinin siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

44.1. "QRUP 87." hissənin "8709" alt yarımmövqeyinə aid sətrin "Mal mövqeyinin adı" sütununda "aeroportlarda" sözü "hava limanlarında" sözləri ilə əvəz edilsin;

44.2. "QRUP 88." hissənin "8802" alt yarımmövqeyinə aid sətrin "Mal mövqeyinin adı" sütununda "vertolyotlar" sözü "helikopterlər" sözü ilə əvəz edilsin.

45. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 oktyabr tarixli 380 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 10, maddə 1460 (Cild I) ilə təsdiq edilmiş "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı"nın verilməsi Qaydası"nın 2.3-cü bəndində və 3.2.2-ci yarımbəndinin dördüncü cümləsində "təyyarə" sözü "hava nəqliyyatına sərnişin" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 39** **Bakı şəhəri, 20 fevral 2025-ci il**

***"Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 aprel tarixli 175 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 aprel tarixli 175 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 421 (Cild I); 2024, № 1, maddə 98, № 3, maddə 301, № 7, maddə 892, № 10, maddə 1160, № 11, maddə 1247) aşağıdakı dəyişikliklər edilsin:

1. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.".

2. Həmin Qərarla təsdiq edilmiş "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası" üzrə:

2.1. 2-ci hissə üzrə:

2.1.1. 2.1-ci bəndin birinci cümləsinə "xüsusi rütbəli şəxslərə" sözlərindən sonra "və onların ailə üzvlərinə, eləcə də daha yüksək məbləğdə hesablanmış digər növ əmək pensiyasına hüququ olduqda əmək pensiyaçısına müvafiq" sözləri əlavə edilsin;

2.1.2. 2.5-ci bəndə "Hərbi qulluqçuların və xüsusi rütbəli şəxlərin" sözlərindən sonra "avtomatlaşdırılmış qaydada ailə başçısını itirməyə görə əmək pensiyası təyin edilməmiş" sözləri əlavə edilsin;

2.2. 6-cı hissə üzrə:

2.2.1. 6.1.7-ci yarımbəndə "qəbul edildikdə" sözlərindən sonra "və hərbi xidmətdən buraxıldıqda" sözləri əlavə edilsin;

2.2.2. 6.4-cü bənddə "Qanunun 34-cü maddəsinin şərtləri nəzərə alınmaqla yeni növ pensiya təyinatı" sözləri "Qanunun 34.1-1-ci maddəsinə uyğun olaraq avtomatlaşdırılmış qaydada yeni təyinatın aparıldığı tarixdən və ya bu barədə" sözləri ilə əvəz edilsin.

3. Bu Qərar 2024-cü il iyulun 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Replika*

# Vicdansızlığın "Şiff barometri"



**"ABŞ Konqresində son 250 ilin ən pis cinayətkarı". "Bu adama etibar etmək olmaz". "Şiff məşhur yalançıdır". "O, Trampa xor baxan keçmiş prezident Co Bayden kimi demokratların kor partizan sədaqəti ilə qoruduğu Amerikanın bədənində "qara yaradır". "Əgər kimsə vicdansızlığın nə olduğunu bilmirsə, baxsın, nümunə Adam Şiffdir...".**

Yan-yana düzdüyümüz bu "yağlı" epitetlərin hamısı "The Western Journal"ın saytında Kaliforniya ştatının ermənipərəst senatoru Adam Şiffin ünvanına yağdırılıb. Daha doğrusu, jurnal "hay sevdası" ilə tanınmış senatoru yıxıb-sürüyüb.

ABŞ Senatının Federal Təhqiqatlar Bürosunun (FTB) direktoru vəzifəsinə namizədliyini təsdiqlədiyi Keş Patel elə ilk çıxışındaca maraqlı və yaddaqalan "Siff-şou" göstərib. Jurnal Patelin çıxışına istinadla yazır ki, Donald Trampın ilk prezidentliyi dövründə kaliforniyalı demokrat senator Adam Şiff ona qarşı "Rusiya sövdələşməsi" saxtakarlığını yayıb. Trampa qarşı ilk impiçment məhkəməsini təşkil edən də Şiff olub. Fəqət onun bu cəhdi uğursuzluğa düçar oldu. Nəticədə amerikalı seçicilərin demokratlara artan nifrəti sayəsində respublikaçı Trampın Ağ evə qayıdışının şahidi olduq.

FTB-nin Vaşinqtondakı mənzil-qərargahında yeni direktor Şiffin bir çox "qələtləri"nin üzərinə işıq salıb. Onun son "qələti" Trampın namizədliyini irəli sürdüyü Keş Patelin Senatda təsdiqlənməsini pozmağa çalışması olub. Amma yenə uduzub. Bundan əvvəl büro qarşısında toplanan demokratlar arasında görünən burada da özünü biabır etməyi bacarmışdı. Partiyadaşları onun haqqında "bu adama etibar etmək olmaz, onun bu işi görməyə mənəvi haqqı yoxdur" qərarını vermişdilər.

Söhbət Nümayəndələr Palatasının Xarici kəşfiyyat məsələləri komitəsindən qovulmuş, 2022-ci il aralıq seçkilərindən sonra Respublikaçılar palataya nəzarəti ələ keçirəndə nadürüstlüyünə və etibarsızlığına görə qınanılan bir adamdan gedir. O zamankı Nümayəndələr Palatasında çoxluğun lideri Kevin MakKarti Şiffin üzünə istehza ilə "dürüstlük çox önəmlidir" demişdi. Artıq o vaxta qədər Adam Şiff haypərəst "fəaliyyəti" ilə hamıya sübut etmişdi ki, dürüstlük ona yad anlayışdır.

Amerikalılar yaxşı bilirlər ki, xüsusi prokuror Robert Muellerin Trampın Rusiya ilə, guya, gizli sövdələşməyə dair ortaya "sübut" qoyacağını bəyan edən Şiffin yalan məlumatı, təbii olaraq, öz təsdiqini tapmamışdı.

Bundan sonra arsız Şiff 2021-ci ilin yanvarında "Trampın tərəfdarlarının Kapitolini işğal etməsi faktını" araşdırmaq üçün palata sədri, qatı ermənipərəst Nensi Pelosinin təyin etdiyi komitənin "xidmətçisi" rolunu oynadı. Sonda üzə çıxacaq ki, bu, Amerika ictimaiyyətini çaşdırmaqla, Donald Tramp və tərəfdarlarına qarşı demokratların qurduğu anti-təbliğat kampaniyasından başqa bir şey deyilmiş.

FTB-nin yeni rəhbəri Patel Şiffin bu kimi əməllərini "adi vicdansızlıqdan daha çox təhlükəli" fəaliyyət adlandırıb. O, Adam Şiffin ünvanına "Konqresdə son 250 ilin ən qatı cinayətkarı" deyib. "The Western Journal" yazır ki, FTB-nin yeni rəhbərinin senatoru belə alçaldıcı şəkildə "bəzəməsi" istənilən siyasətçini narahat etməli idi. Amma Şiff kimi birisi üçün bu, sadəcə, növbəti qalmaqal fürsətidir.

Jurnalın hazırda "hay məsləkdaşı" Bob Menendez kimi həbs təhlükəsi ilə üzləşən, bədnam və miskin duruma düşmüş senator Adam Şiff haqqında tənqidi məqaləsi bu sözlərlə bitir: "Respublikaçılar Şiffin Patelə etirazlarının nə qədər mənasız və arqumentsiz olduğunu çox yaxşı bilirlər. Çünki iyrənc Adam Şiffin dürüstlükdən danışmağa haqqı yoxdur".

***İ.HƏSƏNQALA***
***XQ***

*SOSİAL XƏBƏRLƏR*

## DOST-un dostluq töhfələri

***DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi və onun filiallarında ötən dövr ərzində 650-dək benefisiar müxtəlif fəaliyyət istiqamətləri üzrə təlimlərə cəlb edilib.***




Onlardan 128-i əlillər, qalanları şəhid ailələrinin üzvləri, valideyn himayəsindən məhrum şəxslər və digər həssas qruplara aid şəxslər olub.

Mərkəzdə həssas qruplara aid şəxslərin yaradıcı potensialının, bacarıqlarının inkişafına və cəmiyyətə inteqrasiyasına dəstək göstərilir. 2021-ci ilin oktyabr ayında açılan mərkəzin İsmayıllı və Bərdə rayonlarında filialları var.

Mərkəz və filiallarında hazırda 201 benefisiar 14 fərqli fəaliyyət istiqaməti üzrə təlimlərdə bacarıqlarını inkişaf etdirir. Benefisiarlarla bağlı bərpa işləri də aparılır.

Bu ilin yanvar ayında DOST mərkəzlərində 84 min vətəndaşa xidmət göstərilib.

2019-cu ilin may ayından fəaliyyət göstərən, sayı 7-ə çatan DOST mərkəzində 160 sosial xidmət "bir pəncərə"dən, müasir və çevik, şəffaf mexanizmlərlə, vətəndaş məmnunluğuna uyğun təqdim edilir.

DOST xidmətlərindən vətəndaş məmnunluğu 98,5 faiz təşkil edir.

## Bu il 150 əmək yarmarkası keçiriləcək

***Dövlət Məşğulluq Agentliyi bu il paytaxt və bölgələrimizdə 150 əmək yarmarkasının həyata keçirilməsini nəzərdə tutub.***

Onlardan İsmayıllı, Şamaxı, Cəbrayıl, İmişli, Laçın, Ağstafa, Cəlilabad, Yevlax, Bərdə, Siyəzən, Saatlı, Şəki və s. rayonlarda 20 yarmarka artıq təşkil olunub. Paytaxt və bölgələrimizdə təşkil olunan əmək yarmarkalarında işsiz və işaxtaran şəxslərə müəssisələrdə mövcud olan vakansiyalar, həmin vakansiyalara dair tələblər barədə məlumat verilir.

Bu aktiv məşğulluq tədbirlərində işəgötürənlərin nümayəndələrinin vakansiyalara namizədlərlə ilkin müsahibələr təşkil edilir. Yarmarkalarda işsiz və işaxtaran şəxslər agentliyin icra etdiyi layihələr barədə də məlumat əldə edirlər.

Qeyd edək ki, ötən il keçirilən 147 əmək yarmarkasında 1800 müəssisə 15 min 700 vakansiya təqdim edib.

## Məhkum qadınlarla görüş



***Sosial Xidmətlər Agentliyi və Ədliyyə Nazirliyinin birgə təşkilatçılığı ilə 4 saylı Cəzaçəkmə Müəssisəsində məhkum qadınlarla görüş keçirilib. Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial mühitə adaptasiyası məqsədilə keçirilən tədbirdə üç yaşınadək uşağı olan və cəzasının bitməsinə 3 ay qalmış məhkum qadınlar iştirak edib.***

Sosial Xidmətlər Agentliyinin əməkdaşları məhkum qadınların sosial adaptasiyası, hüquq və azadlıqlarının qorunması məqsədilə qurumun həyata keçirdiyi tədbirlər, Agentliyin Sosial Adaptasiya Mərkəzinin fəaliyyəti barədə məlumat verib, sualları cavablandırıblar. Bildirilib ki, bu dəstək tədbirləri könüllülük prinsipi və şəxsin razılığı əsasında həyata keçirilir. Cəzaçəkmədən azad olunan şəxslərin ailələrinə səfərlər təşkil olunur və aparılan qiymətləndirmənin nəticəsinə uyğun olaraq onlar müvafiq xidmətlərlə əhatə olunurlar.

Görüşdə 7 qadının anket sorğusu əsasında qiymətləndirilmə aparılıb. Azad olunduqdan sonra onların sosial-psixoloji yardım xidmətlərinə cəlb edilməsi nəzərdə tutulur.

***Z.HÜSEYNOVA***
***XQ***

# Azərbaycan müasir, güclü aqrar iqtisadiyyat yaradır

## Aqroparklar isə kəndə yeni istehsal mədəniyyəti gətirir

(əvvəli 1-ci səhifədə)

Müvafiq dövlət proqramları çərçivəsində regionlarda kənd təsərrüfatının inkişafı siyasətinə uyğun olaraq aqrar-sənaye parkları və məhəllələrinin fəaliyyətinin təşkili və genişləndirilməsi istiqamətində işlər indiyədək uğurla davam etdirilib. Qeyd edək ki, aqroparklar torpaq sahələrindən səmərəli istifadə, məhsuldarlığın yüksəldilməsi, yeni istehsal və emal sahələrinin yaradılması, müasir suvarma sistemlərinin tətbiqi üçün innovativ və əlverişli mexanizmdir.

Son illərdə bu aqrar-sənaye komplekslərinin ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsində rolu getdikcə gücləndirilib, bu sahənin sahibkarlığın inkişafı, kiçik, orta və iri təsərrüfatların qarşılıqlı faydalı əməkdaşlığı üçün əlverişli platformaya çevrilməsinə xüsusi önəm verilib. Məsələn, Yevlax Pilot və "Araz Vadisi İqtisadi Zonası" parklarının səmərəli fəaliyyəti təmin olunub.

İqtisadi Zonaların İnkişafı Agentliyinin məlumatında bildirilir ki, ümumi ərazisi 2 min 807 hektar olan və 55,2 milyon manatadək investisiya yatırılacağı nəzərdə tutulan Yevlax Pilot Aqropark ölkə ərazisində kiçik və orta fermerlərin cəlb olunması ilə yaradılan ilk dövlət aqroparkıdır. Burada 2 min 280 hektar sahədə 34 sahibkarlıq subyekti rezident kimi qeydiyyata alınıb.

Məlumata görə, aqroparkda, ümumilikdə, 55,2 milyon manatadək özəl investisiyanın yatırılması ilə 331 nəfərlik daimi iş yerinin yaradılması nəzərdə tutulub. İndiyədək rezidentlər tərəfindən 44 milyon manat investisiya qoyulmaqla 121 daimi, 457 mövsümi iş yeri açılıb. 21 rezident tərəfindən 1199 hektar ərazidə əkin işləri aparılıb, 412,5 hektar sahədə intensiv və superintensiv meyvə bağları salınıb. Aqroparkda 1,1 min ton buğda, 0,6 min ton arpa, 0,4 min ton pambıq və 660 min ədəd ting istehsal olunub. Həmçinin aqroparkda 2024-cü ildə yığım da həyata keçirilib və bağlar yeni salındığı üçün, ümumilikdə, 44 ton çəyirdəkli meyvə yığılıb. Artıq bu aqroparkın ərazisinin 80 faizdən çox hissəsi sahibkarların istifadəsinə verilib.



Ölkəmizdə iqtisadiyyatın inkişafına, ixrac potensialının artırılmasına, rəqabətqabiliyyətli məhsul istehsalına mühüm töhfə verməyi qarşıya önəmli vəzifə kimi qoyan "Araz Vadisi İqtisadi Zonası" 200 hektar ərazini əhatə edir. Parkın aqrar məhsulların emalı, sənaye, sosial və texniki zonalara bölünəcəyi nəzərdə tutulur. Burada logistika və ticarət mərkəzi, anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri və digər sahələri əhatə edən məntəqələrin yaradılması planlaşdırılır.

"Araz Vadisi İqtisadi Zonası"nda sənaye istehsalı müəssisələrinin təşkili ilə bərabər, kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservləri, süd və ət məhsulları istehsalı və emalı, şərab, yem, gübrə istehsalı, ipəkçilik müəssisələrinin, soyuducu kameraların qurulması, kiçik istehsal, eyni zamanda, xidmət sahələrinin yaradılması da planlaşdırılır.

Yeri gəlmişkən, iqtisadi zonada naxçıvanlı sahibkarların da fəaliyyət göstərmələri nəzərdə tutulub. Belə ki, sənaye parkında muxtar respublika sahibkarlarının logistik fəaliyyəti üçün 14 hektar sahə müəyyənləşdirilib. Ərazidə Naxçıvan Sahibkarlar Konfederasiyasının vasitəsi ilə logistik anbarların yaradılması, ilkin mərhələdə əsasən, tikinti materiallarının satışı planlaşdırılıb.

"Araz Vadisi İqtisadi Zonası" yerləşdiyi coğrafiyanın, eləcə də bölgənin qeyri-neft sənayesinin sürətli inkişafına önəmli təsir göstərəcək. Eyni zamanda, bu kompleks respublikamızın ixrac potensialının artırılmasına, innovativ və yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənayenin inkişafına, ölkəyə valyuta axınının, investisiyaların artmasına yeni imkanlar açacaq.

Qeyd edək ki, azad olunmuş ərazilərin iqtisadi potensialının hərəkətə gətirilməsində, xüsusilə aqrar-sənaye sahəsində məşğulluğun təmin olunmasında mühüm rol oynayan "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı "Araz Vadisi İqtisadi Zonası Sənaye Parkının yaradılması haqqında" Prezident İlham Əliyevin 4 oktyabr 2021-ci il tarixli Fərmanı ilə Cəbrayıl rayonunda yaradılıb.

Parkın logistik imkanlar baxımından əlverişli ərazidə yaradılması investorların diqqətini cəlb edən əsas amillərdən biridir. İqtisadi zonanın yeni salınan magistral avtomobil və dəmir yollarının üzərində yerləşməsi də onun uğurlu fəaliyyəti üçün zəmin yaradır. Belə ki, parkın ərazisindən həmin magistral yollara birbaşa giriş-çıxışın təmin edilməsi Zəngəzur dəhlizi vasitəsilə Azərbaycandan Türkiyəyə və əksinə, eləcə də Azərbaycan ərazisindən Rusiyaya yüklərin daşınmasına imkan verir.

Parkın prioritet istiqamətləri kimi logistika və ticarət mərkəzi, anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri, TIR parkı, gömrük, yanacaqdoldurma, avtomobil və digər texnikaların təmiri məntəqələrinin təşkili müəyyənləşdirilib. Bütün bu amillər həm yerli, həm də xarici iş adamalarının marağına səbəb olub.

İqtisadi Zonaların İnkişafı Agentliyindən bildirildiyinə görə, artıq "Araz Vadisi İqtisadi Zonası"nın 30 faizdən çox hissəsi sahibkarların istifadəsinə verilib. Hazırda 16 rezidentin və 2 qeyri-rezidentin fəaliyyət göstərdiyi bu sənaye parkına, ümumilikdə, 130 milyon manatdan çox investisiyanın yatırılması, 1800-dən çox daimi iş yerinin yaradılması nəzərdə tutulub. İndiyədək iqtisadi zonada görülən işlərə rezidentlər tərəfindən 29,6 milyon manatdan çox investisiya yatırılıb, 100-ə yaxın daimi iş yeri yaradılıb. Parkın 30 faizdən çox hissəsi sahibkarların istifadəsinə verilib. Parkda 1 müəssisənin fəaliyyəti gerçəkləşdirilib, 5-dən çox müəssisənin tikintisi isə sürətləndirilib.

Xatırladaq ki, işğalçıdan təmizlənən torpaqların dirçəlməsi, bu ərazilərə yeni nəfəs verilməsi strategiyasında sənayeləşmə siyasəti xüsusi yer tutur. Başqa sözlə, Qarabağ və Şərqi Zəngəzurda sənaye parklarının qurulması və bu müəssisələrə investisiya cəlb olunması bölgənin resurslarından, həmçinin iqtisadi imkanlarından yararlanmaqla adları çəkilən iqtisadi rayonların ölkə iqtisadiyyatına səmərəli reinteqrasiyasına əlavə stimul yaradır.

Laçın Aqro və Sənaye Parkının yaradılması da əsasən bu məqsədə xidmət edir. Parkda, ümumilikdə, 46 müəssisənin fəaliyyət göstərəcəyi, onların da 80 faizinin tezliklə işə başlayacağı nəzərdə tutulur. Burada sənaye sahələrinin işə salınması ilə bərabər, həm də balıq təsərrüfatı, yeyinti və yüngül sənaye, ekoloji cəhətdən təmiz emal müəssisələri, eyni zamanda, kiçik buynuzlu heyvanlar üzrə elmi-təcrübə mərkəzinin yaradılması planlaşdırılır.

# "Şəfəq-Asiman" Xəzərin ən dərin yatağıdır



## Burada ilk kəşfiyyat quyusu 7 min metri ötüb

**Ötən il Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Şəfəq-Asiman" blokunda qazılmış ilk kəşfiyyat quyusunda aşkar olunmuş karbohidrogen ehtiyatlarının dəyərləndirilməsi və növbəti fəaliyyətlərin planlaşdırılması işləri davam etdirilib. Bu barədə "BP-Azərbaycan" şirkəti məlumat verib.**

Xatırladaq ki, 2021-ci ildə qazma işləri başa çatdırılmış "SAX01"quyusundan əldə edilmiş ilkin məlumatlar burada karbohidrogenlərin olmasını təsdiqləyib. 2020-ci ildən başlayaraq "Şəfəq-Asiman" strukturunda, hələlik, bir kəşfiyyat quyusu qazılsa da, mütəxəssislər uzun müddət işlənmədən kənarda qalan blokun karbohidrogenlərlə zəngin olması qənaətindədirlər.

Şəfəq-Asiman" dəniz bloku üzrə Hasilatın Pay Bölgüsü Sazişinin kəşfiyyat proqramına uyğun olaraq qazma əməliyyatı dənizin 623 metr dərinliyində aparılıb. İlk kəşfiyyat quyusu SOCAR-ın törəmə şirkəti olan "Caspian Drilling Company" tərəfindən Heydər Əliyev adına yarımdalma qazma qurğusu vasitəsi ilə yerinə yetirilib. "SAX01" kəşfiyyat quyusunda qazma işləri 2021-ci ilin mart ayında Fasilə lay dəstinin 7 min 189 metr dərinliyində tamamlanıb. Quyunun keçdiyi lay dəstlərində qaz-kondensat ehtiyatları aşkar edilib. Bütövlükdə isə, strukturda 3 kəşfiyyat quyusunun qazılması nəzərdə tutulur ki, bu da nəticə etibarilə Xəzərin daha dərin hissəsində ilk təcrübə kimi dəyərləndirilir.

Yeri gəlmişkən, "Şəfəq" və "Asiman" perspektiv strukturları 1961-ci ildə aparılmış seysmik kəşfiyyat işləri zamanı aşkar olunub. Əvvəllər D8 və D10 adlandırılan bu sahələr Bakı şəhərindən 125 kilometr cənub-şərqdə yerləşir. Strukturun ümumi sahəsi 1100 kvadratkilometrdir. Burada dənizin dərinliyi 650 metrdən 800 metrə çatır. Strukturun ərazisində kollektorun dərinliyi isə, təxminən, 7 min metr təşkil edir.

Qeyd edək ki, "Şəfəq-Asiman" perspektiv strukturunda kəşfiyyat işləri SOCAR və layihənin operatoru olan BP şirkətlərinin birgə layihəsi çərçivəsində həyata keçirilir.

# Kiçik sahibkarlıq Böyük qayıdışda fəal iştirak edir

**2024-cü ildə Azərbaycanın işğaldan azad edilmiş ərazilərində 9 yeni iri sahibkarlıq subyekti yaradılıb. Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb.**

Bildirilib ki, ötən ilin sonuna ölkə üzrə fəaliyyət göstərən 212 min 705 kommersiya təşkilatlarının 868-si və ya 0,4 faizi iri sahibkarlıq subyeki olub. Bu isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 89 vahid və yaxud 11,4 faiz çoxdur. Hesabat dövrünə iri sahibkarlıq subyektlərinin 76,5 faizi və yaxud 664-ü Bakıda fəaliyyət göstərib ki, bu da illik müqayisədə 7,8 faiz çoxdur. Bununla yanaşı, ötən ilin sonuna Qarabağ iqtisadi rayonunda 11, Şərqi Zəngəzur iqtisadi rayonunda isə 5 iri sahibkarlıq subyekti mövcud olub.



Bütövlükdə isə, ötən il Azərbaycanın işğaldan azad edilmiş ərazilərində 23 yeni kiçik sahibkarlıq subyekti yaradılıb ki, bu da 2023-cü illə müayisədə 35,3 faiz çoxdur. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2024-cü ilin sonuna ölkə üzrə fəaliyyət göstərən 212 min 705 kommersiya təşkilatlarının 12 min 26-sı və ya 5,7 faizi kiçik sahibkarlıq subyekti olub. Bu isə əvvəlki ilin sonuna nisbətən 2 min 317 vahid və yaxud 23,9 faiz çoxdur.

Hesabat tarixinə kiçik sahibkarlıq subyektlərinin 73 faizi və yaxud 8 min 782-si Bakıda fəaliyyət göstərib. Bu da illik müqayisədə 29,4 faiz çoxdur. Bundan başqa, Qarabağ iqtisadi rayonunda 197 (8,2 faiz çox), Şərqi Zəngəzur iqtisadi rayonunda isə 51 (15,9 faiz çox) kiçik sahibkarlıq subyekti olub. Ümumilikdə isə, ötən il işğaldan azad olunmuş ərazilərdə yeni kiçik sahibkarlıq subyektlərinin sayı 35 faiz artıb.

# İlk ayda Çinlə ticarət 73 faiz çoxalıb

**2025-ci ilin yanvar ayında Azərbaycanla Çin arasında ticarət əməliyyatlarının həcmi 379,5 milyon ABŞ dolları təşkil edib. Bu isə əvvəlki ilin eyni dövrü ilə müqayisədə 160,3 milyon dollar və ya 73,1 faiz çoxdur.**

Dövlət Gömrük Komitəsinin məlumatına görə, hesabat dövründə Çin ilə idxal-ixrac əməliyyatları Azərbaycanın ümumi ticarət dövriyyəsinin 7,46 faizini təşkil edib. Cari ilin ilk ayında ölkəmiz Çinə 1,1 milyon dollar dəyərində məhsul ixrac edib ki, bu da ötən ilin eyni dövründəki göstəriciyə nisbətən 269 min dollar və ya 19,5 faiz azdır. Ümumilikdə isə, Çin ilə ixrac əməliyyatları ölkənin ümumi ixracının 0,04 faizini təşkil edib.

Bununla yanaşı, hesabat dövründə Azərbaycanın ən çox məhsul idxal etdiyi ölkə Çin olub. Belə ki, Uzaq Şərqdəki ticarət tərəfdaşımızdan aldığımız məhsullar 2024-cü ilin ilk ayı ilə müqayisədə 160,6 milyon dollar və ya 73,7 faiz artaraq 378,4 milyon dollara çatıb. Bu ilin yanvar ayında Çin ilə idxal əməliyyatları ölkənin ümumi idxalının 18,44 faizini təşkil edib.

Yeri gəlmişkən, ötən ay Azərbaycanın xarici ticarət dövriyyəsinin həcmi 5,9 milyard ABŞ dolları təşkil edib ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,1 milyard dollar və ya 70,5 faiz çoxdur. Yanvar ayında ticarət dövriyyəsinin 3,4 milyard dolları ixracın, 2,5 milyard dolları isə idxalın payın düşüb. Bu isə illik müqayisədə müvafiq olaraq 1,2 milyard dollar və ya 64,8 faiz və 910 milyon dollar və ya 79,7 faiz çoxdur. Onu da qeyd edək ki, cari ilin yanvar ayında Azərbaycanın xarici ticarət dövriyyəsində 986 milyon dollarlıq müsbət saldo yaranıb. Bu sahədə əvvəlki ilin eyni dövrünə nisbətən 285 milyon dollar və ya 40,7 faizlik artım qeydə alınıb.



# Bülbülə gölü çirkabdan təmizlənir



**Bakıda yeni bulvar salınacaq. Bu barədə Bakı Abadlıq Xidməti məlumat yayıb. Bildirilib ki, uzun illər ətrafdakı qəsəbələrin tullantı və çirkab sularının axıdıldığı Bülbülə gölü tezliklə təmiz, abad və göz oxşayan istirahət məkanına çevriləcək.**

Xatırladaq ki, ümumi sahəsi 99 hektar olan Bülbülə gölündə suyun real dərinliyi 2,50-2,80 metrdir. Gölün ətrafında yaşayış evləri var. Bəzi evlərlə göl arasındakı məsafə 10 metrdən də yaxındır. Artıq gölün ətrafındakı qamışlıq tamamilə qurudulub, tullantılar təmizlənib. Gölə axıdılan çirkab suların qarşısını kəsmək üçün ətrafda minlik magistral xətt çəkilib.

Bakı Abadlıq Xidmətinin məlumatına əsasən, Bülbülə gölündə layihələndirmə işləri başa çatdırılıb. Növbəti mərhələdə sahil boyunca asfalt salınacaq. Yeni bulvarda restoran və kafelərin fəaliyyət göstərməsi, dairəvi velosiped yolunun çəkilməsi nəzərdə tutulub. Bulvarda uşaqlar üçün meydança, yaşıllıqlar, istirahət yerləri olacaq, katamaran işləyəcək. Layihəyə əsasən Bülbülə gölünün üzərindən körpü də salınacaq.

Qeyd edək ki, Əmircan, Bülbülə, Bakıxanov və Qaraçuxur qəsəbələrindən gündəlik 25 min kubmetr çirkab sularının axıdılması nəticəsində göldə və ətraf ərazidə xoşagəlməz vəziyyət yaranmışdı.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

**Azərbaycanın zəfərini bizlərə yaşadan cəsur hərbçilərimiz haqda nə qədər yazsaq, onların misilsiz xidmətlərinin yanında yenə də azdır, yetərsizdir. Hər şəhid valideynləri ilə görüşəndə, həmsöhbət olanda, onların təskinlik üçün, ruhlarını isidəcək söz axtarır, aciz qalıram. Amma şəhid ailələrinin də, elə bizim hamımızın da bir təsəllisi var ki, bu qəhrəmanlar canlarını Vətən yolunda qurban veriblər və Böyük Qələbə qazanmışıq. Elə Yevlax rayonunun igid övladları və 1-2 gün fərqlə fevral doğumlu olan şəhidlər – Nicat Nağıyev, Xəqani Cəmilli, Veyis İsmayılov və Cavid Kərimov haqqında yazılarıma da bu hisslərlə başladım...**

# Şəhidlik ölmək deyil!

**Raisə ana deyir ki, hər gün arzulayıram, qapını açım, 25 yaşlı çinar boylu oğlum içəri girsin, "Ana" deyib, boynuma sarılsın. Bu sözlərin qarşısında hansı sözü tapım? Ona necə təskinlik verim?**

Nicat Azad oğlu Nağıyevin atası Vətən müharibəsindən 1 il əvvəl yol qəzasında dünyasını dəyişmişdi, ana 2 oğul övladıyla qalmışdı. Ailənin göz yaşı hələ qurumamışdı. Müharibə başlananda isə Nicat könüllü cəbhəyə qoşulmaq istədi, lakin qardaşı Rəşad xəstə olduğuna görə onu geri qaytardılar. Amma o, Vətəni ailəsindən daha üstün tutdu və təkidlə döyüşlərə atıldı.

Nicat 1995-ci il fevralın 21-də Yevlax rayonunun Əcəmi kəndində anadan olub. Təhsilini Əcəmi kənd orta məkəbində alıb. 2013-cü ildə hərbi xidmətə çağırılıb. Füzuli rayonundakı "N" hərbi hissəsində xidmətdə ikən baş atıcılıq kursunu tərifnamə ilə başa vurduqdan üç ay sonra Cəbrayılın Cocuq Mərcanlı kəndində hərbi xidmətinə davam edib. Hərbi xidmətdən qayıdan Nicat kənddə təsərrüfat işləri ilə məşğul olub.

2020-ci il sentyabrın 21-də qismən səfərbərliyə qoşulan Nicat tez-tez ailəsi ilə əlaqə saxlasa da, anasına bildirmirdi yerini. Böyük ruh yüksəkliyi ilə deyirdi ki, məndən narahat olmayın, yaxşıyam, hər şey çox gözəl olacaq, tezliklə torpaqlarımızı düşmənlərdən təmizləyəcəyik. Ali Baş Komandanın dediyi kimi: onları "iti qovan kimi qovacağıq", inşallah!

Nicat ilk günlərdə Murovdağda, daha sonra isə Tərtər və Talış istiqamətlərində gedən qızğın döyüşlərdə vuruşub. Döyüş yoldaşları danışırlar ki, Nicat həmişə savaşın ən qaynar nöqtələrində olurdu. Murovdağda döyüş yoldaşları ilə mühasirəyə də düşüblər. Dörd gün çəkən şiddətli vuruşmalardan sonra yüksəklikdən dərə yamacına tullanıb, yarğan boyunca döyüşərək mühasirəni yara biliblər. O, böyük qəhrəmalıqla, cəngavər kimi vuruşurdu.

Nicat snayperçi olub. Döyüş vaxtı onu ehtiyac olan hər yerə göndərirdilər və həmişə də sərrast atəşləri ilə düşmənlərini diz çökdürür, yerə sərirdi. Suqovuşan istiqamətində əməliyyat üzrə tapşırıqları yerinə yetirən bir neçə döyüş yoldaşı ilə qəhrəmancasına şəhid olur, əbədiyyətə qovuşur Nicat...

Şəhadətindən iki gün qabaq - oktyabrın 14-də qardaşı Rəşadla danışıb, sonra da anasına zəng vurub. Deyib ki, yaxşıyam, siz özünüzdən muğayat olun. Qismət olsa, görüşərik. Salamat qalın... Təəssüf ki, 16 oktyabr 2020-ci il tarixində bu ailə ocağının odu sönüb, tüstüsü göz acıdıb. Nicat Azad oğlunun əbədi baş qoyduğu torpaq kənddə atasının yanındadır.



Bir təsəlli də budur ki, dörd ay sonra - 17 fevral 2021-ci ildə şəhidimizin dünyaya gələn qardaşı oğlunun adını Nicat qoyublar ki, xatirəsi əbədiyaşar olsun.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sərəncamı ilə Nicat Azad oğlu Nağıyev ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub.

# Şuşa istiqamətində son döyüş

**Məndən olsa, Vətən müharibəmizin qəhrəmanlarının adını "Sevdalılar" qoyardım. Döyüşçülər sevdalıydı Şuşaya, vurğunuydu silaha, təşnə idi Vətənə. Sevdalısına qovuşarcasına gedirdilər ölümə, Xəqani Cəmilli kimi.**

O, 22 fevral 1995-ci ildə Yevlax rayonunun Varvara kəndində anadan olmuşdu. Ailədə 3 qardaş idilər - Xəqani, Məmmədyar və Xətai. Atası Mənsur Cəmilli deyir ki, balalarımın gözü idi Xəqani. Bacarıqlı, qeyrətli uşaq idi, böyüyə sayğılı, kiçiyə mərhəmətli, çox nəzakətli və diqqətcil idi.

Gədəbəy rayonundakı "N" saylı hərbi hissədə həqiqi hərbi xidmət zamanı ön cəhbədə düşmən postu ilə üzbəüz olub təcrübə qazanmışdı. Döyüşdə və ictimai-siyasi hazırlıqda əldə etdiyi yüksək nailiyyətlərinə görə Müdafiə Nazirliyi tərəfindən fəxri fərmana layiq görülmüşdü. Hərbi xidmətdə olarkən çəkdirdyi şəklin altında "Orduda xidmət etmək ən şərəfli vəzifədir" sözlərini yazmışdı.

Hərbi sahəyə marağı və sevgisi böyük olduğuna görə, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində fəaliyyət göstərən motoatıcı taqım komandirinin müavini kursunu bitirir. 2016-cı il dekabrın 16-dan Ağcabədi rayonunda yerləşən hərbi hissədə gizir kimi xidmətə başlayır və bir neçə aydan sonra Füzuli rayonunda yerləşən hərbi hissədə xidmətini davam etdirir.

Müharibə başlananda Xəqani hünər üçün meydan açıldığını görərək sevinib. Döyüşlə-



rin qızğın çağlarında imkan tapan kimi valideynləri ilə danışar, vəziyyətin əla olduğunu, tezliklə qələbə çalacaqlarını söyləyərmiş. Xəqani taqım komandirinin müavini idi, oktyabrın 1-də Füzulinin azadlığı uğrunda döyüşlər zamanı 25 nəfər əsgərlə əmr aldığı istiqamətdə döyüşür, sanki bir qartal kimi qıy vururdu.

Birdən qarşı tərəfin minamyot atəşinə məruz qalır, neçə-neçə döyüşçü ilə bərabər Xəqani də qəhrəmanlıqla şəhid olur. Xəbəri eşidən atası güclü stress keçirir və keçici olaraq danışıq qabiliyyətini itirir, elə o vəziyyətdə də Füzuliyə, düz oğlunun döyüşdüyü bölgəyə yollanır. Xəqaninin sağ qalan cəbhə yoldaşları onun qisasını necə aldıqlarını, Füzulini necə xilas etdiklərini söyləyib, ataya təskinlik verirlər. Oktyabrın 4-də şəhidin nəşi doğma kəndinə gətirilir, ailəsinin istəyi ilə cəsur döyüşçü Xəqani doğma Varvara kəndinin qəbristanlığında canından çox sevdiyi torpağa tapşırılır.

O, qısa ömrünü yaşadığı kənddə hər gün, hər saat xatırlanır. Çünki burada qəhrəman Vətən oğlunun adına küçə verilib, Füzuli rayonunda xidmət etdiyi hərbi hissədə isə adına bulaq çəkilib.

Atası deyir ki, Şuşa Xəqani həlak olan vaxt hələ azad edilməmişdi, amma onun son döyüşü Füzuli-Xocavənd-Suşa istiqamətində getdiyi üçün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sərəncamı ilə Xəqani "3-cü dərəcəli Vətənə xidmətə görə" ordeni, "Cəsur döyüşçü", "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə bərabər, "Şuşanın azad olunmasına görə" medalı ilə də təltif olunub.

# Əflatun kişinin igid sonbeşiyi

**Onların həyatı əvvəldən ağır, qarğaşalı olub. Əflatun və Zeynəb İsmayılovlara çətin həyat şərtlərinə sinə gərərək, ləyaqətlə, halallıqla yaşamaq üçün bir-birinə olan sayğıları güc verib.**

Yevlax şəhərində anadan olan övladlarının dünyaya gəlişi maddi durumu çətin olan cütlük üçün yeni problem və qayğılar yaratsa da, heç biri şikayətlənmədi. Kiçik yaşlarından evin iki oğlu – Hüseyn və Veyis də ailəyə kömək etmək üçün fərdi təsərrüfatlarda gücləri çatan işlərdə çalışıb, çöllərdə qoyun-quzu, mal-qara otarıblar.

Hüseyn deyir ki, iki qardaş kiçik yaşlarımızdan çiyin-çiyinə verdik, hər şeyimizi paylaşdıq. Veyisin şəhid olması, ayrılığı məni, bəlkə də, valideynlərimdən daha artıq



yandırır. O, mənim arxamdı, köməyimdi, idealımdı, məsləhət yerim idi...

Veyis Əflatun oğlu İsmayılov 1996-cı il fevralın 23-də, soyuq bir qış günü anadan olmuşdu. Tam orta təhsil ala bilməsə də, həyat dərsini mükəmməl ala bilmişdi. Müharibə başlananda könüllü olaraq cəbhəyə yollanan Veyis döyüşlərə manqa komandiri kimi qatılmışdı. Təkcə özünə cavabdeh deyildi, əsgərlərinin də qayğısına qalmaq öhdəliyi vardı.

Müharibənin ilk günlərindən erməni faşistlərinə qarşı haqlı mübarizəmizə qoşulan Veyis imkan tapanda valideynlərilə, qardaşı Hüseynlə telefonla nikbin əhval-ruhiyyədə danışar, özünüzdən muğayat olun, çox yaxında görüşərik deyirmiş. Bir gün sorağını Tərtərdən alırlar. Düşmənin bu istiqamətdə atəşləri ara vermirdi. Hər tərəfdə dağıntı, yaralananlar, həyatını itirənlər vardı. Amma Veyis kimi oğullarımız düşməni susdurub geri çəkilməyə məcbur etmişdilər. Sonra Ağdərə uğrunda qızğın döyüşlərdə iştirak edir Veyis. Ağdərə alınanda sevincinin həddi-hüdudu yoxmuş. Suqovuşan uğrunda gedən gərgin döyüşlərdə o, ayağından yaralanır. Yarası ölümcül deyildi, amma vaxtında qanaxmanın



qarşısının alınması lazımdı. Veyis isə buna əhəmiyyət vermir, yaralı və şəhid yoldaşlarını döyüş meydanından çıxarmağa çalışır. Yarasından güclü qan axması onu taqətdən salsa da, xilasetmə işinə ara vermir. Lakin özünü xilas etmək mümkün olmur. 2020-ci il oktyabrın 14-ü Veyisin həyata vida tarixi olur.

Ağır itkini Zeynəb xanım çox çətin keçirir, təsəlli tapa bilmir. Bakıda kirayə qaldıqları otaqlardan birini şəhid üçün ayırıblar. Bu otaqda nə varsa, Veyisə aiddir. Sevdiyi üçrəngli bayraq, geyimlər, digər şəxsi əşyalar və gülümsər çöhrəsinin əbədiləşdiyi şəkillər.

Şəhidin məzarı ailənin istəyi ilə paytaxtın Bakıxanov qəsəbəsindəki Şəhidlər xiyabanında ziyarət məkanına dönüb. Qonum-qonşu, tanış-biliş həmişə Veyisi Əflatun kişinin kiçik oğlu kimi tanıyıb, indisə onu Qarabağın könlündən keçən qəhrəman oğlu kimi tanıyırlar.

Veyis Əflatun oğlu İsmayılov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub.

**Milli Qəhrəman Tahir Həsənov – 55**

# Həmişəcavan qəhrəman

## *O tarixçi olmadı, tarixə qovuşdu*

**Hər səhər işə gələndə redaksiyamızın yaxınlığındakı 23 nömrəli məktəbin divarındakı lövhədə bu təhsil ocağının Milli Qəhrəman Tahir Həsənovun adını daşıdığını bildirən lövhəyə baxıram. O, orta təhsilini bu məktəbdə alıb, buradan gələcək arzularına doğru pərvazlanıb.**



Tahir Tofiq oğlu Həsənov 1970-ci ilin fevral ayının 22-də Bakıda doğulub, orta məktəbi bitirdikdən sonra Moskvada Sovet Ordusunun desant diviziyası sıralarında hərbi xidmətdə olub. 1990-cı ildə, onun təxris edilməsinə bir neçə ay qalmış elə həmin ordunun qoşun hissələri Bakıya yeridilərək azadlıq mücahidlərini qanlarına qəltan ediblər. Buna görə Tahirin qəzəbindən dişi bağırsağını kəssə də, heç nə edə bilməyib. Gücü ona çatıb ki, nifrətini qazanan orduda əsgərliyini başa vuran kimi Bakıya qayıdaraq, ilk növbədə, Şəhidlər xiyabanını ziyarət edib və ağlayıb. Bəlkə də, həmin anlarda Tahir tarixçi olmağı, millətin başına gətirilənləri araşdırmağı qərara alıb və universitetin tarix fakültəsinə qəbul edilib.

Amma tale elə gətirib ki, gələcək tarixçi öz qanı ilə tarix yazmalı olub. Ailənin yeganə övladı olmasına baxmayaraq, torpaqlarımızın



bir hissəsinin erməni qəsbkarları tərəfindən işğal edilməsi, soydaşlarımızın öz dədə-baba yurdlarından qovulması səbəbilə Tahir Həsənov universitetin 2-ci kursundan könüllü olaraq Vətənin müdafiəsinə qalxan igidlərin sırasına qoşulub.

Buradaca qeyd edək ki, Tahirin atası Tofiq kişi də onunla bərabər Qarabağ uğrunda gedən döyüşlərdə iştirak edib. Elə balasının igidliklə həlak olması xəbərinə görə hadisə yerinə ilk olaraq Tofiq Həsənov şığıyıb... Buna qədər isə yüksək fiziki hazırlıqlı, qorxmaz desantçı kimi tanınan Tahir kəşfiyyat qrupunun komandiri olub, silahdaşlaına hər cəhətdən nümunə göstərib. Cəsur komandir Yuxarı Qarabağda, Ağdərə, Başkənd, Meşəli əməliyyatlarında torpaqlarımızın müdafiəsində fəal iştirak edərək, mərdliklə vuruşub.

1992-ci il sentyabrın 2-si Ağdərənin Çıldıran kəndi uğrunda gedən döyüş əməliyyatları başlayır. Atışma 2 istiqamətdən aparılır. Düşmən daha yüksək mövqedə qərar tutduğundan hər tərəfi nəzarətdə saxlaya bilirdi. Kəndə girmək mümkün olmur. Tahir 10 nəfər döyüşçüsü ilə başqa istiqamətdən hücuma keçən zaman elə olur ki, onun dəstəsi qan uddurduğu düşmənin mühasirəsinə düşür. Tahir yoldaşlarına deyir ki, siz gedin, mən sizi qoruyacam. Qeyri-bərabər döyüşdə ağır yaralansa da, təslim olmur və tank əleyhinə qumbara ilə özünü partladaraq onu ölmüş bilib ətrafına toplaşan 41 ermənini də cəhənnəmə vasil edir...

Atası Tofiq Həsənov Tahirin nəşini götürəndə ətrafında, həqiqətən də, çoxsaylı erməni əsgərinin meyiti olduğunu görüb. Həm göz yaşını axıdıb, həm də igid balası ilə qürur duyub. Tahir Bakıda, Şəhidlər Xiyabanında dəfn edilib. Ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adna layiq görülüb. 1993-cü ildə Nazirlər Kabinetinin qərarı ilə Bakı şəhəri 23 nömrəli tam orta məktəbə, eləcə də Xəzərdə üzən bir gəmiyə onun adı verilib. 1994-cü il sentyabrın 4-də isə ümummilli lider Heydər Əliyev həmin məktəbdə qəhrəmanın şərəfinə qoyulmuş xatirə lövhəsinin açılışında iştirak edib.

2017-ci ildə qəhrəmanın haqqında "Vətən övladı" adlı sənədli film çəkilib. Daha 2 il sonra məktəblilər arasında onun xatirəsinə həsr olunmuş taekvondo üzrə açıq turnir keçirilib. Bir neçə gün əvvəl isə 23 nömrəli tam orta məktəbdə Milli Qəhrəmanın 55 illik yubileyinə həsr edilmiş hərbi idman oyunları üzrə şagirdlərin yarışı təşkil olunub. Onun anası Qalibə Budaqova ailə qurmağa imkan tapmamış subay balasının qalib və qəhrəman bir oğul kimi böyütməsi ilə fəxr etdiyini bildirib.

Sonda xatırladaq ki, fevralın 22-si Tahirlə bərabər, daha 2 Milli Qəhrəmanın – Ağdam könüllüsü Rövşən Hüseynov və Füzulidən olan polis nəfəri Faiq Rəfiyevin də doğum günüdür. Hər birinə Allah rəhmət eləsin!

***Ə.DOSTƏLİ***
***XQ***

# Yüksələn bayraq oldun...

**Cahanşümul Qələbəmizlə dünyaya səs salan 44 günlük Vətən müharibəsi zamanı misilsiz qəhrəmanlıq və şücaət göstərməklə Şəhidlik zirvəsinə yüksəlmiş daha bir həmyerlim Cavid Mərdan oğlu Kərimovdur.**

Cavid 23 fevral 1999-cu ildə axarlı-baxarlı Əlican çayının ləpədöyənində qərar tutmuş Aşağı Bucaq kəndində doğulub. Qayğısız uşaqlıq və yarımçıq gənclik illəri kənddə keçən Cavid Xaldan kənd kompleks tam orta məktəbi bitirdikdən sonra həqiqi hərbi xidmətə çağırılanadək müxtəlif peşə-sənətə sahiblənmişdi. Kənddə həmişə yaşca özündən böyüklərlə oturub-durar, dostluq edər, hamıya qarşı mehribanlığı və əlindən gələn yaxşılığı göstərməklə fərqlənərdi. Suvaqçı, tənəkəçi, bənna kimi gözəl əl qabiliyyəti vardı. Onun sənətkar əllərinin izi, qəlbinin hərarəti işlətdiyi əmək alətlərinin, həyətlərində tikdiyi, qurduğu, dəmirdən hazırladığı məişət əşyalarının, mişar daşı ilə hördüyü barıların üzərində qalmaqdadır.

Mərdan kişi ilə Alidə xanım Cavidin vətənpərvərliyindən də sonsuz qürur hissi ilə danışırlar. Xüsusilə həqiqi hərbi xidmətini başa vurub qayıtdıqdan sonra tamamilə dəyişdiyini, çox qayğılı göründüyünü dedilər. Bakı şəhərində mühafizəçi kimi işə düzəlsə də könüllü olaraq yenidən Milli Ordumuzun sıralarında müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olmağı üstün tutdu. Hərbi hissədə təcrübəli və peşəkar döyüşçü kimi hücum batalyonunun tərkibində Vətənə xidmətini davam etdirdi.

Müharibə başlanandan cəmi 4 gün keçmiş - oktyabrın 1-də 21 yaşında ikən Cavid Vətənə sevgisini sübut etmək üçün cəbhəyə yollanıb. Düşmən əsarətində qalan doğma torpaqlarımızın azadlığı uğrunda çarpışaraq, Ballıqaya ətrafında gedən döyüşlərə atılaraq, düşmənin xeyli canlı qüvvəsini və hərbi texnikasını məhv edib və qəhrəmanlıqla həlak olub.

Cavidin mübarək nəşi Yevlaxdakı Şəhidlər xiyabanında torpağa tapşırıldı. Pandemiya dövrü olduğu üçün, qaydalara uyğun olaraq, karantin rejimi gözlənilməklə şəhər icra hakimiyyəti rəhbərliyinin, dövlət rəsmilərinin, ictimaiyyət nümayəndələrinin iştirakı ilə Cavid də ana qədər sevdiyi müqəddəs Vətənin qucağına sığındı...



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sərəncamı ilə Kərimov Cavid Mərdan oğlu ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

Söhbətimiz zamanı cümlələrinin əvvəlində və axırında "Təki Vətən sağ olsun!" ifadəsini işlədən Mərdan kişi və Alidə xanım Azərbaycan xalqına, böyük Türk Dünyasına başucalığı gətirən cənab İlham Əliyevə şəhid ailələrinə, qazi və muharibə veteranlarına göstərdiyi yüksək diqqət və qayğıya görə qəzet vasitəsilə dərin minnətdarlıqlarını çatdırmağı xahiş etdilər. Onu da dedilər ki, rayon rəhbərliyi, yerli özünüidarəetmə orqanlarının təmsilçiləri, Milli Məclisin deputatları Əli Hüseynli və İlham Məmmədov da müntəzəm olaraq biz şəhid ailələri ilə maraqlanır, köməkliyini əsirgəmirlər.

***Əminə YUSİFQIZI,***
***Əməkdar jurnalist***

İzimiz, tariximiz...

I YAZI

# Moğol imperatoru Humayun və xanımı Həmidə Banu bəyim

Həmidə Banu bəyim moğol imperatoru Nəsrəddin Məhəmməd Humayunun ikinci xanımı (bəzi mənbələrdə dördüncü) və onun varisi üçüncü moğol imperatoru Əkbərin anası idi. Oğlu Əkbər şahın hakimiyyəti illərində imperator ona “Məryəm Məkani” titulu verib ki, bu da "Yaşayan Məryəm" deməkdir. Əkbər şahın hakimiyyəti illərində anası Həmidə Banu bəyimə “Padişah bəyim” titulu da verilmişdi. Həmidə Banu bəyim Ərdəbildən Hindistana gələn Şeyx Əli Əkbər Caminin və Əfruz bəyimin ailəsində 1527-ci il avqustun 29-da anadan olub.

Həmidə Banu bəyimin atası Şeyx Əli Əkbər Cami Böyük Moğol İmperiyasını yaradan imperator Zəhirəddin Məhəmməd Baburun kiçik oğlu, moğol şahzadəsi Hindal Mirzənin tərbiyəçisi olub.

Humayunun birinci və baş hərəmi Yadigar Mirzə Taqayın qızı Sahibə bəyim (Hacı bəyim) olub. Bu qadından şahzadə Alaman Mirzə adlı uşaq doğulub, körpə ikən ölüb. Bundan sonra imperator səkkiz dəfə evlənib. İmperator Humayunun bu evliliklərdən dörd oğlu, səkkiz qızı olub. Uşaqların bir neçəsi körpə ikən dünyasını dəyişib.

Humayun 1508-ci il martın 6-da Kabildə anadan olub. Humayun Böyük Moğol İmperiyasının birinci imperatoru Zəhirəddin Məhəmməd Baburun oğlu, üçüncü imperator Əkbərin atası idi.

***

Babur şahın arvadı, Humayunun ögey anası Dildar bəyim tez-tez sarayda ziyafətlər verərdi. Dildar bəyimin oğlu Hindal Mirzə və digər gənclər bu ziyafətlərdə iştirak edirdilər. Şahzadə Humayunla on dörd yaşlı Həmidə Banu bəyim bu ziyafətlərdə tanış olublar.

Humayunun Həmidə Banu bəyimlə evlənməsi məsələsi ortaya çıxanda həm Dildar bəyim, həm də Hindal Mirzə əvvəl buna etiraz ediblər, evlilik reallaşanda isə razı olmağa məcbur qalıblar. Həmidə şahzadə Humayunla görüşməkdən imtina edib evliliyə razı olmasa da sonra onun səmimiliyinə inanır. Dildar bəyim qırx gün qızı öyrənəndən sonra və onun razılığı ilə şahzadə Humayunun Həmidə Banu bəyimlə evlənməsinə razı olur. Onların toyu olanda Humayunun 33, Həmidə Banu bəyimin 14 yaşı vardı. Sahibə bəyim Humayunun birinci arvadı olsa da, faktiki olaraq, baş hərəm rolu Həmidə Banu bəyimə məxsus idi. Humayun bütün məsələlərdə onunla məsləhətləşir, birgə qərarlar qəbul edirdilər. Onların 14 illik evliliyi ərzində Həmidə Banu bəyim həm də imperatorun yaxın dostu və sirdaşı olub. Həmidə bütün səfərlərdə Humayunu müşayiət edib.


İmperator Humayun


Həmidə Banu Bəyim

## Humayun taxta çıxır

1530-cu ildə Zəhirəddin Məhəmməd Babur rəhmətə getdikdən sonra həmin il dekabrın 26-da hakimiyyət şahzadə Humayuna keçir. Əfqanlar və racputlar Baburun ölümündən istifadə edərək onun tutduğu torpaqları geri almaq üçün hərəkətə keçirlər. Qucarat sultanı Bahadur şah açıq şəkildə gənc imperatorun mülklərinə iddia irəli sürür və 1531-ci ildə Malavanı ələ keçirir. 1535-ci ildə Humayunun qoşunları Qucaratı tutur, müharibə iki il sonra Bahadur şahın ölümü ilə başa çatır.

Bu vaxt Baburun keçmiş hərbi komandiri, Buxara hökmdarı Şer Xan Suri Humayuna qarşı çıxırdı. Humayun əvvəllər onu 1531-ci ildə Çünarın mühasirəsində məğlub etmişdi, lakin zaman keçdikcə Şer Xan Suri Moğal sülaləsinin hakimiyyətindən narazı qalan puştun əfqan tayfalarını öz ətrafına toplayır və onların köməyi ilə 1538-ci ilə qədər Benqal üzərində nəzarəti ələ keçirir.

Nəsrəddin Məhəmməd Humayunun ömrü 1540-cı il mayın 17-dək, Şer Xan Surinin köməyi ilə qardaşı Kamran Mirzənin ondan hakimiyyəti alan gündədək müharibələrdə keçib, atasından miras qalan torpaqları qorumaq və növbəti imperatora ötürmək onun əsas vəzifəsi idi.

1539-cu il iyunun 27-də Çausa və 1540-cı ilin yazında Kanaujdakı məğlubiyyətlərdən sonra Dehli və Aqradan ayrılan Humayun Hindistan mülklərini qardaşı Kamrana vermək məcburiyyətində qalır. Humayun 1540-cı il mayın 17-də Kannauj döyüşünü uduzur və xilas olmaq üçün əvvəlcə Lahora, sonra Marvarda, daha sonra isə taxtını bərpa etmək ümidi ilə Kabil və Qəndəhara gedir. Lakin taxt üstündə qardaşlar arasındakı gərginlik buna mane olur.


İmperator Humayunun məqbərəsi

1542-ci il avqustun 22-də İmperator Humayun və Həmidə Banu bəyim Umarkot şəhərinə gedirlər. İki ay sonra 1542-ci il oktyabrın 15-də səhər tezdən Umarkot qalasında Həmidə Banu bəyim gələcək imperator Əkbəri dünyaya gətirir.

Humayun Lahorda yuxuda ona deyilən adı oğluna qoyur: Cəlaləddin Məhəmməd Əkbər.

## Səfəvilər dövlətindən kömək

Humayun və Həmidə Banu bəyim 14 aylıq körpə Əkbəri Qəndəhar yaxınlığındakı düşərgədə Humayunun qardaşı Əskər Mirzənin yanına aparır. Əskər Mirzə öz arvadına uşağa yaxşı baxmağı tapşırır.


Humayun dövründə kəsilən sikkə

Humayun və Həmidə Banu bəyim 40 kişi ilə yola çıxırlar.

Humayun Təbrizdə yaxşı qarşılanır, Səfəvi şahı I Təhmasib Humayunla əziz qonağı kimi görüşür, onu imperator kimi qəbul edir, qonaqların şərəfinə ziyafət verir.

Humayun Səfəvi şahı I Təhmasibin dəstəyini alır, Təhmasib ona lazimi qədər ordu verəcəyini bildirir və bunun müqabilində Humayun şiəliyi qəbul edir. Təhmasibın tək xahişi bu olur ki, Humayunun qüvvələri qalib gəlsə Qəndəhar onun olacaq.

Onlar təxminən 12 il Səfəvilər Dövlətində qalırlar. Humayun Həmidə Banu bəyimlə birlikdə Ərdəbilə gedir, Şah İsmayıl Səfəvinin ulu babası, Səfəviyyə təriqətinin banisi Şeyx Səfiəddin Ərdəbilinin türbəsini, Banu bəyimin Ərdəbildəki ulu babası Əhməd Caminin və digər şiə müqəddəslərinin məzarlarını ziyarət edir. Səfəvilər dövlətində olduğu müddətdə Humayun Həmidə Banu bəyimlə Təbriz və Ərdəbildən başqa Urmiya, İsfahan və digər şəhərləri də gəzir, Azərbaycan ədəbiyyatı, musiqisi, mədəniyyəti ilə yaxından tanış olmaq imkanı qazanır, Səfəvi memarlığına heyran qalır, xəttat və nəqqaşların, miniatür sənəti ustalarının, rəssamların əsərləri ilə maraqlanır, bu sənətkarların bəziləri ilə tanış olur. Azərbaycanda hansı şəhərə gedirsə hörmətlə qarşılanır. Miniatür rəssamı Mir Seyid Əli Təbrizi, memar Ağa Mirək Mirzə Qiyasi və digər sənətkarları Moğollar İmperiyasına dəvət edir. Burada olarkən Teymurilərdən Sultan Hüseyn Bayqara və onun əcdadı şahzadə Qauhar Şadın əl işlərini öz gözləri ilə görür.


İsfahanda Şah Təhmasib (sağda) və imperator Humayunun (solda) görüşü

“1555-ci ilin iyulunda Şah I Təhmasib Azərbaycan türklərindən 12 minlik Qızılbaş ordusunu Budaq bəy Qacar və Şahverdi bəy Ustaclının başçılığı ilə onun (Humayunun) ixtiyarına verib Hindistana yola salır” (Oqtay Əfəndiyev “Azərbaycan Səfəvilər dövləti”, Bakı, 1993, s.95).

Yolda ikən Humayun eşidir ki, Şer Xan Suri Kələncər qalasının mühasirəsi zamanı döyüş sursatının partlaması nəticəsində ölüb və bu onu daha da cəsarətləndirir, axı Humayunun hakimiyyəti itirməsində Şer Xan Surinin böyük rolu olmuşdu.

Qəndəharda Humayun Dildar bəyim və oğlu Hindal Mirzə ilə görüşür. Heratdan 93 mil cənubda yerləşən Səbzavar düşərgəsində Həmidə Banu bəyim sonradan ölən iki qız uşağı dünyaya gətirir.

Humayun və Həmidə Banu bəyim Əkbəri yenidən görür. Bir qrup qadının arasında gənc Əkbərin anasını tanıması səhnəsi Əkbərin tərcümeyi-halında – “Əkbərnamə”də geniş təsvir edilib.

## Hakimiyyətə qayıdış

Qızılbaşların köməyi ilə Humayun 12 minlik süvari ordu ilə əvvəl Qəndəharı alır, danışıldığı kimi şəhəri I Şah Təhmasibin adamlarına təhvil verir. Təhmasib isə oğlu Muradı Qəndəhara hakim olaraq göndərir, ancaq qısa müddətdən sonra Murad rəhmətə gedir.

Sonra Humayunun qoşunu qardaşı, Moğol hökmdarı Kamran Mirzənin hakim olduğu Kabilə yaxınlaşır. Humayunun qoşunların şəhərə yaxınlaşdıqca Kamran Mirzənin yüzlərlə əsgəri Humayunun əsgərlərinə qoşulur. Kamran Mirzə qaçıb şəhərdən kənarda ordu qurmağa çalışsa da heç nə əldə edə bilmir. Sonra ordu Lahoru ələ keçirir və Surid hökmdarı III İskəndər şahı məğlub edərək Aqra və Dehlini qaytarır.

1555-ci il iyulun 23-də Humayun yenidən Böyük Moğol imperatoru taxtına çıxır. Hümayun hakimiyyətə qayıtdıqdan sonra imperatorluğu sürətlə genişləndirir və oğlu Əkbərə böyük bir miras qoyur. Bununla belə 15 ildən sonra yenidən taxta çıxan Humayunun hakimiyyəti uzun sürmür.


Həmidə Banu Bəyimin imzası


İmperator Humayunun imzası

Humayunun kiçik qardaşı Hindal Mirzə onun uğrunda döyüşərkən həlak olub. Digər qardaşı Əsgər Mirzə Həcc ziyarətinə gedərkən Dəməşqdən kənarda səhrada ölüb. Humayunun digər qardaşı Kamran Mirzə Humayunu öldürməyə dəfələrlə uğursuz cəhd edib. Humayun Kamran Mirzənin xəyanətləri qarşısında onu öldürmək əvəzinə gözlərini kor etdirib və günahlarını yumaq üçün Həcc ziyarətinə göndərib, lakin Kamran Mirzə 1557-ci ildə Ərəbistan yarımadasında Məkkə yaxınlığında vəfat edib.

## Bədbəxt hadisə

Bir çox babaları kimi Humayun da astrologiya və astronomiya ilə məşğul olub. 1556-cı il yanvarın 24-də (bəzi mənbələrdə yanvarın 27-də) kitabxanadan enərkən azan səsl eşidir. Dindar hökmdar diz çökmək istəyir, lakin ayağı paltarının ətəyinə ilişir və pilləkənlərdən aşağı yıxılır, bir neçə gün sonra aldığı kəllə-beyin travmasından 48 yaşında dünyasını dəyişir.

Humayunun həyatını onun bacısı Gülbadam yazıb. Sultan Humayun vəfat etdikdən doqquz il sonra Humayunun arvadı Həmidə Banu bəyimin əmri ilə 1565 ildə Dehlidə Humayun türbəsinin tikilməsinə göstəriş verilir və Humayun türbəsi onun nəvəsi Şah Cahan tərəfindən tikilir və 1572 ildə hazır olur. Abidənin tikintisində Səfəvilər dövlətindən dəvət olunan memar Ağa Mirək Mirzə Qiyasın rəhbərliyi ilə memarlar iştirak edirlər. Bu nadir abidə 1993 ildə UNESCO-nun Ümumdünya irsi siyahısına salınıb.

Humayun şahın ölümü bir müddət gizlədilib, bu vaxt döyüşdə olan 14 yaşlı şahzadə Əkbər 20 gün sonra Dehliyə qayıdıb və atası tərəfindən varis elan edildiyindən heç bir problem olmadan 1556-cı il fevralın 15-də Böyük Moğol İmperiyasının üçüncü imperatoru kimi taxta çıxıb. Həmidə Banu bəyim bu vaxt Kabildə idi, oğlu Əkbər hakimiyyətə çıxdıqdan bir müddət sonra Dehliyə gəlib, idarəçilikdə oğluna dayaq olub, imperator Əkbərin hakimiyyəti illərində dövləti faktiki olaraq Həmidə Banu bəyim idarə edib.

Böyük Moğol İmperiyasının 3-cü padişahı, Baburun nəvəsi Əkbər şah müsəlman ölkələri arasında çadranı qadağan edən ilk hökmdar olub. Baburilərin ən parlaq dövrü Əkbər şahın imperator olduğu dövr sayılır.

Sultan Əkbər şah hakimiyyəti dövründə Moğol İmperiyası güclü bir dövlətə çevrilib, üsyanların qarşısı alınıb.

“İmperatorluğu getdikcə genişləndirən Əkbər şah 1572-1573-cü illərdə Qucarat sultanlığını, 1575-ci ildə Benqalı, 1582-ci ildə Kəşmiri, sonra Dekan vilayətlərini imperatorluğa birləşdirib, Kabili öz hakimiyyətinə daxil edib” (Eynulla Mədətli “Pakistan:qısa tarixi-siyasi oçerklər”, Bakı 2022, səh.53).

1592-ci ildə Sind və 1594-cü ildə Qəndəharda imperiyanın torpaqlarına qatılıb.

Əkbər şah 1603-cü ildə xəstələnib və dili tutulub. Oğlu Cahangir Mirzəni vəliəhd elan edərək 1605-ci ildə ölüb. Ölümündən əvvəl Sikandarada özü üçün tikintisinə başladığı türbədə dəfn olunub. Sonra türbəni oğlu Cahangir şah başa çatdırıb.

Əkbər şah memarlar, alimlər, şairlər, yazarlar və rəssamlarla xüsusi münasibət qurub, onlara hörmətlə yanaşıb. Əkbər şahın dövründə türk memarlığının gözəl nümunələri yaranıb, bu abidələr indi də durur və insanları valeh edir.

Həmidə Banu bəyim Humayunun ölümündən 50 il sonra, oğlu Əkbərin ölümündən cəmi bir il əvvəl 1604-cü il avqustun 29-da Aqrada vəfat edib və Humayun türbəsində dəfn olunub.

*

Həmidə Banu bəyimin həyatı, fəaliyyəti, imperator Nəsrəddin Məhəmməd Humayunla evliliyi, bütün işlərdə onun yanında olması ilə bağlı Hindistanda filmlər və seriallar çəkilib, nəsr əsərləri yazılıb. Filmlərin bir neçəsini xatırlatmağı lazım bildik:

• 1945-ci ildə çəkilən “Himayun” epik filmində Həmidə Banu bəyim rolunu Nərgiz canlandırıb.

• 2008-ci ildə Aşutosh Qovarikerin rejissoru olduğu Hindistan epik filmi “Jodha və Əkbər” filmində Həmidə Banu bəyim rolunu Punam Sinha ifa edib.

• 2013-cü ildə Hindistanın Zee TV kanalında “Jodha və Əkbər” televiziya filmi yayımlanıb. Baş qəhrəman Həmidə Banu bəyim rolunu Çhaya Phadkar canlandırıb.

• 2017-ci ildə Hindistan televiziyasının çəkdiyi “Əkbərin taxtına səyahət” serialında Həmidə Banu bəyim obrazını Rişina Kandhari oynayıb.

•İmperator Humayun və Həmidə Banu bəyim 2021-ci ildə Hindistanda efirə gedən “İmperiya” televiziya serialının əsas qəhrəmanlarıdır.

*Qulu KƏNGƏRLİ,*
*XQ-nin Türküstan üzrə xüsusi müxbiri*
**Daşkənd**

# Almaniya ciddi sınaq qarşısında

## *Berlinin seçimi "Qoca qitə"yə də təsir edəcək*

**Bu gün Almaniyada Bundestaqa növbədənkənar seçkilər keçirilir. Politoloqlar bildirirlər ki, "qoca qitə"nin yaxın gələcəyi də məhz bu seçkilərin nəticələrindən asılı olacaq.**




Yəqin ki, hazırda həm almanları, həm də ekspertləri narahat edən əsas sual koalisiyanın yaradılmasında hansı partiyanın aparıcı mövqe tutacağı və ona kimin dəvət ediləcəyidir. Son rəy sorğularının nəticələrinə görə, Xristian Demokratlar İttifaqı (XDİ) /Xristian Sosialistlər İtttifaqı (XSİ) sağçı populist Almaniya üçün Alternativ (AfD) partiyasını üstələyir. Hazırda iqtidarda olan Sosial Demokratlar Partiyasının (SDP) təxminən 15 faiz, "Yaşıllar" partiyasının isə 13-14 faiz arasında səs toplayacağı proqnozlaşdırılır. Bundan əlavə, Sol Partiyasının (6-8 faiz), Azad Demokratiya Partiyasının (ADP) (4-5 faiz) və Sara Vaqenknext İttifaqının (4-5 faiz) da Bundestaqda yer almaq şansları var.

Amma hamını daha çox ultrasağçı AfD-nin yüksəlişi narahat edir. Bu partiya Avropanın ən açıq ifrat sağçı və Rusiyayameyilli partiyalarından biridir. Avropa Parlamentində o, siyasi spektrin ən sağında olan "Suveren Millətlər Avropası" qrupunun bir hissəsidir. Heç bir Almaniya partiyası da onunla koalisiya yaratmaq istəmir. Bu da bir faktdır ki, 2022-ci ilin iyununda partiya sədrləri olan Alisa Vaydelin və Tino Xrupaallanın rəhbərliyi altında AfD-nin populyarlığı, xüsusən də keçmiş Almaniya Demokratik Respublikasının ərazisində artmışdı.

2024-cü ilin sentyabrında keçirilən yerli seçkilərdə isə AfD müvafiq olaraq 31,5 və 34 faizlə Brandenburq və Saksoniyada ikinci, 34,3 faiz səslə Türingiyada qalib gəlmişdi. AfD-nin populyarlaşmasına qeyri-qanuni immiqrasiya və İslamla mübarizə, qlobal istiləşmənin inkarı, Avropa İttifaqından çıxmaq və avrodan imtina kimi populist şüarlar təsir göstərir. Almaniyanın Ukraynaya dəstəyi dayandırmaq və qaz nəqlini bərpa etmək üçün Rusiya ilə münasibətləri yaxşılaşdırmaq tələbləri də AfD-yə xal qazandırır.

Bununla belə, Almaniya mühafizəkarları daha yüksək reytinqə malikdirlər. Xristian Demokratlara veteran alman siyasətçi Fridrix Merts rəhbərlik edir, o, partiyanı Angela Merkelin liderliyi dövründə olduğundan daha da sağa apardı. Xüsusilə, o, miqrantlar məsələsində sərt danışır. Bu, ona ifrat sağçılardan olan seçiciləri şirnikləndirməyə imkan verir və dövlətin tənzimləmənin ləğv edilməsini və iqtisadiyyata qarışmamasını müdafiə edir. Merts 2022-ci ilin yanvarında partiya lideri seçildikdən sonra Xristian Demokratlara dəstək keçən noyabrda 24 faizdən 33 faizə yüksəldi. Lakin son aylarda rəqəmlərdə eniş müşahidə olunur və indi seçicilərin 30 faizi mühafizəkarlara səs verməyə hazırdır.

Sosial demokratlar isə səslərin 17 faizinə arxalana bilər ki, bu da əvvəlki seçkilərlə müqayisədə üçdə bir azdır. 20 faizdən aşağı istənilən nəticə SPD-nin müharibədən sonrakı tarixindəki ən pis nəticə olacaq. Siyasi müşahidəçilərin sözlərinə görə, kansler Olaf Şolts son 50 ilin ən qısa müddətli Almaniya hökuməti və ikinci müddətə yenidən seçilməyən yeganə SPD kansleri olmaq riski ilə üz-üzədir. Bununla belə, analitiklər qeyd edirlər ki, seçicilər seçimlərində daha mobilləşdikcə dəstək səviyyələri sürətlə dəyişə bilər. 2021-ci il seçki kampaniyası zamanı XDİ cəmi bir neçə ay ərzində lider mövqeyini itirərək ikinci yerə düşmüşdü.

Bəs partiyalar seçkilərə hansı proqramlarla gedirlər? Mütəxəssislər bildirirlər ki, seçiciləri iqtisadi problemlər, qanunsuz miqrasiya və Avropanın təhlükəsizlik məsələləri narahat edir. Hazırda Almaniyada iqtisadi vəziyyət həyəcanvericidir. Vəziyyət o yerə çatıb ki, Almaniya 90-cı illərin sonunda olduğu kimi yenidən "Avropanın xəstə adamı" adlandırılır. Son illərdə ölkə iqtisadiyyatının əsas sektoru olan avtomobil sənayesi böhran yaşayır. Bundan əlavə, Almaniya yüksək texnologiyalı sənaye sahələrində də getdikcə daha çox geri qalır.

Donald Trampın son bəyanatları almanları da narahat edir. Bu yaxınlarda keçirilən sorğu nəticəsində məlum oldu ki, almanların 45 faizi Avropada sülh və təhlükəsizliyin qarşıdan gələn səsvermədə seçimlərini müəyyən edən ən mühüm amillər olduğuna inanır. Mühafizəkarların lideri Merts hesab edir ki, prezident Tramp administrasiyası Avropanı təhlükəsizlik və Vaşinqtondan asılılıq məsələlərini yenidən nəzərdən keçirməyə məcbur edir. Sosial demokratların lideri bildirir ki, Avropa ABŞ-ın dəstəyi olmadan öz təhlükəsizliyini təmin etmək üçün tam səfərbər olmalıdır.

Ukrayna məsələsi də seçki kampaniyasının əsas mövzularından biridir. AfD Almaniyanın Ukraynaya yardımını və silah tədarükünü dayandırmağa çağırır. Ancaq seçkilərdə qalib gəlmək şansı daha yüksək olan Almaniya müxalifətinin lideri Fridrix Merts bildirir ki, partiyası Ukraynaya dəstəyini davam etdirəcək. Merts əmindir ki, Ukraynanın təhlükəsizliyi Avropanın təhlükəsizliyinin tərkib hissəsidir.

Kansler Şolts da Ukraynanı həm hərbi, həm də maliyyə cəhətdən dəstəkləməyə davam edəcəyini vurğulayır. Onun sözlərinə görə, Kiyev Moskvanın hücumlarını dəf etməyə davam etdikcə, onun hökuməti Ukraynaya lazım olduğu qədər kömək edəcək: "Biz Ukraynanı tərk etməyəcəyik, onlarla məsləhətləşmədən qərarlar qəbul etməyəcəyik. Əmin olacağıq ki, bu ölkə onu kimin idarə edəcəyinə özü qərar versin".

Bir sözlə, Avropanın iqtisadi lokomotivi sayılan Almaniya növbəti seçimini edir. İndi Almaniyada daha çox mühafizəkarların liderinə – Fridrix Mertsə üstünlük verirlər. Bəs Merts ümidləri doğruldacaqmı? Bunu, əlbəttə ki, zaman göstərəcək. Lakin istənilən halda hakimiyyətə gələn siyasi qüvvələr Almaniyanın və ümumilikdə "qoca qitə"nin qarşısında dayanan strateji problemlərin həllilə məşğul olacaqlar. Zaman Avropanın xeyrinə işləmir.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

**Unudulmayanlar**

# "Ötkəm oğlan"ın əziz xatirəsi




**Şabran şəhərinin mərkəzindəki "Azadlıq" prospektində ərazicə yığcam, amma daim səliqə-sahmanlı bir park var. Ən gözəgəlimli guşədə qara mərmərdən bir xatirə barelyefi ucaldılıb. Oradan Azərbaycanın Milli Qəhrəmanı Çingiz Mustafayevin hamımıza doğma, tanış çöhrəsi boylanır.**

Lap yaxın keçmişəcən həmin parkın yerində rayon Sanitar Epidemioloji Stansiyası yerləşirdi. Nəriman Nərimanov adına Azərbaycan Tibb İnstitutunun (hazırda ATU adlanır-müəlif) məzunu Çingiz Mustafayev təyinatla Sanitar Epidemoloji Stansiyasında əmək fəaliyyətinə başlamışdı.

Yadımdadır, ötən əsrin səksəninci illəri idi. Atam da o tibb müəssisəsində çalışırdı. O, Çingizin xətrini çox istəyirdi. Çingiz haqqında söz düşəndə deyərdi ki, "bu bakılı balası çox qeyrətli oğuldur! Həm də ötkəm, cəsarətlidir!" Həqiqətən, Çingizin mərd, prinsipial xarakteri ilə bağlı Şabranda insanların qəlbində çoxlu xoş xatirə yaşayır.

İndi hər dəfə həmin parka yolum düşəndə, bir hadisə yadıma düşür.

Çingiz çox mehriban, xoşqılıq gənc olsa da, hər adamla oturub-durmazdı. Amma dost və tanışlarına qarşı çox həssas, diqqətcil idi. Ötkəm xarakteri vardı, xüsusilə də haqsızlığa qarşı dözümsüz idi.

Bir dəfə belə bir hadisə olmuşdu, rayon mərkəzindəki kinoteatrın qarşısında gəzişən milislər, necə deyərlər, dayanıb durduğu yerdə başıaşağı, fağırın birisini aşağılayaraq təhqir edirlər. Bu, Çingizə bərk toxunur və günahsız adamın müdafiəsinə qalxır. Çingizin zəifə qahmar çıxması milis nəfərlərini qəzəbləndirir və onu özləri ilə şöbəyə aparırlar. Çingiz barədə saxta ittihamlarla protokol bağlamaq fikrinə düşürlər. Lakin gənc həkimin savadı, məntiqini duyub milislər ona deyirlər ki, nə isə bir anlaşılmazlıq olub, siz azadsınız, gedə bilərsiniz.

Lakin Çingiz bu üzrxahlıqdan sonra da onlardan əl çəkmir:

– Xeyr, təhqir etdiyiniz vətəndaşdan da sizi bağışlamağını xahiş etməlisiniz. Yalnız bundan sonra mən sizinlə barışa bilərəm.

Milislər işin böyüyəcəyini, bu ötkəm gəncin onlardan əl çəkməyəcəyini görüb təhqir etdikləri oğlanı axtarıb tapıblar, elə Çingizin gözləri qarşısında ondan da üzr istəyiblər.

Bu əhvalat rayonda böyük əks-səda doğurur və rayon milis şöbəsi rəisinin də qulağına çatır. Rəis Çingizi kabinetinə dəvət edir. Sonra həmin milis işçilərini də çağırtdırır, onları danlayaraq deyir:

– Sizə minnətdaram, həkim, bizim şöbənin işçilərinə layiqli dərs vermisiniz. İnanıram ki, "bu dərsdən" başqaları da öz paylarını alacaqdır.

Çingiz Mustafayev qısa və ləyaqətli bir ömür yaşadı. Birinci Qarabağ müharibəsi başlayanda özünü odun-alovun içinə atdı, xalqımızın haqlı olduğunu bütün dünyaya çatdırmaq üçün canını qurban verdi. İndi Qarabağ azaddır. Ruhun şad olsun, Çingiz!

***Aydın TAĞIYEV,***
***yazıçı-publisist***

**Qış ovqatı**

# Bəyaz qarın nağılı

**Neçə gündür bəmbəyaz qar yağır. İnsanların giley-güzarına məhəl qoymadan yağır, sanki göydən yerə tər-təmiz nur səpələyir. Qar dənəcikləri ehmalca Yerə enir, ətrafı bəyazlığın ecazkar sehrinə bürüyür. Bu sehrli görüntü insanın qəlbinə dolur, duyğularımızı əsrarəngiz və möcüzəvi hisslərlə zənginləşdirir. Göy təmiz, yer təmiz... İlahi, bu təmizlik necə gözəl bir anlamdır. Bu sehirli mənzərənin bitəcəyini düşünəndə içinə bir soyuqluq dolur. Güclü bir hiss baş qaldırır səndə. Həyat nə qəribədir. Elə ki, istədiyinə nail olduğunu hiss edirsən, elə həmin anda da, o, yox olub gedir, səndən uzaqlaşır, yenə də əlçatmaz bir istəyə çevrilir.**

Nədənsə, yaş ötdükcə insan daha kövrək olur, mistik düşüncə tərzinə üstünlük verir. Belə düşüncələrdən nə qədər özümü uzaq tutmağa çalışsan da, nə etmək olar, sonda axı sən də bir insansan...

Qarın yağması mənə lap uşaqlığımı xatırlatdı. Səhər tezdən dizə çatan qarın içindən güc-bəla özümüzə bir cığır açaraq deyəgülə dərsə gedər, qan-tər içərisində məktəbə çatardıq. Yanaqlarımız tər-təmiz, bum-buz havadan qıp-qırmızı olardı. Zəngin çalınmasını səbirsizliklə gözləyərdik, beş dəqiqəlik tənəffüsü qar topu oynamaq üçün qənimət sayardıq. Qarın kefini çıxardar, məktəbin qarşısındakı təpəcikdə doyunca sürüşərdik. Həmin günlər məktəb illərindən yaddaşımızda qalan ən şirin xatirələrdir. O günləri xatırlamaq üçün səhər tezdən həyət qapısını açdım. Yola çıxdım. Gözüm məktəbə gedən uşaqları axtardı. Sakitlik idi. Bu zaman yanımdan bir maşın ötdü. Qonşum uşağını məktəbə aparırdı. Deməli, digər uşaqlar da məktəbə maşınla gedəcəklər. Axı həyətində maşını olmayan yoxdur. Bu uşaqların elə indidən böyük bir zövqdən məhrum olduqlarını düşünərək içimə təəssüf hissi dolur.





Bir-neçə çayxanaya ötəri də olsa, göz yetirirəm. İçəridə qələbəlikdir. Qəribədir, bu insanlar niyə özlərini qapalı məkanlarda daha yaxşı hiss edirlər. Qardan – axı belə qar tez-tez yağmır – həzz almağı heç ağıllarına da gətirmirlər. Mən isə neçə illərdir belə qarın həsrətində idim. Bu qar məni öz aləmimə qərq etdi. Bu qar mənə uşaqlıq xatirələrimi qaytardı. Bu qar dünyamızın təmizlik, saflıq fəlsəfəsidir. İnsanların bu təmiz, ləkəsiz, bəm-bəyaz saflığa biganəliyi məni qarın şaxtasından çox üşüdür. Qarın soyuğuna isti geyinməklə və ya isti bir guşəyə çəkilməklə qalib gələ bilərsən, amma insan biganəliyinin verdiyi soyuğun buzunu heç bir isti əritmir.

Bu qarın da bir ömrü var. Qar dənəcikləri təbiətə qarşı insanların pis münasibətindən doğan bütün eybəcərlikləri ört-basdır etmişdi. Təbiət bir rəngdə, bəyaz rəngdədir. Yenə qar əriyəcək, bu eybəcərliklər üzə çıxacaq. Düşünürəm, kaş bu qar insanların pis və yanlış düşünçə və əməllərini də təmizləyəydi. İnsanın əməl gözəlliyi onun mənəvi zənginliyinə dəlalət edir. Deyirlər, həyat inkişafın yüksək mərhələsindədir. Bəs ictimai şüur? Onu, təəssüf ki, deyə bilmərəm.

Qarın gözəlliyindən, onun insana bəxş etdiyi sevincdən, bir qar nağılından yazmağa oturmuşdum. Nə edim ki, yenə də fikirlərim haçalandı. Yaxşı ki, elə mövzu ətrafında haçalandı. Məni heç kəs fikrimdən döndərə bilməz. Qarın bəxş etdiyi sevinc hissi, bəyaz gözəlliyin səssiz simfoniyası ruhumu oxşayır. Siz də bu səssizliyi dinləyin, bu gözəlliyi içinizə çəkin, bax onda mənimlə həmfikir olacaqsınız və məni bu düşüncələrimə görə qınamayacaqsınız.

***Elmira MEHDİQIZI,***
***"Zaqatala" qəzetinin***
***baş redaktorunun müavini***

# Sən nə yamansan, a buz...



**Ölkəmizdə qarlı hava xeyir-bərəkəri ilə yanaşı, qayğıları da artırır. Dünyamızın ağ örpəyi xoş mənzərəsi, ümumi sevinci ilə bərabər, çətinlik də yaradır, kimlərə isə ağır-acı da yaşadır.**

Qarlı havanın fəsadları hərəkətin sıx olduğu paytaxtda daha çox hiss olunur. Son günlərdə Yol Polisi havaların kəskin dəyişməsi, yolların buz bağlayacağını barədə xəbərdarlıq etsə də zəruri tələbatdan əlavə, vəziyyəti düzgün qiymətləndirməmək səbəbindən yollara yenə çox maşın çıxıb. Buna görə də Bakının küçələrində böyük tıxaclar yaranıb.

Metronun "Neftçilər" və "Xalqlar dostluğu" stansiyaları ətrafında, Bayıl istiqamətində və Bayraq meydanından mərkəzə gələn yolda, Balaxanı və Zığ şoselərində nəqliyyatın hərəkəti çətinləşib. "20 Yanvar" dairəsi, Bakı–Sumqayıt, Xocəsən–Sulutəpə yolunda da böyük tıxaclar yaranıb.

Həmin yollar buz bağladığından avtomobillərin hərəkət sürəti xeyli aşağı olub, maşınların sürüşməsi müxtəlif qazalara səbəb olub.

Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumatda dekabrın 20-i axşam saatlarından başlayaraq havaların xeyli soyuq və dəyişkən keçəcəyi, temperaturun mənfi 2¬–5 dərəcəyədək enəcəyi bildirilib. Bu xəbərdarlığa məhəl qoymamaq isə əhalinin küçə və meydanlarda sıx hərəkəti ilə müşayiət olunub. Buna görə qar və buz üstündə sürüşüb yıxılanlar, müxtəlif xəsarət alanlar da olub.

Qar təbiət hadisəsidir və illər boyu onun çətinliyinə də alışmışıq. Qarın yağması uşaqların sevincinə səbəb olsa da, yaşlı adamların ehtiyatsızlıqdan yıxılıb müxtəlif xəsarətlər alması xəbərlərini eşitmək əhvalımızı korlayır. Bu dəfə də belə xəbərlər eşitməli olduq.

Səhiyyə Nazirliyinin məlumatına görə, dekabrın 21-də Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutuna qarlı havada yıxılıb xəsarət almış 55 nəfər müraciət edib. Həmin adamlarda, əsasən, sınıqlar, bilək və bud nahiyyəsində deformasiya, kəskin ağrı və şişkinlik müşahidə olunub. Dekabrın 22-si də daxil olmaqla, səhiyyə müəssisəsinə xəsarət alan 165 nəfər müraciət edib. Onların 13 nəfəri cərrahi müalicəyə məruz qalıb.

TƏBİB-dən verilən məlumatda isə bildirilib ki, Respublika Təcili və Təxirəsalınmaz Tibbi Yardım Mərkəzinə qarlı hava şəraiti ilə əlaqədar 41-i qadın, 43-ü kişi olmaqla, 84 nəfər müraciət edib. Onlardan 79 nəfər müxtəlif xəsarəətlə müvafiq tibb müəssisələrində yerləşdirilib.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, soyuq hava və qar yağması dekabrın 24-dək davam edəcək. Ona görə də zəruri hal olmadıqca evdə qalmaq və bayıra çıxarkən isə ehtiyatlı olmaq tövsiyə edilir.

***Zərifə HÜSEYNOVA***
***XQ***

Xalq qəzeti

XQ

xalqqazeti.az

№ 41 (30735) 23 fevral 2025-ci il, bazar

İdman

# Bakıda gimnastların Dünya kuboku




**Bakıda batut gimnastikası və tamblinq üzrə Dünya kuboku turniri start götürüb.**




Milli Gimnastika Arenasında təşkil edilən yarışın açılış mərasimində əvvəlcə iştirakçı ölkələr təqdim olunub, dövlət bayraqları zala gətirilib.

Gənclər və idman naziri Fərid Qayıbov Azərbaycanın hər il gimnastika üzrə beynəlxalq yarışlara ev sahibliyi etdiyini və bunun ölkə idmanının inkişafı üçün mühüm önəm daşıdığını vurğulayıb.

Fərid Qayıbov çıxışında Azərbaycanın idman uğurlarında dövlətin böyük rolunu olduğunu, Prezident İlham Əliyevin, o cümlədən birinci xanım, Azərbaycan Gimnastika Federasiyasının rəhbəri Mehriban Əliyevanın idmana göstərdiyi diqqət və qayğını qeyd edib.

Qeyd edək ki, Dünya Kubokunda 15 ölkədən idmançılar fərdi və sinxron proqramlar üzrə mübarizə aparırlar.

Millimiz təsnifat mərhələsində çıxışı uğurlu olub. Belə ki, gimnastlarımız 4 kateqoriyada finalda mübarizə aparacaqlar. Adil Hacızadə və Tofiq Əliyev tamblinqdə bu imkanı əldə ediblər. Selcan Mahsudova isə batut gimnastikasında fərdi proqramda finala yüksəlib. Selcan Mahsudova və Əli Niftəliyev dueti batut gimnastikasıda qarışıq sinxron cütlük kateqoriyasında medallar uğrunda yarışacaq.

Dünya Kubokuna fevralın 23-də yekun vurulacaq.

# 4 boksçumuz Rumıniya finalında




**Rumıniyada gənc boksçular arasında "Drakula Open" beynəlxalq turniri davam edir.**

Yarımfinalda uğurla çıxış edən Azərbaycan millisinin 4 idmançısı finala yüksəlib. Həlledici mərhələdə Hikmət Məmmədov (48 kq) Ruslan Budniçenko (Ukrayna), Zidan Hümbətov Ukraynanın digər təmsilçisi Oleksandr Paşiçenko (Ukrayna) ilə görüşəcəklər. Sübhan Babayev (57 kq) rumıniyalı Stefan Udroiu, Məhəmməd Cəfərov (+92 kq) isə bu ölkənin digər təmsilçisi Denis Cucu (Rumıniya) ilə döyüşəcək.

Digər boksçularımızdan Baqir Əmirxanlı (60 kq), Mircəlal Mirağayev (80 kq) və Hüseyn Hüsenli (92 kq) finala yüksələ bilmədiklərindən bürünc medalla kifayətləniblər.

Qeyd edək ki, yarışa fevralın 23-də yekun vurulacaq.

*Leyla QURBANOVA*
*XQ*

Təqvim yada salır

# Banişevski – Azərbaycan futbolunun əfsanəsi

**"Mən "Neftçi"də böyüyüb, boya-başa çatmışam. Onunla birlikdə fəxri kürsüyə yüksəlmiş, güclülər dəstəsini tərk etmiş və yenə qayıtmışam. Oynamağı bitirdikdə, əlbəttə ki, "Neftçi"nin çılğın azarkeşi olacağam".**



Azərbaycanın idman ictimaiyyətinin, bütün xalqımızın dərin minnətdarlıq hissi ilə qəbul etdiyi bu sözlər bu gün, fevralın 23-də anadan olmasının 79-cu ili tamam olan unudulmaz Anatoli Banişevskiyə məxsusdur. Ruhu şad olsun. O, xatirələrdə "Neftçi"yə, Bakıya, Azərbaycana əsl sədaqət nümunəsi kimi yaşayır.

Hər dəfə, xüsusən də 23 fevral və 10 dekabrda –futbol əfsanəmizin doğum və anım günlərində Banişevski deyəndə, Banişevskini xatırlayanda nələr yada düşmür?

"Neftçi"nin heyətində SSRİ çempionatının güclülər dəstəsində 212 oyun və 81 qol.

1978-ci il oktyabrın 15-də gözlərimiz qarşısında, Bakıda Dnepropetrovskın "Dnepr" komandasının qapısından keçirdiyi 2 topla ölkə birinciliklərində və kubok yarışlarında vurduğu qolların sayını 100-ə çatdırıb, "Q. Fedotov Klubu"na üzv olması.

Daim rəqiblərin müdafiə xəttini gərgin vəziyyətdə saxlaması, hər iki ayağı ilə mükəmməl zərbələri, başla əla oyunu, komanda yoldaşlarını ağır mübarizəyə ruhlandırmaq və arxasınca aparmaq bacarığı.

Öz dövründə sovet futbolunda ən güclü hücumçulardan biri olması, SSRİ yığma komandası heyətində 51 oyunda 20 qol vurması.

Həmin komandanın tərkibində Avropa çempionatının gümüş mükafatçısı olması. 1965-ci ildə bu komanda ilə Cənubi Amerikaya səfər zamanı 2015-ci ildən Bakı ilə qardaşlaşmış Rio-de-Janeyronun nəhəng "Marakana" stadionunda Braziliya millisi ilə yoldaşlıq görüşündə uzaq məsafədən başla vurduğu qol və gərgin oyunda qeydə alınmış heç-heçə (2:2).

"Neftçi"nin liderinin 1965-ci ildə sovet yığma komandasının Yunanıstanda bu ölkənin millisi ilə dünya çempionatının seçmə görüşündə var gücü ilə parlaması. SSRİ futbolçularının 4:1 hesabı ilə qalib gəldikləri matçda üç qolun müəllifi bakılı hücumçu olmuşdur.

Daha nələr, nələr? Hamısını bir yazıya sığışdırmaq mümkün deyil. A. Banişevskinin futbol həyatı tarixi nailiyyətlər və əlamətdar hadisələrlə zəngindir.

Bu nailiyyətlərin ən şirinləri 1966-cı ilə təsadüf etmişdir. Biri yayda uzaq İngiltərədə, digəri isə payızda doğma Bakıda qeydə alınmışdır.

Futbolun vətənində 59 il əvvəl keçirilmiş dünya çempionatı tərkibində Banişevskinin də çıxış etdiyi SSRİ komandası futbolçularının bürünc medalları ilə yadda qalmışdır. Nə həmin ilədək, nə də ondan sonra sovet kollektivi mundiallarda belə böyük uğur qazana bilməmişdir.

Həmyerlimizin çempionatda nümayiş etdirdiyi yüksək ustalıq da diqqətdən kənarda qalmamış, o vaxtlar mətbuatda yayılan məlumata görə, beynəlxalq futbol bazarında ona 150 min funt sterlinq məbləğində qiymət qoyulmuşdu. Bu məbləğ isə təxminən yarım milyon ABŞ dollarına bərabər idi.

Dünya çempionatı sınaqlarından 4 ay sonra Banişevski bir daha – bu dəfə doğma "Neftçi"nin heyətində fəxri kürsüyə yüksəldi, 28-ci SSRİ çempionatının da bürünc mükafatçısı oldu. Çempionatda üçüncü yerin taleyinin həll olunduğu oyunda "Neftçi" stadionumuzun tribunalarına toplaşan 45 min pərəstişkarını Moskvanın "Spartak" komandasının qapısına vurduğu 3 cavabsız qolla sevindirdi. Oyunun qəhrəmanı isə məşhur qapıçı, sonralar da televiziyada rəğbətlə qarşılanan şərhləri ilə diqqətləri özünə cəlb etmiş Vladimir Maslaçenkonu 2 dəfə topu tordan çıxarmağa məcbur edən Banişevski oldu.

Yenə maraqlıdır, "Neftçi" nə həmin tarixi uğurdan əvvəl, nə də sonra heç vaxt SSRİ çempionatlarında medal qazanan komandalar sırasında olmayıb. Bir ildə iki tarixi nailiyyət, iki bürünc medal hələ çox gənc – 20 yaşlı mərkəz hücumçumuzu göylərə qaldırdı.

Bir vaxtlar fəxrlə, qürurla "Mən "Neftçi"də böyüyüb, boya-başa çatmışam. Onunla birlikdə fəxri kürsüyə yüksəlmiş, güclülər dəstəsini tərk etmiş və yenə qayıtmışam. Oynamağı bitirdikdə, əlbəttə ki, "Neftçi"nin çılğın azarkeşi olacağam", – deyən Anatoli Banişevskinin cəmi 51 illik ömründə son mükafatı isə ölümündən 1 il əvvəl, 1996-cı ildə Prezident Heydər Əliyevin imzaladığı sərəncamla Vətənin yüksək mükafatı – "Şöhrət" ordeni oldu.

Futbol ictimaiyyətimiz hər il olduğu kimi, bu gün də Anatoli Andreyeviç Banişevskini böyük sevgi və dərin ehtiramla yad edir.

Nə yaxşı ki, futbol əfsanəsinə çevrilmiş "9 nömrə"nin oyununu, vurduğu qolları görmüş və yorulmadan alqışlamışıq.

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

# Xankəndinin bəyaz sevinci



Hava

# Qarlı bazar günü...




Milli Hidrometeorologiya Xidmətindən verilən xəbərə görə, bu gün Bakıda və Abşeron yarımadasında arabir qar yağacaq. Yarımadanın ayrı-ayrı yerlərində intensivləşəcək. Mülayim şimal-qərb küləyi əsəcək.

Havanın temperaturu gecə və gündüz 0-3° şaxta olacaq. Atmosfer təzyiqi 768 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə və gündüz 75-85 faiz olacaq. Gecə və səhər yollar buz bağlayacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman. Mülayim qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 2-7° şaxta, gündüz 2° şaxtadan 2°-dək isti, dağlarda gecə 10-15° şaxta, yüksək dağlıq ərazilərdə 19-24° şaxta, gündüz 3-8° şaxta olacaq. Bəzi yerlərdə yolların buz bağlama ehtimalı var.

*QQ ASIMOV*
*XQ*

# UNESCO-da Ana Dili Günü

**Parisdə UNESCO-nun mənzil-qərargahında Beynəlxalq Ana Dili Günü qeyd olunub. Banqladeşin UNESCO yanında Daimi Nümayəndəliyi və Təhsil Sektorunun birgə təşkilatçılığı ilə Beynəlxalq Ana Dili Gününə həsr edilmiş sərgi keçirilib.**



Sərgidə Azərbaycan, Paraqvay, Hindistan, Ukrayna, Lüksemburq, Rusiya, Peru, Çili, Nikaraqua, Cənubi Koreya və El Salvador kimi ölkələr iştirak edib.

Azərbaycanın UNESCO yanında Daimi Nümayəndəliyinin stendində Azərbaycan dili əlifbası, açıqcalar, müxtəlif kitablar, milli suvenirlər nümayiş olunub. Stendimizin ziyarətçilərinə ölkəmizin tarixi, mədəniyyəti, dili haqqında ətraflı məlumat verilib.

Sərgi konsert proqramı ilə davam edib. Azərbaycan milli rəqsi "Naz eləmə" təqdim olunub. Sərgi 25 fevraladək davam edəcək.

Xatırladaq ki, 1999-cu ildə UNESCO Baş Konfransı zamanı Banqladeşin təşəbbüsü ilə fevralın 21-i Beynəlxalq Ana Dili Günü elan edilib.

*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

Əflatun Amaşov və "Xalq qəzeti"nin kollektivi "Qafqazinfo" xəbər portalının baş direktoru Elbrus Əruda atası

**RAMİZ SEYFULLAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**BAŞ REDAKTOR**

**ƏFLATUN AMAŞOV**

**T E L E F O N L A R:**
**Reklam və elanlar: 493-82-21**
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

Ü N V A N I M I Z:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3204
SİFARİŞ 376
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır 00:00